Xalqın qəzeti!

# Xalq qəzeti

№ 104 (30508) 19 may 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Bakı təhdidləri cavabsız qoymayacaq



Səhifə ⇨ 6

## Hansına inanaq: Peskova, yoxsa Qriqoryana?



Səhifə ⇨ 6

## Aksiyalar qonşularımızı hara aparır?



Səhifə ⇨ 5

## REŞ erməni iqtidarına qarşı: Paşinyan istefaya getməlidir!



Səhifə ⇨ 6

# Şərqi Zəngəzurda yeni layihələrə start verildi



Səhifə ⇨ 2

## Türklüyün zəfər yolu



Səhifə ⇨ 10

## Kəndin üzü bar-bərəkətədir



Səhifə ⇨ 8

## Paraatletimizin 3-cü dünya çempionluğu




Səhifə ⇨ 12

# Ararat Mirzoyanın arxiyepiskopdan nə fərqi?

### *Yaxud erməni avantürizminin baş-ayaq məntiqi*

**Azərbaycanla Ermənistan arasında sülh danışıqları davam edir. Artıq delimitasiya və demarkasiya işlərinə start verilib. İlk baxışdan pozitiv mühit formalaşıb. Hazırkı vəziyyət onu deməyə əsas verir ki, yekun sülh sazişinin imzalanacağı gün uzaqda deyil. Amma...**

Sülh prosesini şübhə altına alan bir sıra proseslər də diqqətdən yayınmır. Onlardan birincisi, Tavuş arxiyepiskopu Baqrat Qalstanyanın başlatdığı hərəkatdır. Açıq-aydın görünür ki, bu hərəkat danışıqlara və əldə edilmiş razılaşmalara qarşı çıxmaq məqsədi daşıyır.

Doğrudur, bu hərəkat baş nazir Nikol Paşinyan iqtidarına qarşı yönəlib və əsl məqsədi Ermənistanda hakimiyyət dəyişikliyinə nail olmaqdır. Erməni kilsəsinin revanşist-şovinistlərlə işbirliyi məsələsini nəzərə alsaq, vəziyyətin daha dramatik şəkil aldığını söyləyə bilərik.

Ancaq ehtimal etmək mümkündür ki, keşişin başladığı hərəkat aysberqin görünən tərəfidir. Yəni, anti-iqtidar direnişinin erməni hakimiyyəti tərəfindən təşkil olunduğunu da söyləmək üçün əsas var. Məsələ ondadır ki, Paşinyan və komandası indiyədək Azərbaycanla sülh danışıqları fonunda səmimi olmayıb. Bir qayda olaraq, manipulyasiya yolunu tutub. Yəni, ölkə müxalifətinin qaldırdığı şivən ritorikası onun işinə yarıyıb.

Rəsmi İrəvan xaricdəki havadarlarına göstərməyə çalışıb ki, daxili etiraza görə, Azərbaycana güzəştə gedilməsi mümkünsüzdür. Bu yolla ikincilərin ölkəmizə təzyiq göstərmək üçün qərarlı davranmalarını istəyib.

Bəli, Ermənistan hakimiyyəti elə indinin özündə də səmimi deyil. Həm bu baxımdan, həm də ümumən erməni cəmiyyətinin və ictimaiyyətinin qeyri-səmimiliyi nöqteyi-nəzərindən ən müxtəlif məqamları qabartmaq mümkündür. Yazımızda onlardan yalnız ikisinin üzərində dayanacağıq.

***

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Avropa Şurasının Nazirlər Komitəsinin 133-cü sessiyasında çıxış edərkən Azərbaycanla sülhdən söz açıb və ölkəsinin prosesə sadiqliyini ifadə edib. Ancaq, o, bunadək Ermənistan xarici siyasətindəki ənənəvi absurdizm notlarına köklənməyi yaddan çıxarmayıb. Məsələn, Mirzoyan dünyada sülh və təhlükəsizliyin pozulması tendensiyasının Cənubi Qafqaz seqmentini ortaya ataraq, ölkəmizi ittiham yolunu tutub. XİN rəhbəri bildirib ki, Azərbaycan doqquz ay blokadada saxladıqdan sonra Qarabağa hücum çəkib və nəticədə bölgənin erməni əhalisi öz evlərini tərk etmək məcburiyyətində qalıb. Bu isə insan hüquqlarının və deməli, Avropa Şurasının təməl prinsiplərinin pozulmasıdır.

Göründüyü kimi, erməni iqtidarı insan hüquq və azadlıqları müstəvisində manipulyasiya yolunu tutur. Çünki Azərbaycan antiterror tədbirləri ilə özünün suveren ərazilərində konstitusion quruluşunu bərpa edib. Erməni əhaliyə gəlincə, onları bölgədən çıxaran ölkəmiz deyildi. Ermənistan hakimiyyəti bunu qəsdən etmişdi ki, gələcəkdə məsələni etnik təmizləmə kimi təqdim edib, Bakıya qarşı təzyiq formalaşdırsın. Lakin istəyinə çata bilmədi.

Mirzoyanın manipulyativ xəttinin digər göstəricisi isə onun Azərbaycan həbsxanalarında hərbi əsir və girovların saxlanılması ilə bağlı sərsəmləmələri idi. Məsələ ondadır ki, saxlanılan şəxslər müharibədən sonra ölkəmizin ərazisində kəşfiyyat-diversiya fəaliyyəti həyata keçirməyə cəhd göstərənlərdir. Yəni, hər bir



halda məsuliyyətə cəlb edilmələri mütləqdir. Beləlləri ətrafında siyasi şou yaratmaq yolverilməzdir. İndiki halda həm də riyakarlıqdır.

***

Üzərində dayanacağımız ikinci məqam qeyri-səmimi yanaşma baxımından daha qabarıq nəzərə çarpır. Məlum olduğu kimi, iki gün əvvəl Azərbaycanda səfərdə olan Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə Şuşada oldu. “Novosti Armenii-News.am” informasiya agentliyi hadisəni belə sərlövhə ilə təqdim etdi: “Lukaşenko “qardaşı” Əliyevin müşayiəti ilə Azərbaycan tərəfindən işğal olunmuş (?) erməni şəhəri Şuşidə (?) oldu”.

Əlbəttə, Ermənistan hakimiyyəti bu təqdimatı söz və ifadə azadlığı kimi göstərəcək durumdadır. Ola bilər, ölkə iqtidarı medianın işinə qarışmadığını da bildirsin. Ancaq, heç şübhəsiz, bunun özündə də bir manipulyativ gediş olacaq. Reallıq budur ki, Paşinyan və komandası lazım olanda bu kimi hallara münasibətdə süngüyə əl atmaqda pərgardır.

Digər yandan, bir halda ki, Mirzoyan, az qala, Qarabağın Azərbaycan tərəfindən işğalı ritorikasına baş vurur, o zaman “News.am” və digər media orqanlarından nə gözləyəsən? Əlbəttə ki, heç nə. Üstəlik, oxşar “dəst-xətt” seçən erməni media orqanlarının sayı onlarcadır və hər birinin ictimai rəyə böyük təsir imkanları var. İndi belə başa düşək ki, Ermənistan hakimiyyətinin media prinsiplərinə saymazyana münasibət göstərənlərə qarşı təsir gücü yoxdur?..

Deməli, erməni XİN başçısı kimi, ölkənin media orqanları da beynəlxalq hüquqa zidd davranırlar. Mirzoyan bir yandan Qarabağ erməniləri məsələsindən söz açır, digər yandan isə 1991-ci il Alma–Ata Bəyannaməsinə əsasən, sərhədlərin delimitasiyası və demarkasiyasından danışır. Sual yaranır: Alma–Ata Bəyannaməsi sabiq SSRİ-yə daxil olan müttəfiq respublikaların bir-birinin ərazi bütövlüklərini tanımalarını əsas götürürdüsə, o zaman Mirzoyan hansı əsasda beynəlxalq platformalarda Qarabağ erməniləri ilə bağlı məsələdən söz açır? Üstəlik, “Dağlıq Qarabağ” ifadəsini işlədir. O ifadəni ki, elə yaranışından erməni avantürizminin məhsulu olub.

***

Bəli, əvvəldə vurğuladığımız kimi, Ermənistandakı bu sayaq yanaşmalar səmimiyyət mühitinin formalaşmasına əngəl törədir. Belə çıxır ki, əslində, Mirzoyanın arxiyepiskop Baqratdan heç bir fərqi yoxdur. Nəzərə alsaq ki, media ölkədə ictimai rəyin formalaşmasında katalizator rolunu oynayan institutdur, deməli, XİN rəhbəri cəfəng məntiq ilə erməni mediası üçün də eyni dərəcəli mənbədir. Bütün bunlardan sonra Ermənistanda Azərbaycanı nədəsə ittiham edənlər tapılır.

***XQ-nin analitik qrupu***

# Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri

## Böyük Mərcanlıda təməlqoyma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonuna səfər edib.**

Dövlətimizin başçısı Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndinin təməlqoyma mərasimində iştirak edib.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına kəndin Baş planı üzrə görüləcək işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, Böyük Mərcanlı kəndi Araz vadisində, Cəbrayıl şəhərindən 22 kilometr məsafədə yerləşir. Cəbrayıl rayonunun ən iri yaşayış məntəqələrindən biridir.

Baş plana əsasən kəndin ümumi sahəsi 362 hektar təşkil edir. 2040-cı ilədək 6230 nəfər əhali üçün 1074 fərdi ev və bir neçə mərtəbəli yaşayış binaları layihələndirilib. Burada inzibati bina, klub-icma mərkəzi, çoxfunksiyalı bina, idman və ailə-sağlamlıq mərkəzləri, mərasim evi, bazar kompleksi və digər qeyri-yaşayış obyektlərinin tikintisi nəzərdə tutulur. Həmçinin Böyük Mərcanlı kəndində əhalinin tələbatına uyğun olaraq iki məktəb və beş uşaq bağçası inşa olunacaq.

2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi 41 hektardır. Bu mərhələdə Böyük Mərcanlıya 542 nəfərin köçürülməsi üçün 149 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq.

Prezident İlham Əliyev Böyük Mərcanlı kəndinin təməlini qoydu.

## Karxulu kəndində 145 fərdi ev tikiləcək



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Karxulu kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.**

Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Cəbrayıl rayonunun inzibati ərazisinə daxil olan Karxulu kəndi şimaldan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, cənubdan və cənub-şərqdən Horadiz-Ağbənd dəmir yolu xətti ilə əhatə olunub.

2040-cı ilədək kəndin layihələndirilən ərazisi 313 hektar təşkil edir və bu müddət ərzində kənddə 4428 sakin üçün 940 fərdi ev və bir neçə mərtəbəli bloklu evlərin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulur.

Kənddə inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, kiçik sahibkarlıq obyektləri inşa olunacaq. Bundan başqa, Baş plana müvafiq olaraq, kənddə əhalinin tələbatına uyğun iki tam orta məktəb və dörd uşaq bağçası tikiləcək.

2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 125 hektardır. Bu mərhələdə 691 sakin üçün 145 fərdi evin layihələndirilməsi və tikintisi nəzərdə tutulub.

Qeyd edək ki, dövlətimizin başçısının tapşırıqlarına əsasən, bütün işlər ən yüksək səviyyədə yerinə yetiriləcək.

Prezident İlham Əliyev Karxulu kəndinin təməlini qoydu.

## Sarıcallı kəndi yenidən dirçəldilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Sarıcallı kəndinin təməlini qoyub.**



Dövlətimizin başçısına kənddə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Cəbrayıl rayonunun Sarıcallı kəndi şimaldan yeni salınan Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolu, şimal-şərqdən Şükürbəyli kəndi, cənubdan və cənub-şərqdən Horadiz-Ağbənd dəmir yolu xətti, cənub-qərbdən və qərbdən Soltanlı kəndi ilə əhatə olunub.

Qeyd olundu ki, Baş planda kəndin ümumi sahəsi 330 hektar təşkil edir. 2040-cı ilədək 4740 nəfər əhali üçün 1185 fərdi evin və bir neçə mərtəbəli bloklu binaların layihələndirilməsi nəzərdə tutulur. Burada inzibati bina, klub-icma, ailə və idman sağlamlıq mərkəzləri, ticarət və məişət xidməti binası, yanğınsöndürmə deposu, aqrotexniki park, mərasim evi, kənd bazarı, kiçik sahibkarlıq obyektləri tikiləcək. Bundan başqa, əhalinin tələbatına uyğun iki tam orta məktəb və 4 uşaq bağçasının layihələndirilməsi də nəzərdə tutulur. Ümumiyyətlə, bu yaşayış məntəqəsində əhalinin məşğulluğunun təmin edilməsi də diqqət mərkəzində olacaq.

2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi isə 104 hektardır. Bu mərhələdə kəndə 1016 sakinin köçürülməsi üçün 242 fərdi ev inşa olunacaq.

Prezident İlham Əliyev Sarıcallı kəndinin təməlini qoydu.

## Maşanlı kəndində minə yaxın sakin məskunlaşacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Cəbrayıl rayonunun Maşanlı kəndinin təməlini qoyub.**

Dövlətimizin başçısına kəndin Baş planı üzrə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, 2040-cı ilədək kəndin layihələndirilən ərazisi 157,54 hektar olacaq. Həmin müddətdə kənddə 2360 sakin üçün 590 fərdi evin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulub.

Vurğulandı ki, kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Bu kənddə də inzibati bina, klub-icma, idman sağlamlıq mərkəzləri, həkim məntəqəsi, mərasim evi, bazar kompleksi, ticarət, ictimai-iaşə, kiçik sahibkarlıq obyektlərinin layihələndirilməsi planlaşdırılır. Bundan başqa, Baş plana əsasən, kənddə tam orta məktəb üçün bina və iki uşaq bağçasının tikintisi nəzərdə tutulub.

"Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən burada məskunlaşacaq əhalinin yaşayış yükü nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 50 hektar yer ayrılıb. Bu mərhələdə 944 sakin üçün 236 fərdi ev tikiləcək.

Prezident İlham Əliyev Maşanlı kəndinin təməlini qoydu.

## Prezident və birinci xanım "Ağalı" hotelinin açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 18-də Zəngilan rayonunun Ağalı kəndində "Ağalı" hotelinin açılışında iştirak ediblər.**

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev hoteldə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi.

Bildirildi ki, "Ağalı" hoteli Zəngilan şəhər mərkəzindən 20 kilometr məsafədə, Həkəri çayı vasitəsilə yaradılmış süni gölün sahilində yerləşir. Hotelin binası üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Foyenin sağ və sol hissələrində restoranlar fəaliyyət göstərəcək. Birinci mərtəbənin sağ qanadında 60 nəfərlik tədbir otağı, həmçinin işgüzar görüşlər üçün 20 nəfərlik iclas zalı mövcuddur. Sol qanadda isə xüsusi qonaqların qarşılanması üçün tədbir zalı və 76 nəfərlik restoran var.

Hotelin ikinci və üçüncü mərtəbələri eyni tipli otaqlardan ibarətdir. Hər mərtəbədə 39 otaq var. Həmçinin hotelin hər mərtəbəsində fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş otaqlar da mövcuddur. "Ağalı" hotelinin zirzəmi hissəsində qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes mərkəzi yaradılıb.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni dəyərləri ilə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. Bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər həyata keçirilir. Bu baxımdan Füzuli və Zəngilanda tikilən, Laçında tikintisi davam edən beynəlxalq hava limanları azad edilən ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin cəlb olunmasında mühüm rol oynayacaq.



# Mincivan qəsəbəsində təməlqoyma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməlini qoyub.**

Dövlətimizin başçısına qəsəbənin Baş planı üzrə görüləcək işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, layihələndirilən ərazi rayon mərkəzindən 13,2 kilometr cənub-şərq istiqamətində, Araz çayının sahilində - respublika əhəmiyyətli Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd yolu və Horadiz-Ağbənd dəmir yolu xətti üzərində yerləşir.

Qəsəbənin sahəsi 301,51 hektardır. 2040-cı ilədək qəsəbədə 9088 nəfər üçün 630 fərdi ev və bir neçə mərtəbəli yaşayış binalarının tikilməsi nəzərdə tutulub. Mincivan qəsəbəsində yaşayacaq əhalinin məşğulluğunun təmin olunması məqsədilə idarəetmə, mədəniyyət və əyləncə, iqtisadi inkişaf obyektləri, xidmət və kommersiya müəssisələri yaradılacaq. Belə ki, qəsəbədə inzibati bina, mədəniyyət mərkəzi, kitabxana və çoxfunksiyalı bina, restoran, idman-sağlamlıq, ailə-sağlamlıq mərkəzləri, hotel, Bayraq meydanı, ticarət, məişət və baytarlıq xidmətləri obyektləri, mebel mağazası, mərasim evi, yanğın deposu, bazar kompleksi, emalatxana və satış köşklərinin yaradılması nəzərdə tutulub. Mincivan qəsəbəsində tam orta məktəb, uşaq bağçası, poliklinika, avtovağzal binası, yanacaqdoldurma məntəqəsi, anbar və logistika binaları, ağac emalı və mebel sexləri, digər istehsalat müəssisələri də inşa olunacaq.

“Böyük Qayıdışa dair I Dövlət Proqramı”na müvafiq olaraq, birinci mərhələ üçün layihələndirilən ərazinin sahəsi 153,4 hektardır. Bu mərhələdə Mincivan qəsəbəsinə 3146 nəfərin köçürülməsi üçün 628 fərdi ev və 92 mənzildən ibarət bir neçə mərtəbəli dörd yaşayış binasının tikintisi nəzərdə tutulur.

Prezident İlham Əliyev Mincivan qəsəbəsinin təməlini qoydu.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan məscidinin açılışında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 18-də Zəngilan məscidinin açılışında iştirak ediblər.**

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Zəngilanda yeni məscidin təməli şəhər işğaldan azad edildikdən sonra - 2021-ci il aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Məscidin tikintisini Heydər Əliyev Fondu “PAŞA Holdinq” MMC-nin dəstəyi ilə həyata keçirib.



Ermənistan 30 illik işğal dövründə əzəli Azərbaycan torpaqlarında olan bütün dini abidələrimizə qarşı vəhşiliklər törədib. Ermənilər şəhər və rayonlarımızda yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıdıb, təbii sərvətlərimizi talan edib, bu ərazilərdəki dini, tarixi, mədəniyyət abidələrimizi vandalizm aktlarına məruz qoyub. O cümlədən Zəngilan rayonundakı tarixi, dini, mədəniyyət abidələrimiz erməni təcavüzünün qurbanları sırasındadır. Burada da müqəddəs ocaqlarımız ermənilər tərəfindən dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki tarixi məsciddən tövlə kimi istifadə olunub. XIX əsrdə inşa edilmiş və memarlıq abidəsi kimi inventarlaşdırılan məscid dağıdılıb, ilkin görkəmini 70 faizə qədər itirib.

İşğal altında olan ərazilərimiz azad edildikdən sonra Qarabağdakı tarixi, dini və mədəniyyət abidələrinin bərpası layihələri çərçivəsində Zəngilan məscidində bərpa-tikinti işlərinə başlanılmışdı. Yerli və xarici ekspertlərdən ibarət işçi qrup məscidin mövcud binasında qiymətləndirmə aparıb və buna əsasən binanın konservasiyasına qərar verilib.

Konservasiya olunan tarixi məscidin yanında yeni məscid inşa edilib. Yeni məscid binası düzbucaqlı plan quruluşlu, iki minarəli, üç nefli layihələndirilib. Məscid binasında 220 və 100 nəfərlik ibadət zalları yaradılıb. Məscidin minarələri və günbəzi kaşı və kərpicdən yığılıb. İnteryerdə nəqqaşlıq işləri aparılıb, mehrab kaşıdan yığılmış nəbati naxışlarla işlənib. Minbər və şəbəkə elementləri təbii ağacdan hazırlanıb.

İşğal dövründə dağıdılmış tarixi Zəngilan şəhər məscidinin ərazisində isə açıq səma altında sərgi yaradılıb. Sərgi Qarabağ və Şərqi Zəngəzur ərazilərində mövcud olmuş bir sıra dini abidələrimizə qarşı törədilmiş vandalizmin ümumi mənzərəsini əks etdirir. Burada işğalın ən ağır fəsadlarından biri kimi bəşəri əhəmiyyətə malik mədəni irsimizin, o cümlədən İslam dininə aid abidələrin qəsdən dağıdılması və məhv edilməsinə dair faktlar yer alıb. Eyni zamanda, bu ərazilərdə yüzlərlə müsəlman qəbiristanlığının məhv edildiyi, müsəlman dini ibadət yerlərinin, məscid və türbələrimizin təyinatının dəyişdirilərək saxtalaşdırıldığı, bir çox hallarda isə tövlə kimi istifadə olunaraq orada dinimizdə haram sayılan heyvanların saxlanıldığı aşkar edilib.

# Birinci xanımın paylaşımı

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva instaqram sosial şəbəkəsindəki hesabında Zəngilan səfəri ilə bağlı paylaşım edib.**



# “Zəngilan” və “Şayıflı” SES işə salındı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Zəngilan” və “Şayıflı” Su Elektrik stansiyalarının açılışlarını edib.**

“AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

İşğaldan azad edilən ərazilərdə yaşıl enerji zonasının yaradılması, rayonların karbonsuz zonaya çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq “AzərEnerji” ASC tərəfindən Oxçuçayın Zəngilan rayonunun ərazisindən keçən hissəsində hər birinin gücü 10,5 meqavat olmaqla dörd yerdə ümumi gücü 42 meqavat olan “Zəngilan” Su Elektrik stansiyaları silsiləsi layihələndirilərək qısa vaxt ərzində tikilib. İşğaldan azad edilən ərazilərdə ən böyük silsilə su elektrik stansiyası olan Zəngilan silsiləsindən “Cahangirbəyli” SES 2023-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə istismara verilib. “Şayıflı” və “Zəngilan” SES-lər açılışa hazır vəziyyətə gətirilib, “Sarıqışlaq” SES-də isə işlər başa çatdırılıb.

Bildirildi ki, Araz çayının sol qolu olan Oxçuçay üzərində inşa edilən SES-ləri su ilə təmin etmək üçün dəniz səviyyəsindən 600 metr yüksəklikdə baş suqəbuledici qurğu tikilib. Ümumi uzunluğu 83 kilometr olan və 36 kilometrlik hissəsi Ermənistan ərazisindən keçən çaya mütəmadi olaraq Qacaran, Zəngəzur mis-molibden, Qafan dağ-mədən kombinatlarının ağır metal tərkibli mədən tullantıları axıdılır. Bu amillərə görə Oxçuçayın üzərində baş suqəbuledicinin yaradılması enerji istehsalından əlavə, ekoloji cəhətdən olduqca əhəmiyyətli hadisədir. Belə ki, baş suqəbuledicinin tikilməsi ermənilər tərəfindən sənaye üsulunda çirkləndirilən çay yatağının təmizlənməsinə, flora və faunanın dirçəlməsinə yardım edəcək. Çünki suqəbuledicinin yaradılması çirkləndirici maddələrin çökməsinə şərait yaratmaqla yanaşı, aşağı axın zonasına təmiz suyun ötürülməsinə və çay ekosisteminin özünübərpasına zəmin yaradır. Eyni zamanda, daşqınların qarşısının alınması və su itkisinə yol verilməməsi üçün suqəbuledicinin yaradılması olduqca əhəmiyyətli hadisədir. Ona görə də burada dib sutullayıcı, suaşıran, lil ötürücü və balıq vətəgə qurğuları yaradılıb. Baş suqəbuledicidən çıxan suyun 35 faizi çay məcrasında saxlanılaraq kaskad üsulla tikilən SES-lərə giriş-çıxış olmaqla ümumilikdə 23,5 kilometr məsafədə qoşa derivasiya boruları çəkilib və borudan çıxan su təkrar çaya buraxılır.

Qeyd edildi ki, Oxçuçay üzərindəki SES-lərin tikilməsi ilə bağlı Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən aidiyyəti dövlət qurumlarının əməkdaşlarının, elm adamlarının, media və QHT-lərin nümayəndələrinin iştirakı ilə açıq ictimai dinləmələr keçirilib və layihəyə yüksək qiymət verilib.

Diqqətə çatdırıldı ki, hər birinin gücü 10,5 meqavat olmaqla ümumi gücü 21 meqavat olan “Zəngilan” və “Şayıflı” SES-lər üçün maşın zalları tikilib. Çətin iqlim və sərt relyefli ərazidə yerləşməsinə baxmayaraq, burada böyük həcmli torpaqlama, betonlama və digər işlər həyata keçirilərək sıfırdan yeni SES-lər tikilib. İstər derivasiya boruları çəkilərkən, istər maşın zalı tikilərkən, istərsə də digər quraşdırma işləri aparılarkən layihəyə uyğun olaraq ekoloji normalara riayət edilib. Maşın zallarının hər birində dörd yaşıl sertifikatlı Avropa istehsalı olan iki ekoturbin və generatorlar quraşdırılıb. Bu turbinlər çayda su azaldıqda ekoloji normaların qorunması üçün avtomatik özünü dayandırmaq, suyun keyfiyyətinə təsir etmədən istiqamətləndirici aparat vasitəsilə yağ və digər zərərli maddələrin suya qarışmasının qarşısını almaq qabiliyyətinə malikdir.

Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək “Zəngilan” və “Şayıflı” SES-lərdə rəqəmsal qaydada məlumatların axını mərkəzə ötürülməklə yanaşı, məsafədən idarəedilməsi təmin olunub. Bunun üçün mikro SCADA sistemi yığılıb, 25 kilometr məsafədə yüksəkgərginlikli yeni elektrik verilişi xətləri və 24 damarlı optik kabel xətti çəkilib. “Zəngilan” və “Şayıflı” SES-lərdə il ərzində hər birində 30 milyon kilovat-saat olmaqla, ümumilikdə 60 milyon kilovat-saat yaşıl enerji istehsal ediləcək və bununla da 14 milyon kubmetr qaza qənaət edilməklə yanaşı, atmosferə atılan karbon qazının (CO2) həcmi 28 min ton azalacaq.

Dövlətimizin başçısı “Zəngilan” və “Şayıflı” SES-lərin tikintisindən və yaradılan şəraitdən bəhs edən videoçarxa baxdı.

Prezident İlham Əliyev stansiyaları işə saldı.

Məlumat verildi ki, bu günə qədər “AzərEnerji” ASC tərəfindən Zəngilan rayonunda 30 nəfər əsasən yerli sakin daimi işlə təmin edilib. Ümumilikdə, işğaldan azad edilən ərazilərdə indiyədək Prezident İlham Əliyevin məşğulluq və məskunlaşma siyasətinə uyğun olaraq “AzərEnerji” tərəfindən 400-ə yaxın daimi iş yeri yaradılıb. Yaxın gələcəkdə 10-dan artıq Kiçik Su Elektrik stansiyalarının (KSES) istismara verilməsi və əlavə KSES-lərin tikintisinə başlanılması ilə işçi sayı 550-ni keçəcək. İşçilərin 70 faizi məhz işğaldan azad edilən rayonların sakinləridir.

Qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzur regionlarında “AzərEnerji” ASC tərəfindən iki yeni müəssisə - “Qarabağ Regional Elektrik Şəbəkəsi” MMC və “Yaşıl Enerji Elektrik Stansiyası” MMC yaradılıb. İşəgötürmə zamanı, ilk növbədə, “AzərEnerji” ASC-də hazırda işləyən keçmiş məcburi köçkünlər arasından seçim edilib. Eyni zamanda, regionlarda məskunlaşdırılan sakinlərin işə cəlb edilmələri zamanı peşəsi olmayan kadrlar üçün təlimlər keçirilib, sertifikatlaşdırılma aparılıb.

# Zəngilanda yol-kommunikasiya şəbəkəsi yaradılır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 18-də Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoyub.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, layihə üzrə şəhərdaxili yolların ümumi uzunluğu 31 kilometrdir. Layihənin birinci mərhələsində ümumilikdə 17,14 kilometr uzunluğunda yollar salınacaq. İki və dörd hərəkət zolaqlı bu yolların eni 18-34 metr olacaq. Yolboyu velosiped və piyada zolaqları yaradılacaq, yaşıllıqlar salınacaq.

Dövlətimizin başçısına Horadiz–Zəngilan avtomobil yolunda görülən əsaslı təmir işləri barədə də məlumat verildi.

Qeyd edək ki, Horadiz–Zəngilan avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biridir. Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun Horadiz-Zəngilan hissəsi ötən əsrin 80-ci illərində inşa edilib və otuzillik işğal dövründə tamamilə sıradan çıxarılaraq yararsız vəziyyətə salınıb.

Uzunluğu 61 kilometr olan Horadiz–Zəngilan avtomobil yolunun əsaslı təmiri dövlətimizin başçısının müvafiq Sərəncamına əsasən həyata keçirilib. Təmir-tikinti işləri Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan ilə dövlət sərhədi avtomobil yolunun Horadiz-Zəngilan hissəsində aparılıb. Üçüncü texniki dərəcəyə uyğun olaraq əsaslı şəkildə yenidən qurulan yolun torpaq yatağının eni 12 metrdir. Yolboyu mövcud asfalt-beton örtüyü qazılaraq kənarlaşdırılıb, yol yatağının və yol əsasının tikintisi, müxtəlif ölçülü suötürücü boruların inşası, körpülərin təmiri, həmçinin kommunikasiya xətlərinin köçürülməsi işləri görülüb. Tikinti işlərinin vaxtında yekunlaşdırılması üçün əraziyə lazımi sayda işçi qüvvəsi və texnika cəlb olunub.

Sonra Prezident İlham Əliyev Zəngilan şəhərinin daxili yol-kommunikasiya şəbəkəsinin təməlini qoydu.

**AZƏRTAC**

# Azәrbaycan–Amerika tәrәfdaşlıq mәsәlәlәri müzakirә edilib

*“Bizi qәbul etdiyinә görә ABŞ Sülh İnstitutuna tәşәkkür edirik”*

**Bu barәdә Azәrbaycan Prezidentinin kömәkçisi – Prezident Administrasiyasının Xarici siyasәt mәsәlәlәri şöbәsinin müdiri Hikmәt Hacıyev “X”dәki hesabında yazıb.**



“Hörmәtli iştirakçılarla Azәrbaycan vә ABŞ arasında ikitәrәfli münasibәtlәr vә tәrәfdaşlığımızın daha da inkişaf etdirilmәsi, Azәrbaycan üçün COP29 kimi daha qlobal vә yeni xarici siyasәt baxışı, iqlim vә yaşıl hәmrәylik gündәliyi, Mәrkәzi Asiya vә Azәrbaycan vahid geosiyasi vә geoiqtisadi mәkan kimi vә regional әmәkdaşlığın güclәndirilmәsi, Orta Dәhliz, Xәzәr–Qara dәniz bәrpa olunan enerji dәhlizi layihәsi, Ermәnistan–Azәrbaycan münasibәtlәrinin normallaşdırılması vә sülh gündәliyinin tәşviqi, Cәnubi Qafqaz regionunun transformasiyası vә inteqrasiyası ilә bağlı geniş fikir mübadilәsi apardıq”, – H.Hacıyev qeyd edib.

**XQ**

# Latviya Parlamentinin sәdri Azәrbaycana gәlib



**Latviya Parlamentinin sәdri Daiga Mierinanın başçılıq etdiyi nümayәndә heyәti mayın 18-dә Azәrbaycan Respublikasına rәsmi sәfәrә gәlib.**

Hәr iki dövlәtin bayraqlarının dalğalandığı Heydәr Әliyev Beynәlxalq Aeroportunda Latviya Parlamentinin sәdri Daiga Mierinanı vә nümayәndә heyәtini Milli Mәclisin Azәrbaycan-Latviya parlamentlәrarası әlaqәlәr üzrә işçi qrupunun rәhbәri Kamran Bayramov vә Azәrbaycanın Latviyadakı sәfiri Elnur Sultanov qarşılayıblar.

**XQ**

# Әfv Mәsәlәlәri Komissiyasının iclasları yekunlaşır

**Azәrbaycan Prezidenti yanında Әfv Mәsәlәlәri Komissiyasının iclasları yekunlaşır, sәnәdlәr tәqdim olunacaq. Bu barәdә komissiyanın üzvü, Mәtbuat Şurasının sәdri Rәşad Mәcid mәlumat verib.**



O bildirib ki, komissiyanın bu il indiyәdәk 5 iclası keçirilib: "Növbәti iclas isә mayın 22-nә tәyin olunub. Hәmin iclasdan sonra daha bir toplantının da keçirilmәsinә ehtiyac ola bilәr".

R.Mәcid qeyd edib ki, ötәn müddәtdә komissiyaya ümumilikdә 5 minә yaxın müraciәt daxil olub: "Qaydalara uyğun olan müraciәtlәrin sayı isә tәxminәn 500-ә yaxın idi. Hәr iclasda tәxminәn 100 müraciәtә baxılır, sәsvermәdәn sonra qәrar qәbul olunur".

Onun sözlәrinә görә, әfv müraciәtlәrinin sırasında ağır cinayәtlәrdәn tutmuş, ehtiyatsızlıqdan törәdilәn cinayәtlәrә qәdәr var: "Bütün müraciәtlәrә, o cümlәdәn әcnәbilәrin vә qadınların әfv üçün müraciәtlәrinә baxılır, hәr biri әtrafında geniş müzakirәlәr aparılır".

# Azәrbaycan media heyәti Mәrakeşdә



**Mәrakeş Krallığında sәfәrdә olan Audiovizual Şuranın sәdri İsmәt Sәttarov, Dövlәt İnformasiya Agentliyinin İdarә Heyәtinin sәdri Vüqar Әliyev vә Medianın İnkişafı Agentliyinin icraçı direktoru Әhmәd İsmayılovun daxil olduğu heyәt Mәrakeşin gәnclәr, mәdәniyyәt vә kommunikasiya naziri Mohammed Bensaid ilә görüşüb.**

Mәrakeşli nazir, eyni zamanda, Azәrbaycan ilә Mәrakeş arasında müxtәlif sahәlәrdә әlaqәlәrin genişlәndiyini vurğulayıb, birgә fәaliyyәt vә әmәkdaşlıq imkanlarından söz açıb. MEDİA-nın İcraçı direktoru Әhmәd İsmayılov isә agentliyin fәaliyyәti barәdә mәlumat verib. O, mәrakeşli naziri bu yay Şuşada keçirilәcәk II Qlobal Media Forumuna dәvәt edib.

Mәrakeşin rәsmi dövlәt informasiya agentliyi olan “Maghreb Arab Presse”in baş direktoru Fuad Arif ilә görüşdә o, rәhbәrlik etdiyi Agentliyin xarici әmәkdaşlıq imkanlarından danışıb. AZӘRTAC-ın İdarә Heyәtinin sәdri Vüqar Әliyev rәhbәrlik etdiyi Agentliyin fәaliyyәtinә dair mәlumat verib. O isә MAP-ın baş direktorunu Şuşa Qlobal Media Forumuna dәvәt edib.

**XQ**

# AMEA-nın yenilәşmә kursu: dövlәtçilik vә müasirlik kontekstindә

## (fәlsәfi yanaşma)

**IV MӘQALӘ**



### Elmi mәrkәzlәrlә әlaqәlәrin genişlәnmәsi

Dünyanın müxtәlif elmi mәrkәzlәri ilә әlaqәlәrin genişlәnmәsi ilә ölkәnin elmi jurnallarının beynәlxalq indekslәşmәsi bir-biri ilә sıx bağlı olan istiqamәtlәrdir. Onları bir mәqsәdә yönәldәn Azәrbaycan elminin dünya miqyasında tanıdılmasıdır. Hәm dә yeni, daha әsaslı vә inandırıcı üsulla.

Mәsәlә ondan ibarәtdir ki, sovetlәr zamanı formalaşmış bir әnәnә var: alimlәr fәrdi olaraq özlәrini xaricdә tanıdırdılar. Mәsәlәn, bizim çox mәşhur vә dәyәrli alimimiz Xudu Mәmmәdov Almaniyada elmi konfransların birindә elә mәruzә etmişdi ki, zalda ayaq üstә dinlәyәnlәr belә vardı. Lakin öncә, X.Mәmmәdovu onlar üçün “uzaq” olan Azәrbaycandan gәlmiş “hansısa bir alim” kimi tәsәvvür etmişdilәr vә onun mәruzәsini konfransın sonuna 5 dәqiqә qalmışa salmışdılar. Ancaq Azәrbaycan alimi etiraz edәrәk mәruzәni ertәsi gün edәcәyini bildirmişdi. Almanlar onu tәşkil etmişdilәr vә Xudu Mәmmәdov geniş mәruzә ilә onların beyinlәrini vә qәlbәrini fәth etmişdir. Başqa nümunәlәr dә çoxdur. Ancaq mәsәlә ondan ibarәtdir ki, indi AMEA özünün alimlәri üçün sistemli vә öncәdәn tәşkilatı tәmsil edәn yaradıcı insan olaraq dünya miqyasına çıxarır. Belә ki, öncәdәn imzalanan әmәkdaşlıq sәnәdinә görә, beynәlxalq alәmә çıxış edәn Azәrbaycan aliminin arxasında AMEA dayanır – alim hәm özünü, hәm dә tәşkilatını tәmsil edir! Bu, daha real vә nüfuzlu yanaşmadır.

Hәmin aspektdә elmi jurnalların beynәlxalq indeksә malik olması öncәdәn Azәrbaycan alimlәrini dünyaya tanıdır vә onlar beynәlxalq tәdbirә tanınmış alimlәr kimi gedirlәr. Burada, tәbii ki, “Azәrbaycandan gәlmişdir, çıxış etsin” mәntiqi deyil, “Azәrbaycandan tanınmış alim, AMEA-nın әmәkdaşını maraqlı mәruzә üçün dәvәt etmişik” mәntiqi işlәyir. Bu tәqdimatlar arasındakı fәrqi, yәqin ki, hәr kәs aydın görür.

Dәmәli, Azәrbaycan jurnallarının beynәlxalq indekslәşmәsi sadәcә iki qardaş ölkә olan Azәrbaycan vә Türkiyәnin elmi әmәkdaşlıq formatı deyildir vә o, geniş anlamda Azәrbaycan alimlәrinin dünya miqyasında yaradıcı әlaqәlәrinin artırılması, onların tanıdılması vasitәsilә elmimizin dünya elminә inteqrasiyasının “canlı” üsullarından biridir. AMEA bu istiqamәtdә ciddi surәtdә yenilәşir!

### Yubiley tәdbirlәri

Bu mәsәlәni bir neçә dәfә vurğulamışıq. Azәrbaycan alimlәrinin yubiley tәdbirlәri, şübhәsiz ki, hәm ayrılıqda alimlәrin yaradıcılığının tәşviqi, hәm dә bir camiyә olaraq Azәrbaycan elm dairәsinin simalaşmasıdır. Buna “AMEA simalarda” desәk, mәsәlәnin proses olaraq әhәmiyyәti daha aydın görünәr. Çünki әgәr yubiley tәdbirlәri yaradıcılıqları ilә AMEA-nı tәcәssüm edәn alimlәrimizin elm insanı kimi psixoloji, mәnәvi, mәdәni, kreativ özәlliklәrini daha dәrindәn vә geniş xarakterizә edә bilәcәksә, bütövlükdә tәşkilatın elmi fәaliyyәtinin incәliklәri daha aydın olacaqdır. Buna görә dә mәhz Azәrbaycan alimlәrinin yaradıcılıq yubileylәri, onlar haqqında “AMEA simalarda” kod adlı әsәrlәrin nәşri әhәmiyyәtli mәqamdır. Bu kontekstdә dünyanın tanınmış alimlәrinin AMEA-ya dәvәt edilmәsi ayrıca vacib prosesdir. Vurğuladığımız hallar sistem halında Azәrbaycan elminin tәşviqi üçün geniş imkanlar açır.

Әvvәlki mәqalәlәrdә dә qeyd etdiyimiz mәqamları nәzәr alsaq, şübhә yeri qalmır ki, AMEA rәhbәrliyi yenilәşmә kursunu çox istiqamәtdә vahid mәntiqi müstәvidә vә mәqsәdyönlü şәkildә hәyata keçirir. Bu zaman ölkәnin strateji inkişaf kursu çәrçivәsindә fәaliyyәt göstәrilir. AMEA-nın 80 illik yubileyinә hazırlıq hәmin mәnada istisna deyildir – tәşkilat müәyyәn dәrәcәdә yenilәşmәnin bir mәrhәlәsinin hesabatını vermәyә hazırlaşır. Bu hesabat atılan addımların konkret mәzmunu prizmasında ölkәnin baş elmi tәşkilatının tarixi әnәnә üzәrindә müasirlәşmәsinin müәyyәn mәnzәrәsi olacaqdır. Elә bir mәnzәrә ki, orada AMEA-nın dövlәtçilik vә müasirliyin sintezindә milli ideya kontekstindә Prezident İlham Әliyevin, bütövlükdә, Azәrbaycanı yenilәşdirmәsinin konkret әlamәtlәri görünsün. Elә bir mәnzәrә ki, Azәrbaycan Prezidentinin dövlәt, ölkә vә cәmiyyәtin strateji inkişaf kursunun AMEA-nın öhdәsinә düşәn aspektlәrini hәyata keçirmәkdә qәtiyyәtli olduğunu hәr kәs görsün.

AMEA-nın bu yenilәşmә әzmi çox vacib başqa bir mәsәlәni daha da aktuallasdırır.

### Maliyyә tәminatı

Uzun müddәtdir ki, AMEA-nın maliyyәlәşmәsi ölkәnin ziyalı dairәlәrindә geniş müzakirә olunur. Alimlәr hesab edirlәr ki, onların әmәklәrinin maliyyәlәşmәsi sistemi ciddi keyfiyyәt dәyişikliyinә uğramalıdır. Ayrıca, AMEA әmәkdaşlıq vә bütövlükdә kollektiv bir tәşkilat olaraq, ölkәnin baş elmi müәssisәsinә maliyyә ayırımı kәskin olaraq artmalıdır. Müqayisә üçün deyәk ki, inkişaf etmiş ölkәlәrdә elmә 3-4 faiz ayrılır. Azәrbaycanda bu rәqәm KİV-dәki informasiyalara görә, çox azdır.

Әlbәttә, burada hәqiqәt vardır. Eyni zamanda, bәzilәri “alimlәr nә yaradıblar ki, yüksәk maliyyә tәminatı olsun” kimi mücәrrәd süni arqumentlәrlә çıxış edirlәr. “Qutadqu bilik” vә “Nizamülmülk”dәn bu yana belә bir әnәnә vardır: dövlәt alimi tam tәmin etmәlidir vә hәtta, ona müәyyәn mülk vermәlidir. Sәbәbini belә izah edirlәr ki, әgәr dövlәt alimini tәmin etmәsә, onda bunu başqaları edәcәk vә elm yadlara xidmәt edәcәk. Demәli, “Qutadqu bilik” vә “Nizamülmülk” dә әsrlәrlә öncә elmin dövlәtә vә xalqa xidmәtini ön plana çәkmişdir.

İndi AMEA tarixi yenilәşmә hәyata keçirir. Dәfәlәrlә vurğulamışıq ki, bu xәttin әsas strateji mәqsәdi Azәrbaycanın inkişafına xidmәtdәn ibarәtdir. Azәrbaycan Prezidenti İlham Әliyev mükәmmәl inkişaf kursu müәyyәn etmişdir vә bunun fonunda alimlәr öz dövlәtinә, cәmiyyәtinә fayda verәn araşdırmalara üstünlük vermәkdә qәrarlıdırlar. Vә AMEA rәhbәrliyinin bu seçimi, mәncә, çox doğru vә tarixi mahiyyәtlidir. Çünki AMEA müasir mәrhәlәdә ilk dәfәdir ki, bir sistem, tәşkilat vә baş elmi müәssisә olaraq yenilәşmәdә konkret istiqamәt müәyyәn edәrәk (Azәrbaycan Prezidentinin bütövlükdә ölkәni inkişaf etdirmәk kursu fonunda) ardıcıllıqla yenilәşir.

Şübhә yoxdur ki, bu cür sistemli vә davamlı prosesә ciddi maliyyә dәstәyi lazımdır. AMEA-nın dövlәtçilik vә milli ideya kontekstindә tam yenilәşmәsi üçün ona uyğun maliyyәlәşmә mexanizmi hәyata keçirilmәlidir. Buraya dövlәt büdcәsi ilә yanaşı, ayrı-ayrı nazirliklәr vә tәşkilatların da sifarişlәri vә qrant müsabiqәlәri dә daxil olmalıdır. Müqayisә üçün deyәk ki, Rusiya alimlәrinin mәqalәlәrini oxuyanda әksәriyyәtindә “filan qrant әsasında yazılmışdır” informasiyasına rast gәlinir. Әlbәttә, Azәrbaycanda da qrantlar verilir, lakin bu işin dinamik sistemli tәşkilinә vә irihәcmli qrantların sayının çoxaldılmasına açıqca ehtiyac vardır.

Maliyyәlәşmәnin yenilәşmәsi müasir tәdqiqat üsulları prizmasında çox vacib görünür. Mәsәlәnin mahiyyәti indi dünyada kollektiv, komanda halında araşdırmaların aparıcılıq tәşkil etmәsi ilә bağlıdır. Müxtәlif elm sahәlәrinin tәdqiqatçıları birgә işlәmәyi vә faydalı olmağı öyrәnmәlidirlәr. Bunun üçün xüsusi maliyyәlәşәn araşdırmaların aparılması zәrurәtdir.

### Yenilәşmәyә davam!

Yuxarıda vurğulanan fikirlәrin işığında AMEA-da yenilәşmә prosesinin inamlılığı aydın görünür. Tәşkilat rәhbәrliyinin hәyata keçirdiyi kompleks proqram-layihәlәr vahid bir mәqsәdә istiqamәtlәnmişdir vә sistemli olaraq reallaşır. Azәrbaycan alimlәri öz potensiallarını dövlәt vә cәmiyyәt üçün sәrf etmәkdәn qәtiyyәn çәkinmirlәr. Bu yolda hәr cür fәdakarlığa hazırdırlar. Azәrbaycanın müstәqilliyi, güclü dövlәt quruculuğu vә güclü cәmiyyәtin formalaşması prosesindә AMEA bütün imkanları ilә iştirak edir. Belә görünür ki, tәşkilatın 80 illik yubileyi bu baxımdan ayrıca әhәmiyyәt daşıyan hadisә olacaqdır. Bu, AMEA-nın yenilәşmәsi mәrhәlәsinә düşәn ilk yubileydir. Onun yüksәk sәviyyәdә vә elmi baxımdan faydalı olması üçün kompleks tәdbirlәr nәzәrdә tutulmuşdur.

Yubiley müәyyәn mәnada hәm dә AMEA-nın yenilәşmәnin hansı mәrhәlәsindә olduğuna aydınlıq gәtirәcәkdir. Şübhә etmirik ki, hәmin kontekstdә 80 illik yubiley tәşkilatın elmi tarixindә bir dönüş nöqtәsi olacaqdır vә ictimai etirafa yol açacaqdır. Mәn burada “ictimai etiraf” ifadәsini konkret mәnada işlәdirәm. Yәni Azәrbaycan cәmiyyәtinin hәtta AMEA-nın fәaliyyәtinә müәyyәn şübhә ilә yanaşan kәsimlәri ölkәnin baş elmi tәşkilatının düzgün vә uğurlu yenilәşmә kursu seçdiyini etiraf edәcәklәr. Bu da bütövlükdә cәmiyyәtdә son illәr müәyyәn dairәlәr tәrәfindәn aparılan “antiakademiya” kampaniyasının iflası olacaqdır.

AMEA-nın elm tarixindә 80 illik yubileyin dönüş nöqtәsi olmasının dәrin mәnası vardır. Burada bir neçә faktorun qarşılıqlı әlaqәsi özünü göstәrir.

Birincisi, AMEA bundan sonra ölkә Prezidentinin hәyata keçirdiyi inkişaf kursunun fәal iştirakçılarından biri kimi dövlәt quruculuğunda strateji qurum kimi funksiyasını yeni mәrhәlәyә yüksәldәcәkdir.

İkincisi, AMEA-da tәdqiqatların tәşkili üsulu müasir proqressiv araşdırma üsulları ilә zәnginlәşәcәkdir.

Üçüncüsü, AMEA institutlararası әlaqәlәri daha sistemli, geniş vә dәrin sәviyyәyә çatdırmaqla bir böyük araşdırma kollektivi kimi yeni struktur-funksional keyfiyyәtә yiyәlәnәcәkdir.

Dördüncüsü, AMEA beynәlxalq әlaqәlәrini düşünülmüş qaydada genişlәndirәrәk hәm Azәbaycanda elmi tәcrübәni zәnginlәşdirәcәk, hәm dә müstәqil dövlәt quruculuğu üçün prinsipial strateji әhәmiyyәt daşıyan türk dövlәtlәri ilә elmi әmәkdaşlığı yeni dinamik formata transfer edәcәkdir.

Әlbәttә, biz AMEA-nın 80 illik yubileyinin konkret nәticәlәrini 2025-ci ildә yenidәn fәlsәfi tәhlil etmәyi vә proqnostik fikirlәr irәli sürmәyi vәzifәmiz hesab edirik. Ancaq indidәn tәşkilat rәhbәrliyinin yenilәşmә kursunun bir sıra fәlsәfi aspektinin tәhlili göstәrir ki, nikbin nәticәlәr alınacaqdır! AMEA bunun üçün sәfәrbәr olunmuşdur vә bu proses davamlı olacaqdır!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fәlsәfә elmlәri doktoru***

# 254 hektar әrazi minalardan tәmizlәnib

**Azad edilmiş әrazilәrdә Azәrbaycan Ordusunun Mühәndis Qoşunlarının hissә vә bölmәlәrinin fәaliyyәti nәticәsindә bu ilin mayında 254 hektardan çox әrazi minalardan tam tәmizlәnib.**





Müdafiә Nazirliyinin mәtbuat xidmәtindәn verilәn mәlumata görә, işğaldan azad edilәn әrazilәrdә indiyәdәk mühәndis-istehkam bölmәlәri 37 min 583 hektar әrazini mina vә partlamamış döyüş sursatlarından tәmizlәyib. Ümumilikdә 10 min 463 piyada әleyhinә, 3 min 318 tank әleyhinә mina vә 12 min 814 partlamamış döyüş sursatı aşkarlanaraq mәhv edilib.

Әsas sәylәrin azad olunmuş әrazilәrdә yaşayış mәntәqәlәri, әkin sahәlәri, yollar vә infrastruktur obyektlәrinә yönәldildiyi mühәndis tәminatı üzrә zәruri tәdbirlәr plana uyğun davam etdirilir.

**XQ**

# Aksiyalar qonşularımızı hara aparır?

## Ermənistan və Gürcüstan hakimiyyətləri müxalif təhdidlə üz-üzə

**Müsahibimiz Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxovdur**



**Cənubi Qafqaz regionundakı 3 respublikadan ikisində – Gürcüstan və Ermənistanda son vaxtlar kütləvi etiraz aksiyaları keçirilir. Əgər Gürcüstanda etiraza çıxanlar "Xarici təsirlərin şəffaflığı haqqında" qanunun onları Avropaya və bütövlükdə, Qərbə inteqrasiya yolundan, dolayısı ilə əməkdaşlıqdan uzaqlaşdıracağını düşünürlərsə, Ermənistandakı etirazçılar Azərbaycanla münasibətlərin yaxşılaşmasını istəmədikləri üçün küçələrə çıxıblar. Başqa sözlə, gürcülər əməkdaşlıq istədikləri, ermənilər isə istəmədikləri üçün küçələrə çıxıblar. Əslində, baş verənlər bizim üçün gözlənilməz deyil. Gürcülər əməkdaşlıq tərəfdarı olduqları üçün hər zaman irəli gediblər, ermənilər isə ötən onilliklər ərzində yerlərində saymağa davam edirlər. Məhz İrəvanın işğalçılığı səbəbindən Azərbaycandan start götürən mühüm nəqliyyat-kommunikasiya və enerji xətləri bu gün Ermənistandan deyil, Gürcüstandan keçir.**

**Qonşu ölkələrdə baş verən hadisələr, eləcə də gündəmin digər aktual məsələləri ilə bağlı Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxovla söhbətləşdik. Müsahibəni təqdim edirik.**

**– Fikrət müəllim, Azərbaycanla delimitasiya sahəsində əldə edilən razılaşmaya etiraz əlaməti olaraq, aprelin sonlarından Ermənistanda aksiyalar keçirilir. Bu aksiyalarla bağlı fikirlərinizi bilmək istərdik...**

– Aydın məsələdir ki, bu, sadəcə olaraq, bir erməni din xadiminin şəxsi təşəbbüsü ilə başlanan etiraz aksiyası deyil. Xaricdə onun arxasında dayanan müəyyən qüvvələr var. Təbii ki, Rusiya Nikol Paşinyanın fəaliyyətindən çox narazıdır. Çox güman ki, burada Rusiyanın da marağı var. Daxildə də aksiyaların arxasında Robert Koçaryan, Serj Sarkisyan, Qarabağ klanının digər nümayəndələri, revanşistlər, radikallar dayanıblar. Bu qüvvələrin Paşinyana qarşı birləşməsi istiqamətində canlanma gedir. Amma söhbət heç 4 kəndin Azərbaycana qaytarılmasından getmir. Bu, sadəcə olaraq, bəhanədir. Onlar yaxşı başa düşürlər ki, həmin kəndlər Azərbaycana məxsusdur. Hətta, Ermənistanın ikinci prezidenti Sarkisyan da kəndlərin ötən əsrin 90-cı illərinin əvvəllərində işğal olunduğunu etiraf etmişdi. Öz fikirlərini bununla "əsaslandırmağa" çalışmışdı ki, guya, Azərbaycan orada qaz borusunu partlatmaq istəyirmiş. Yəni, dövlət başçısına yaraşmayan belə cəfəng söhbət etmişdi.

Biz görürük ki, Ermənistanda hakimiyyət uğrunda mübarizə gedir. Paşinyanı və onun komandasını devirmək istəyirlər. Görünən həm də odur ki, onların gücü çatmır. Onlar nümayişkəranə şəkildə Tavuş vilayətindən İrəvana yürüş etməklə və mitinqə müəyyən əhalini toplamaqla heç nəyə nail ola bilmirlər. Arada parlamentdə Paşinyanın impiçmenti məsələsini ortaya atırlar. Amma orada da səs çoxluğu əldə edə bilmirlər. Eyni zamanda, onlar hesab edirlər ki, Paşinyan özü istefa verməlidir. Bu da alınmır. Digər tərəfdən onların heç xarizmatik liderləri də yoxdur. Heç özləri də Paşinyanı kimin əvəz edəcəyini bilmirlər. Yəni, öz aralarında da qalmaqallı vəziyyət yaranıb. Hətta, absurd təklif də irəli sürülür ki, bəlkə arxiyepiskop Baqratın özü baş nazir olsun?! Bütün bunlar aksiyaların artıq ciddiyə alınmadığını göstərir.

Reallıq bundan ibarətdir ki, erməni cəmiyyəti artıq yorulub. Onlar 2020-ci ildə 44 gün başqa dövlətin ərazisində nə üçün döyüşdüklərini, qan tökdüklərini, nəyi, kimi müdafiə etdiklərini düşünürlər. Başa düşürlər ki, onlar Azərbaycanın torpağında idilər, biz onların ərazisində deyildik. Orada müəyyən təbəqələr artıq bu reallıqları başa düşürlər. Buna görə də mən Paşinyan əleyhinə keçirilən aksiyaların uğurla başa çatacağını, yəni onların baş naziri asanlıqla devirə biləcəklərini düşünmürəm.

**– Ermənistanda aksiyaların başlanmasından bir aya yaxın vaxt ötür. İndiyədək hansısa uğur qazana bilməyən revanşistlər hələ də küçələrdən çəkilmək istəmirlər. Sizcə, onlar bundan sonra nəyə ümid edirlər?**

– Aksiyaların necə yekunlaşacağı hakimiyyətdən asılıdır. Əgər hakimiyyət daha konkret və radikal addımlar atsa, aksiyaların təşkilatçılarını qanunsuz hərəkətlərinə görə həbs etsə, bu məsələdə Paşinyan iqtidarı, necə deyərlər, qalib ayrılacaq. Bununla ölkədə sabitlik faktiki olaraq, bərpa edilə bilər. Amma Paşinyan hökuməti buna liberal yanaşacaqsa, günlərlə meydanda "nağıl danışmağa" imkan yaradacaqsa, əlbəttə, etirazçılar daha radikal addımlar da ata bilərlər. Bunlar çox incə, eyni zamanda, mühüm məqamlardır. Yəni, hakimiyyət özünü və dövlətçiliyi qorumağa qadir olmalıdır. Əgər hansısa keşişlər, təsadüfi ünsürlər, dövlətçiliyə qarşı çıxış edən dairələr varsa, onlara qarşı konkret radikal addımlar atmaq lazımdır. Burada gözləmə vəziyyətində dayanmaq olmaz. Zənnimcə, Paşinyan bunu aydın dərk etməlidir. Çünki o, özünü böyük demokrat hesab edir. Amma atdığı "demokratik addımlar", seyrçi mövqedə qalmaq onun devrilməsinə də gətirib çıxara bilər.

Düzdür, hazırda Ermənistanda baş verən proseslər elə də güclü deyil. Qeyd etdiyimiz kimi, onların güclü lideri də yoxdur. Amma etirazçılar, əlbəttə, ölkədə sabitliyi poza bilərlər. Düşünürəm ki, onun arxasında dayanan qüvvələr elə bu məqsədi güdürlər. İstəyirlər ki, Ermənistanda sabitlik pozulsun, iğtişaşlar baş versin. Bundan sonra isə onlara lazım olan proseslər yaşansın. Paşinyana qarşı çıxanların əsas məqsədi də budur.

**– Ermənistanla yanaşı, regionun digər dövlətində – Gürcüstanda da etiraz aksiyaları keçirilir. Özü də Ermənistandan fərqli olaraq, Gürcüstandakı aksiyalar ardıcıllığı və kütləviliyi ilə diqqəti cəlb edir. Eyni zamanda, Qərb ölkələri mitinqçilərə açıq dəstək verirlər. Hətta, mayın 15-də Latviya, Litva, Estoniya və İslandiya xarici işlər nazirləri parlament binasının qarşısına gələrək etiraz aksiyasında iştirak ediblər. Bu barədə də sizin fikrinizi bilmək maraqlı olardı...**

– Gürcüstanda çox maraqlı bir vəziyyət yaranıb. Avropa İttifaqı əl-ayağa düşüb ki, "Xarici təsirlərin şəffaflığı haqqında" qanun layihəsi qəbul edilməməlidir. Guya, bu, Gürcüstan dövlətinin maraqlarına ziddir. Hədə-qorxu gəlirlər. Tbilisini Avropa İttifaqına qəbul etməməklə qorxudurlar və sair. Bu qarşıdurmanın arxasında müəyyən maraqlar dayanır. Söhbət qərbpərəst və ruspərəst qüvvələrdən gedir. Gürcüstan hakimiyyəti bəlkə də heç ruspərəst deyil. Onlar, sadəcə olaraq, Qərbin, Avropa İttifaqının diktəsi ilə yaşamaq istəmirlər. Avropa ölkələrinin nümayəndələri Tbilisiyə gələndə baş nazir onları heç qəbul etmədi. "Gürcü arzusu"nun qurucusu Bidzina İvanişvili də onlarla görüşmək istəmədi. Bu o deməkdir ki, Gürcüstan rəhbərliyi onların daxili işlərinə müdaxilə edilməsini istəmir.

Amma Gürcüstanda vəziyyət gərgin olaraq qalır. Parlamentdə üçüncü oxunuşdan keçən qanuna prezident imza atmalıdır. Prezident isə imza atmayacağını, veto qoyacağını bildirdi. Lakin parlamentin bundan sonra qanun layihəsini yenidən səs çoxluğu ilə qəbul etmək hüququ var. Bütün bunlar özlüyündə müəyyən siyasi böhran əlamətidir. Gürcüstanda hakimiyyət kifayət qədər güclüdür. Hazırda əlindən gələni edəcək ki, qanun qəbul edilsin və həyata keçirilsin. Amma bu, heç də Gürcüstanda tam sabitliyin yaranacağı demək deyil. Çünki qonşu ölkədə bu zəmində qarşıdurma var. Qarşıdurmanı aradan qaldırmaq üçün hakimiyyət ona qarşı çıxış edənlərin başçıları ilə görüşməlidir. İzah edilməlidir ki, qanunun qəbulu heç də Gürcüstanın Avropadan uzaqlaşması, bunun dövlətin və xalqın maraqlarına zidd qanun olması, yaxud onun maraqlarına zərbə vurulması demək deyil. Yəni, məsələni qarşılıqlı anlayış və güzəştlərlə həll etmək lazımdır. Düşünürəm ki, Gürcüstan hakimiyyəti və müxalifət bu istiqamətdə ortaq dil tapmalıdırlar.

**– İstərdik digər bir mövzuya keçid alaq. ATƏT-in 1992-ci ildə yaratdığı Minsk qrupu adlanan qurum 2020-ci ilədək keçmiş münaqişənin həlli, ərazilərimizin işğaldan azad edilməsi, məcburi köçkünlərin geri qayıtması üçün heç nə etmədi. Buna baxmayaraq, Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatlar hələ də ləğv edilməyib. ATƏT-in fəaliyyətdə olan sədri İan Borqun bu həftə Bakı və İrəvana səfəri onsuz da hər zaman aktual olan məsələni yenidən gündəmə gətirdi. Siz bu ziddiyyəti necə şərh edərdiniz?**

– 1992-ci ilin martında ATƏT-in Minsk qrupu yarananda Azərbaycanda ona böyük ümidlər var idi. Çünki 1988-ci ildə Qarabağda başlanan separatçı hərəkat daha da genişlənmiş, 1992-ci ilin yanvarından Ermənistanla Azərbaycan arasında tammiqyaslı müharibəyə çevrilmişdi. Əlbəttə, biz müharibəyə son qoyulmasını və Minsk qrupunun beynəlxalq hüquqa uyğun konkret təkliflər irəli sürməsini istəyirdik. Amma ümidlərimiz puça çıxdı. Çünki biz Minsk qrupunun yalnız öz maraqları çərçivəsində fəaliyyət göstərdiyini gördük. Qrupun irəli sürdüyü təkliflər də tam mənada Azərbaycanın maraqlarına zidd idi. Onlar bizə gah "ümumi dövlət" təklif edirdilər, gah keçmiş DQMV-yə daxil olmayan və işğal edilmiş 7 rayondan beşini (Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Ağdam) qaytarmağı, ikisini (Kəlbəcər və Laçın) isə qaytarmamağı təklif edirdilər. Bütün bu təkliflər, təbii ki, Azərbaycanın maraqlarına zidd idi. Biz bu təkliflərə heç vaxt razı ola bilməzdik.

Nəhayət, tam aydın oldu ki, Minsk qrupu keçmiş münaqişənin həllini tapmasına yönələn addımlar atmaqda deyil, məsələni sadəcə, dondurmaqda, status-kvonu möhkəmləndirməkdə və torpaqlarımızı bizdən tədricən qoparmaqda maraqlıdır. Təbii ki, biz buna razı ola bilməzdik. Prezident İlham Əliyev bunu işğal dövründə və ondan sonra dəfələrlə bildirmişdi. Dövlətimizin başçısı mayın 14-də ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bunu kifayət qədər açıq və prinsipial şəkildə bir daha diqqətə çatdırdı.

Həmsədrlər gedib özlərinə iş tapsınlar. Hazırda dünyada bir çox münaqişələr mövcuddur. Onlarla məşğul ola bilərlər. Çünki biz Qarabağ məsələsini artıq həll etmişik. Daha bizə hansısa vasitəçi lazım deyil.

**– ATƏT-in Minsk qrupuna həmsədrlik etmiş üç dövlətdən biri – Fransa ilə Azərbaycan arasında münasibətlər son illərdə rəsmi Parisin təqsiri üzündən xeyli soyuyub. Bu istiqamətdə son addım Fransa daxili işlər naziri Jerald Darmanenin açıqlamasıdır. O, bəyan edib ki, Azərbaycan Yeni Kaledoniyada baş verən hadisələrə müdaxilə edir. Maraqlıdır ki, fransız nazir müstəmləkə zülmündən qurtulmaq, müstəqillik əldə etmək istəyən kanak xalqını separatçılar adlandırıb. Halbuki, əsl separatçılar ötən əsrin 80-ci illərinin sonlarında Qarabağda mərkəzi hakimiyyətə qarşı hərəkata başlayanlardır. Fransa rəsmilərinin bu ikili standartları barədə nələri qeyd etmək olar?**

– Ən maraqlısı odur ki, Fransa parlamenti "Artsax"la bağlı qətnamə qəbul edir, prezident Makron ermənilərin 2023-cü ildə Qarabağdan könüllü köçünə görə bizi suçlayır, bunu etnik təmizləmə adlandırır, amma özləri XIX əsrdən başlayaraq, Yeni Kaledoniya xalqına işgəncə verir. Fransa onlara nəinki müstəqillik, heç öz dillərində yazıb-oxumaq hüququ da vermir. Bu həftənin əvvəlində Fransa hökuməti kütləvi etirazların baş verdiyi adaya qoşun göndərib. Makron həmin ərazidə fövqəladə vəziyyət elan edib və hakimiyyətin istənilən zorakılıq təzahürünə sərt reaksiya verəcəyini bildirib.

Ancaq bütün bunlara baxmayaraq, Fransa rəsmiləri bizi təqsirləndirirlər. Görəsən, bizim təqsirimiz nədir? Yerli xalqın öz dilində oxuyub-yazmaq, yaxud müstəqillik istəyi? Əgər onların nümayəndələri Bakıya gəliblərsə və burada hansısa tədbirdə iştirak ediblərsə, bu, Azərbaycanın orada Fransaya qarşı mübarizəsi deməkdirmi? Biz onları nə silahla təmin edirik, nə də maliyyələşdiririk. Amma biz hesab edirik kanak xalqının müstəqillik əldə etmək hüququ var. Parisin bu cür çıxışlar etməsi tamamilə əsassızdır.

Fransa, ilk növbədə, azsaylı xalqların hüquqlarının təmin olunması məsələsinə diqqət yetirməlidir. Habelə, ölkə daxilində proseslərə nəzarət etməlidir. "Sarı jiletlilər" hərəkatının iştirakçılarının hüquqları barədə fikirləşməlidir. Çünki Fransa daxilində də çox mürəkkəb proseslər gedir. Parisi daha çox bu məsələlər narahat etməlidir. Nəinki Azərbaycanın, guya, Yeni Kaledoniyaya hansısa köməklik etməsi. Bizi bu məsələdə təqsirləndirməyə onların nə haqqı, nə də əsası var. Bunlar hamısı qəbuledilməz siyasi bəyanatlardır. Biz buna qarşı həm rəsmi, həm də ictimaiyyət səviyyəsində çox konkret və prinsipial cavablar veririk.

***Səxavət HƏMİD***
***XQ***

# Paşinyan, yoxsa katolikos?

## Bu qarşıdurmada qriqorian kilsəsi təkcə təşviqatçı və təbliğatçı deyil, həm də təşkilatçı rolunda çıxış edir

***Ermənistanın siyasi səhnəsində dövlətlə kilsə arasında ziddiyyət getdikcə dərinləşir və bu qarşıdirma artıq hakimiyyət uğrunda açıq mübarizə müstəvisinə keçib. Baş verən hadisələr, sadəcə, kənardan idarə olunan "müxalifət qrupları"nın hakimiyyəti ələ almaq ssenarisi deyil. Ölkədə erməni apostol kilsəsi ilə baş nazir Nikol Paşinyan arasındakı qarşıdurma düşmənçiliyə çevrilib. Erməni apostol kilsəsi insanları mövcud iqtidarı devirmək üçün meydana səsləyir. Kilsə bunu təxribatçı, revanşist keşiş Baqrat Qalstanyanın əli ilə həyata keçirməyə çalışır. Bütün ermənilərin katolikosu, patriarx II Qareginin ətrafındakı arxiyepiskopların moizələrinə görə, dövlət əbədi deyil, kilsə isə daimidir və onun arxasınca getmək lazımdır. Yəni, Ermənistan deyilən coğrafi məkanda "hakimi–mütləq" dövlət yox, erməni apostol kilsəsi olmalıdır və onun başında qriqorian dini icmasının liderləri dayanmalıdırlar. Kilsənin və katolikosların nüfuz və təsirinin həmişə güclü olduğu erməni cəmiyyəti indi seçim qarşısındadır. Kilsə – Paşinyan qarşıdurması özünün kulminasiya nöqtəsinə çatıb.***

### Erməni xalqı kilsənin girovluğunda

Son iki əsrdə böyük imperiyaların ermənilərdən Osmanlı Türkiyəsinə qarşı istifadə etməyə çalışdığı danılmaz faktdır. Bu missiyanı könüllü qəbul edən, hayları təxribata və xəyanətə sövq edən isə məhz erməni qriqorian kilsəsi olub.

**Mövzu ilə bağlı "XQ"-yə açıqlama verən Dini Qurumlarla İş üzrə Dövlət**



**Komitəsinin sədr müavini Gündüz İsmayılov bildirir ki,** erməni qriqorian kilsəsi uzun əsrlər boyu hayları öz ətrafında həm birləşdirib, həm də təşkilatlandırıb: "Müasir Ermənistan qriqorian kilsəsinin uzunmüddətli fəaliyyətinin nəticəsidir. Haylar özlərinin milli kimliklərini qoruyub saxladıqlarına görə məhz kilsəyə borcludurlar. Onlar tarixlərinin bütün mərhələlərində "bir məzhəb, bir millət" prinsipi ilə formalaşıblar. Yəni, kilsə monolit ideologiya daşıyıcısı missiyasını yerinə yetirib. Bu mənada kilsə sadəcə dini təsisat deyil, ictimai, ideoloji, siyasi, hətta iqtisadi mərkəz rolunu oynayıb. Başqa sözlə, kilsə dövlətin funksiyalarını yerinə yetirdiyi üçün cəmiyyətdə aparıcı güc sayılıb. Güclü təşkilatlanmaya, intensiv təbliğata və dayanıqlı maliyyəyə malik qriqorian kilsəsi "böyük Ermənistan" ideyası naminə terrora belə əl atıb. On doqquzuncu əsrin sonları, iyirminci əsrin əvvəlləri və sonuncu iki Qarabağ müharibəsi belə nümunələrlə "zəngindir". Erməni xalqı son iki əsrdə kilsənin girovuna çevrilib, – deyə bilərik".

Qafqazda sülh üçün real imkanın yarandığı indiki məqamda da erməni qriqorian kilsəsinin buna mane olmağa çalışdığını deyən komitə sədrinin müavini hesab edir ki, ya erməni xalqı kilsənin girovluğundan azad olub, nəhayət, qonşuları ilə barışığa gələcək, ya da sülhə qarşı çıxacaq: "İndi erməni cəmiyyəti seçim qarşısındadır. Qanunvericiliyində etiqad azadlığı yazılsa da, qriqorian kilsəsinə geniş imtiyazların verilməsini nəzərdə tutan müddəalar yer alır. Bu ölkənin "Vicdan azadlığı və dini qurumlar haqqında" qanununda qeyd olunub ki, erməni apostol kilsəsinin erməni xalqının milli kimliyinin və onun Ermənistanın dini həyatındakı əhəmiyyətinin, milli mənsubiyyətinin qorunub saxlanılmasında rolu əvəzsizdir. Yəni, qanunvericilikdəki bu kimi ikili standartlar cəmiyyəti dövlətlə, faktiki olaraq, üz-üzə qoyur".

### Sağlam düşünənlərin səsi güclənir

"Ermənistandakı xaos həm dərinləşir, həm də geniş miqyas alır. Bu vəziyyətdə hakimiyyət öz gücünü göstərməlidir. Prinsip etibarilə, Hayastan reallığında əks-spiral hərəkəti həmişə mövcuddur. Bunun qarşısını almaq üçün Nikol Paşinyan mütləq fövqəladə tədbirlər görməlidir".

**Tanınmış teleaparıcı və siyasi şərhçi Tofiq Abbasov** İrəvanda daxili siyasi durumu, davam edən etiraz aksiyasını və qüvvələr nisbətini şərh edərkən belə deyib. Hazırda Ermənistanda baş verənləri köhnəliklə yeniliyin mübarizəsi kimi xarakterizə edən siyasi şərhçi yeniliyi Paşinyan və onun komandasının təmsil etdiyi qənaətindədir: "Azərbaycanın dörd kəndi qanuni və



real sahibinə qaytarıldıqdan sonra əvvəlcə narazı qüvvələrin qara-qışqırığı başladı, sonra birdən-birə "bu kəndlər heç vaxt erməni kəndi olmayıb", "onlar Azərbaycan kəndləridir", "biz onları qaytarmalı idik" deyən ağıllı insanların səsini eşitdik. Hazırda sosial şəbəkələrin erməni seqmentində sağlam düşüncəli insanların səsləri, təmkinli mühakimələri çoxalmaqdadır.

T.Abbasovun sözlərinə görə, Ermənistan özünün yeni tarixinin son otuz ildən də artıq müddətini itirib: "Çünki, o, başqasının olanı özünküləşdirmə, kin və ədavət, türkofobiya, azərbaycanofobiya siyasətinə üstünlük verib. Amma nəticədə heç nə əldə edə bilməyib. Yalnız İkinci Qarabağ müharibəsindəki məğlubiyyətin acı bəhrələrini dadmalı olub. Halbuki Azərbaycan daim ədalətin tərəfində olub və bu həqiqət getdikcə yüksəlir, bütün digər amillərə üstün gəlir".

### Azlıqdakıların hakimiyyət iddiası

2018-ci ildə hakimiyyətə gələn Paşinyan kilsə ilə münasibətləri nizamlamağı bacarmadı. Altı il bundan əvvəl hamıya bəlli idi ki, erməni kilsəsi 20 il hakimiyyətdə olmuş "Qarabağ klanı" ilə geniş əlaqələrə malik idi. Eçmiədzin Koçaryan və Sarkisyan iqtidarının yeritdiyi siyasi kursu dəstəkləyib. Amma bu amil Paşinyanla kilsə arasında ziddiyyətin kəskinləşməsinə gətirib çıxaran tək səbəb deyildi.

"Nikol Paşinyan çox vaxt itirib, amma bu, onun təqsiri deyil, əksinə, Azərbaycanla barışmaq istəməyən separatçı revanşistlərin, radikalların yetərsizliyidir. İndi Ermənistan daxilindəki siyasi qüvvələr bir həqiqəti dərk etməlidirlər ki, reallıqdan imtina, qarşıdurma, eskalasiya yolu artıq keçmişdə qalıb. Koçaryanların, sarkisyanların dünənki hökmü yoxdur. Onlar elə hesab edirlər ki, hakimiyyəti ələ alsalar, köhnə siyasətlərini yenidən həyata keçirmək şansını qazana biləcəklər",– deyən siyasi şərhçi bunun qəti şəkildə mümkün olmadığına diqqəti yönəldir: "Həm də təkcə ona görə yox ki, Azərbaycan buna heç vaxt imkan verməyəcək. Məsələ ordadır ki, erməni xalqı artıq oyanıb. O, Qarabağ klanının prosesləri əks istiqamətə apardığını, səhvlərlə dolu keçmişə qapı açmaq istədiyini yaxşı başa düşür. Halbuki irəliyə baxmaq, qonşularla dialoq qurmaq və birlikdə etimad mühitini yaratmaq barədə düşünmək lazımdır. Erməni siyasətçiləri arasında hələ də davam edən sərt qarşıdurma siyasətindən yorulmuş indiki nəslin tələbləri, gözləntiləri barədə düşünməyin məqamıdır".

Haylar "dənizdən-dənizə böyük Ermənistan", "miatsum", "Artsax", "öz müqəddəratını təyinetmə" kimi dünyaya sırımağa çalışdıqları yalanlardan əl çəkmədən, qonşularla normal münasibətlər qurmadan, "qədim tarix"ləri barədə uydurdiqları miflərdən azad olmadan xain və xəbis xislətlərindən qurtula bilməyəcəklər.

"Əgər qərarların qəbul edilməsi sözügedən cahil qəsbkarların əlində olsaydı, onlar əsla heç vaxt sərhədlərin delimitasiyasına, sərhəd dirəklərinin qurulmasına, hərbçilərin mübadiləsinə və digər şərtlərə razı olmazdılar. Bu gün Ermənistanın sağlam düşüncəli elitası daxili konsensusa nail olmağa necə kömək etmək və normal siyasətin yürüdülməsinə maneələr yaradan qüvvələri susdurmaq barədə düşünməlidir. Bundan ötrü ictimai rəy institutları Paşinyanın siyasi mövqeyinin yüksəlməsi naminə ciddi səy göstərməlidirlər", – deyə ekspert vurğulayıb.

### Nadürüstlük kompleksi

Obyektiv şəraitin və sadə məntiqin diktə etdiyi reallığın prizmasından yanaşanda da xaçpərəst hayları anlamaq çox çətindir. Baxmayaraq ki, xalqımız onların ikiüzlü, nankor xislətinə, çörəyi dizinin üstə olmasına yaxşı bələddir, amma yenə də şərqli genişürəkliliyinə salıb barışığa gələcəyinə, bundan sonra qonşusu ilə dürüst davranacağına inanmaq istəyir. Hətta bu zaman onlara xilaskar kimi qucaq açan, son iki əsrdə kilsə ilə yanaşı, erməni varlığının qorunmasında özəl xidmətləri olan Rusiyaya qarşı hansı hərəkətlərə yol verdiyinə canlı şahidlik etsə də, yenə ümidini üzmür.

Gerçəklik ondan ibarətdir ki, həm Paşinyan hakimiyyəti, həm də erməni qriqorian kilsəsi, ən azı, son 30 ildə bölgədə baş vermiş bəşəri cinayətlərin müəllifləridir. Fərq ondadır ki, Paşinyan bu çirkaba son altı ildə bulaşıb, kilsənin isə bu sahədə qanlı və böyük "əmək stajı" daha çoxdur. Hazırda mövcud hakimiyyət əleyhinə çıxışların əsas motivi onun Azərbaycanla münasibətləri normallaşmaq istiqamətində atdığı konkret addımlardır. Nikol Paşinyan hakimiyyəti bu addımları kifayət qədər gərgin şəraitdə – bir tərəfdən Qərbin, digər tərəfdən Rusiyanın və bunlardan heç də az təhlükəli sayılmayan diaspor və kilsənin təzyiq və təhdidəri fonunda atır.

Son üç il yarımda Paşinyanın əleyhinə etirazlar, ciddi səviyyədə "istefa!" tələbləri az olmayıb. Amma o, bütün bunlara baxmayaraq hakimiyyətdə qalmağı bacarıb. Ona görə ki, Nikol Paşinyanın kürsüsündə qalmasında maraqlı olan güclər var. Qərb hələ ki, Ermənistanda mövcud hakimiyyətin dəyişməsini istəmir. Çünki baş nazir qərbli tərəfdaşlarına vəd etdiklərinin hamısını yerinə yetirməyib. Amma bir faktı da nəzərə alaq ki, müharibədə uduzan Paşinyan ikinci müddətə baş nazir seçilən nadir siyasətçilərdəndir.

***İmran BƏDİRXANLI***
***XQ***

# REŞ erməni iqtidarına qarşı: Paşinyan istefaya getməlidir!

**Rusiyadakı erməni lobbi və diaspor təşkilatlarının təmsilçiləri Ermənistan baş naziri Nikol Paşinyan iqtidarına qarşı birləşiblər. Bunu onların Moskvada "Prezident" otelində keçirilmiş toplantısı da sübut edir. Söhbət Rusiya Erməniləri Şurasının (REŞ) genişləndirilmiş iclasından gedir.**



Bəli, həqiqətən də, Rusiyanın erməni icmasının təmsilçilərinin Paşinyan iqtidarına qarşı birləşmələri müşahidə olunur. "Prezident" oteli kimi mötəbər məkanda paytaxt Moskva ilə yanaşı, Rusiyanın dörd bir yanından erməni təşkilatlarının məsul şəxslərinin bir araya gəlməsi bunun təsdiqidir. Üstəlik, sözügedən toplantıya dünyanın müxtəlif bölgələrindən də nümayəndələr qatılıb. Bolşevizmin banisi Lenin bir zamanlar "Bütün ölkələrin proletarları, birləşin!" deyirdi. İndi REŞ "bütün dünyanın erməniləri, birləşin" şüarı ilə aləmə car çəkir. Bu qurumda bir araya gələnlərin, elə "Prezident" otelinə toplaşan ermənilərin danışıqlarından gəlinən nəticə budur: nəinki Ermənistan cəmiyyətinin, bütövlükdə, dünya erməniliyinin ciddi müalicəyə ehtiyacı var. Çünki xəstəlik özünün pik həddinə çatıb.

REŞ-in iclasında qəbul edilmiş qətnamə tədbirdə müzakirə olunan məsələlərin ümumi yekunu sayıla bilər. Müzakirələrin başlıca xəttini bu tezis təşkil edirdi: Qarabağ itirildisə, Ermənistan da itiriləcək. Yəni, həyəcan təbili məhz bu tezis əsas götürülərək çalınırdı. Vəziyyətən çıxış yolu isə məlumdur. Yenidən Rusiyanın himayəsi altına girmək, başqa heç nə. Göründüyü kimi, beyin mərkəzləri olaraq fəaliyyət göstərən təşkilatların təmsilçilərinin gəldikləri qənaət mütiliyə əsaslanır.

REŞ-in qətnaməsində bildirilib ki, Ermənistanın təhlükəsizliyini təmin etmək üçün digər təsirli mexanizmlər olmadığı şəraitdə Ermənistan–Rusiya münasibətlərinin korlanması həyata keçirilir və bu, Bakının növbəti təcavüzü üçün şərait yaradır, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsini çətinləşdirir, ərazi itkilərinə və təhlükəsizlik sisteminin aşınmasına gətirib çıxarır.

Rusiya erməniləri onu da bildiriblər ki, baş nazir Nikol Paşinyan iqtidarı cəmiyyətdə bölücü xətlərin salınması, ənənəvi mənəvi və dünyəvi institutların dəyərsizləşdirilməsi yolu ilə Ermənistanın və ermənilərin əsrlər boyu formalaşmış müsbət imicini məhv edir. Hakimiyyət Azərbaycanla alçaldıcı barışıq siyasəti aparır. Mövcud şəraitdə "Vətən naminə Tavuş" milli hərəkatına rəhbərlik edən arxiyepiskop Baqrat Qalstanyana yardım göstərmək üçün dünya ermənilərinin potensialı və səyləri birləşməlidir. Konsolidasiya Erməni Apostol Kilsəsi ətrafında olmalıdır.

REŞ-in qətnaməsində vurğulanıb ki, N.Paşinyanın hakimiyyəti illərində ölkənin müdafiə qabiliyyətini gücləndirmək, yeni açılan iqtisadi imkanlardan istifadə etmək, beynəlxalq strukturlarda fəal işləmək, Ermənistanın dostları və müttəfiqləri, diaspor ilə münasibətləri korlamamaq üçün hər cür imkan var idi: "Amma hakimiyyət "sülh gündəmi" adlanan planın pərdəsi altında tamam başqa xətt yürüdürdü. İndi isə milli maraqlardan, Azərbaycan qoşunlarının işğalı altında olan ölkənin otuzdan çox yaşayış məntəqəsinin sərhədlərinin və ərazilərinin qorunmasından söhbət gedəndə qeyri-fəaldır. Öz xalqına qarşı mübarizə aparır".

REŞ-in Paşinyan hökumətinin nümayişkaranə şəkildə anti-Rusiya xəttini həyata keçirməsindən, onun Ermənistan vətəndaşlarının rifahının Rusiya ilə iqtisadi əlaqələrdən nə dərəcədə asılı olduğunu nəzərə almamasından söz açılan qətnaməsində, həmçinin bildirilib ki, erməni iqtidarı "qonşularla barışıq" adlı saxta gündəliyi insanların şüuruna yeritmək üçün manipulyativ üsullarından faydalanır. REŞ bütün bunların Azərbaycanın, guya, aqressiv ritorikasının vüsət aldığı, Bakının İrəvana münasibətdə alçaldıcı davranış xətti seçdiyi bir dövrdə yaşandığını diqqətə çatdırır. Ən əsası: "Cənubi Qafqazda yaşayan xalqların can atdığı sülhdən yalnız İrəvanda hakimiyyətə yeni, sağlam qüvvələr, liderlər gəldikdən sonra danışmaq mümkün olacaq. Paşinyan nə qədər tez istefa versə, dövlətimiz və xalqımız bu vəziyyətdən bir o qədər az itkilərlə çıxacaq. Ölkədə və regionda sülh və firavanlıq perspektivi bir o qədər reallaşacaq".

Qətnamədə Ermənistanın güc strukturlarının rəhbərlərinə və əməkdaşlarına çağırış da olunub. Bildirilib ki, onlar fəaliyyətlərini dayandırsınlar, dinc etiraz aksiyalarının iştirakçılarına, o cümlədən jurnalistlərə qarşı sərt zorakılıq üsullarından istifadədən çəkinsinlər: "Biz, həmçinin müxtəlif növ kütləvi informasiya vasitələrini, bloqları və kanallardan tutmuş internet saytlara, elektron və çap mediasına qədər hər kəsi çirkli informasiya texnologiyalarından istifadə etməklə, böhtan, təhqir və digər antisosial hərəkətlərlə ictimaiyyəti çaşdırmağın yolverilməzliyi barədə xəbərdarlıq edirik".

***R. ƏVƏZ***
***XQ***

# Hansına inanaq: Peskova, yoxsa Qriqoryana?

## *Ermənistandakı rus qoşunları ilə bağlı incəliklər*



**Rəsmi İrəvan Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskovun fikirlərinə münasibət bildirib. Münasibət nədən ibarətdir və kim tərəfindən ifadə olunub, bu barədə söz açacağıq. Hələlik isə görək D.Peskov nə demişdi. O bildirmişdi ki, Ermənistan baş naziri Nikol Paşinyan Rusiya Prezidenti Vladimir Putinlə görüşü zamanı rus sərhədçilərinin Ermənistan–İran və Ermənistan–Türkiyə sərhədlərində xidmətlərini davam etdirmələrini istəyib. Rəsmi İrəvanın şəxsində Ermənistanın təhlükəsizlik şurasının katibi Armen Qriqoryan isə vurğulayıb ki, baş nazir tərəfindən belə bir xahiş səslənməyb. Daha doğrusu, müzakirə zamanı Ermənistan–İran və Ermənistan–Türkiyə sərhədlərindəki rus hərbçilərlə bağlı məqam gündəmə gəlməyib.**

Yada salaq ki, D.Peskov Putin və Paşinyan arasında danışıqlardan sonra iki ölkə liderlərinin rus sərhədçilərinin İrəvanın "Zvartnots" beynəlxalq hava limanından və digər mövqelərdən çıxarılması məsələsi ilə bağlı razılığa gəldiklərini də açıqlamışdı. Digər mövqe isə Ermənistan–Azərbaycan sərhədidir. O sərhəd ki, ora ruslar Ermənistanın istəyi ilə 44 günlük müharibədən sonra yerləşdirilmişdi. Hətta, bəzi mənbələr yerləşdirilmənin müharibə gedişində baş verdiyini və bunun Azərbaycan Ordusunun daha dərinlərə irəliləməməsi üçün edildiyini vurğulayır.

Qriqoryan Peskovun fikirlərinə münasibət bildirərkən dəqiqləşdirib ki, liderlərin təmasında söhbət məhz Azərbaycanla sərhəddəki rus qoşunlarının çıxarılmasından gedib. Yeri gəlmişkən, onu da vurğulayaq ki, rəsmi İrəvan əvvəlcə Peskovun açıqlamasını görməzdən gəlmişdi. Amma nə oldusa, sonradan Qriqoryan münasibət bildirmək qərarına gəldi. Görünür, erməni qərblilər Peskovun açıqlamasındakı "xahiş" sözündən, yumşaq desək, incidilər.

Mövzuya Paşinyanın bu yaxınlarda xüsusi təyinatlı səfir vəzifəsindən istefa vermiş sabiq silahdaşı, "İşıqlı Ermənistan" partiyasının lideri Edmon Marukyan da toxundu. O, videomüraciətində rəsmi İrəvandan heç bir təkzib olmadığını vurğulayaraq, hakimiyyətdən Peskovun bəyanatına münasibət bildirməyi tələb etdi. Marukyan xüsusən ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanın erməni tərəfinin xahiş ritorikası ilə bağlı nə düşündüyü ilə maraqlanırdı. Çox güman, sabiq səfir Sallivanın Ermənistan Təhlükəsizlik Şurasının katibi A.Qriqoryanla yaxın təmaslarını nəzərdə tutub. Qeyd edək ki, Qriqoryanın Britaniya kəşfiyyatının rəhbəri Riçard Murla da yaxın əlaqələri var.

Mövcud məsələdə bəzi ekspertlər Qriqoryanın açıqlamasını adları çəkilən hər iki şəxsin təzyiqinin məhsulu olaraq qiymətləndirirlər. Ekspertlər diqqəti təhlükəsizlik katibinin bəyanatının Paşinyanla görüşdən sonra verilməsinə çəkirlər. Yəqin, katib baş nazirə qərblilərin mesajlarını çatdırıb. İkinci isə mesajın ictimailəşməsinə razılıq verib. Daha doğrusu, Paşinyan Qriqoryana tapşırıb ki, Peskovun fikirlərinə münasibət baxımından bir şey fikirləşsin. Sonuncu isə bacardığı qədər Putin-Paşinyan təması ilə əlaqədar öz versiyasını irəli sürüb.

Deməli, rus qoşunları Azərbaycanla sərhəddən və "Zvartnots" hava limanından çıxarılır. Belə bir durumda, əlbəttə, sual yaranır: Bəs Ermənistan–Türkiyə və Ermənistan–İran sərhədlərindəki rus qoşunları? Bəs "Zəngəzur dəhlizi" məsələsində İrəvanın qaldırdığı ərazi bütövlüyü və suverenlik tələbləri? Axı, üçtərəfli bəyanata əsasən, Naxçıvana yolda təhlükəsizliyi Rusiya Federal Təhlükəsizlik Xidməti qorumalı idi. Ermənistan bundan boyun qaçırır. Əslində, Qriqoryanın açıqlamasındakı məntiq də budur. Türkiyə ilə sərhəd bir yana, bir halda ki, Ermənistanın İranla sərhədini də Rusiya sərhədçiləri qoruyurlar, o zaman onların Naxçıvan yolunda da eyni funksiyanı yerinə yetirmələrində hansı problem ola bilər?

Əlbəttə, rəsmi İrəvan məsələni problem kimi görür. Çünki anti-Azərbaycan ritorikasını davam etdirir. Ancaq hələlik əsas məqam başqadır. Əsas məsələ Paşinyan hakimiyyətinin anti-Rusiya direnişidir. Daha dəqiq desək, başlıca məqam Peskovun diplomatik tonlu və müəyyən mənada Putin–Paşinyan görüşü əsnasında qalxmış rus qoşunlarının Ermənistandan çıxarılması ajiotajını malalamağa hesablanmış açıqlamasına Qriqoryanın cavabıdır. Bu cavabın Nikolun Putindən xahiş etmədiyi vurğusu Rusiya–Ermənistan münasibətlərinin gərginlik fazasının yüksək saxlanılması deməkdir.

***R.ƏVƏZ***
***XQ***

**Son vaxtlar Fransanın Afrika qitəsindəki keçmiş müstəmləkələrində və dənizaşırı adlandırılan, faktiki olaraq, müstəmləkə torpaqlarında baş verənlər Yelisey sarayındakıların, necə deyərlər, yuxusunu ərşə çəkib. Xüsusilə, Parisdən 16 min 758 kilometr uzaqlıqda yerləşən, təyyarə ilə 28 saatlıq yol olan Sakit okeandakı Yeni Kaledoniyada baş verənlər bu baxımdan diqqəti cəlb edir.**

Fransa hökuməti mayın 13-də kütləvi etirazların baş verdiyi Yeni Kaledoniyaya qoşun göndərdiyini bildirib. Ölkə prezidenti Emmanuel Makron həmin ərazidə fövqəladə vəziyyət elan edib və hakimiyyətin istənilən "zorakılıq təzahürünə" (?) sərt reaksiya verəcəyini açıqlayıb. Yeni Kaledoniya hökuməti isə mayın 14-də komendant saatı tətbiq edib və Çin sosial şəbəkəsi "TikTok"a qadağa qoyub. Ancaq komendant saatı və ictimai toplantılara qadağa qoyulmasına baxmayaraq, iğtişaşlar sonrakı günlərdə də davam edib. Məhkumların yerli həbsxanadan qaçmağa cəhdinə dair məlumatlar da var.

aldığı təlimatları özünün sosial şəbəkə hesabında tirajlayıb: "Belə bir təsəvvür yaranır ki, biz hücuma məruz qalanda nadir hallarda özümüzü müdafiə edirik. Fransanın dişlərini göstərməsinin vaxtıdır. Təzyiq etməyin yolları var: Azərbaycan səfirini çağırmaq, iqtisadi sanksiyalarla hədələmək, Ermənistana dəstəyi artırmaq... Fransa nüvə dövlətidir, BMT Təhlükəsizlik Şurasının daimi üzvü, Avropa İttifaqı və NATO-nun qurucu üzvüdür. Statusumuzu qoruyub saxlamaq bizdən asılıdır".

Lui Düklonun açıqlamasında Azərbaycanın gücünün etiraf edilməsi diqqət çəkən məqamlardandır. O, ölkəmizin adını Rusiya və Çin kimi böyük güclərlə bir sırada çəkir. Halbuki, Azərbaycan, nəinki, Fransanın, dünyanın heç bir ölkəsinin daxili işlərinə qarışmayıb. Ölkəmiz əvvəl Qoşulmama Hərəkatının sədri, indi isə sədrlik "üçlüyü"ndə təmsil olunan dövlət kimi neokolonializm meyillərinin artmasından ciddi narahatlığını dəfələrlə bəyan edib. Rəsmi Bakı hesab edir ki, dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir.

# Bakı təhdidləri cavabsız qoymayacaq

## Fransız politoloqun nüvə silahından danışması məsuliyyətsizlikdir



Qeyd edək ki, Yeni Kaledoniyada etirazlar Fransa parlamentinin yerli qanunvericilik orqanına seçkilərin prosedurunu dəyişdirən qanunu qəbul etməsindən sonra başlayıb. Mayın 15-də qəbul edilən dəyişikliklərə əsasən, 10 il Yeni Kaledoniyada yaşayan Fransa vətəndaşları səsvermə hüququna malik olacaqlar. Bu, Yeni Kaledoniyanın yerli əhalisi olan kanak xalqını qəzəbləndirib. Onlar öz ölkələrində siyasi təsirlərinin azalacağından, fransızların siyasi təsirinin isə artacağından ehtiyat edirlər.

Onu da bildirək ki, Yeni Kaledoniya Fransanın dənizaşırı əraziləri arasında yeganə xüsusi statuslu inzibati-ərazi qurumudur. Onun gələcək statusu müzakirələr və danışıqlar nəticəsində müəyyən edilməlidir. Kanak xalqı daha müstəmləkə zülmünə boyun əymək istəmir və müstəqil yaşamaq arzusundadır. Bu da təbiidir. Çünki XXI əsrdə müstəmləkəçilik qəbuledilməzdir. Ancaq Paris baş verənlərə görə təqsiri özündə görmək əvəzinə, başqalarını borclu çıxarmağa çalışır. Fransanın daxili işlər naziri Jerald Darmanan Azərbaycanı adadakı müstəqillik tərəfdarlarını dəstəkləməkdə ittiham edib. "France-2" televiziya kanalına müsahibə verən nazir deyib: "Bu, fantaziya deyil. Təəssüf ki, bəzi separatçılar (?) Azərbaycanla razılığa gəliblər". Darmanen hansı müdaxilədən söhbət getdiyini dəqiqləşdirməyib.

Fransalı politoloq Lui Düklo isə sosial şəbəkə hesabında ölkəmiz əleyhinə fikirlər paylaşıb. O, yazıb: "Azərbaycan Fransaya qarşı sabitliyi pozan fəaliyyətlər həyata keçirir, amma biz heç nə etmirik. Hər həftə bizə qarşı müdaxilə və ya casusluq aktlarını görürük. Rusiya, Çin, Azərbaycan..."

Fransız politoloqun yazdıqları daxili işlər nazirinin irəli sürdüyü yanlış tezislərin davamı kimi qiymətləndirilə bilər. Onlar Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarı olanların etirazlarını dəstəkləməkdə günahlandırmaqdansa, diqqəti öz ölkələrinin bu cür etirazlara səbəb olan xaricdəki uğursuz siyasətinə yönəltmələri daha doğru olardı. Təkcə Yeni Kaledoniyanı deyil, dünyanın müxtəlif yerlərindəki, ümumilikdə, 560 min kvadratkilometrə malik ərazini müstəmləkəyə çevirən, orada yaşayan 3 milyona yaxın əhalini istismara məruz qoyan Fransa başqalarını ittiham etmək əvəzinə, öz əməllərindən utanmalıdır.

Fransız politoloqun yazdıqlarının sonrakı hissəsi də diqqəti cəlb edir. Bu yazılanlar rəsmi Parisin mövqeyi ilə tam olaraq, üst-üstə düşür. Sanki politoloq adlanan bu şəxs Yeliseydən

Bundan əlavə, politoloqun dediyi kimi, iqtisadi sanksiyalardan söhbət gedirsə, bunun da adekvat cavabı olacaq. Azərbaycan da öz növbəsində Fransanın nəhəng neft-qaz şirkəti olan "Total"la əməkdaşlığa yenidən baxa, onu ölkəmizdən çıxara bilər. Yada salaq ki, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Fransanın ölkəmizə qarşı davamlı fəaliyyət göstərməsini nəzərə alaraq, 2024-cü il yanvarın 18-də Azərbaycan hökumətinə aşağıdakı tədbirlərin görülməsi ilə bağlı çağırış etmişdir:

1. Fransa rəsmilərinin Azərbaycanda hər hansı aktivləri aşkar edildikdə dondurulsun.
2. Fransa ilə bütün iqtisadi əlaqələr dayandırılsın.
3. "Total" şirkəti də daxil olmaqla, bütün Fransa şirkətləri Azərbaycandan çıxarılsın.
4. Fransa şirkətlərinin Azərbaycan dövlətinin sifarişi ilə həyata keçirilən hər hansı layihədə iştirakına yol verilməsin.

Görünür, fransız politoloq unudub ki, Fransanın Azərbaycana hansısa iqtisadi sanksiyalar tətbiq edəcəyi təqdirdə bundan elə ən çox onun ölkəsinin şirkətləri ziyan çəkəcək.

Fransız politoloqun nüvə silahından bəhs etməsi isə olduqca yersiz, yanlış, təxribatçı və təhlükəli hərəkətdir. Nüvə silahı yaradıldığı vaxtdan indiyədək cəmi bir dəfə – 1945-ci ildə istifadə olunub. Nə "Soyuq müharibə" dövründə, nə də Rusiya ilə kollektiv Qərb arasında savaşın getdiyi hazırkı dövrdə nüvə silahından istifadə barədə açıqlamalar verilir. Bu mənada, Lui Düklonun bir qədər məsuliyyətli olmasına ehtiyac var.

Əgər Fransanın Azərbaycanla diplomatik əlaqələri tamamilə pozmaq niyyəti varsa, bunun da adekvat cavabı olacaq. Necə deyərlər: Təsir əks–təsirə bərabərdir.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan beynəlxalq daşımalar ölkəsidir

## *4 ayda bu sahədən 4 milyard 184 milyon manat gəlir götürülüb*

**Prezident İlham Əliyevin nəqliyyat-logistika sahəsinə diqqət və qayğısının nəticəsidir ki, bu gün Azərbaycanın beynəlxalq yükdaşımalarda fəaliyyəti getdikcə genişlənir. Bu, müxtəlif istiqamətlərdə hərəkət edən nəqliyyat vasitələrinin sayının getdikcə artması, mövcud sahədə bazarın şəffaflaşması nəticəsində “kölgə”də işləyən daşıyıcıların qeydiyyata alınması, onların bəzilərinin fəaliyyətinin bərpa edilməsi, bəzilərinin isə daxili bazardan beynəlxalq bazara keçidinin reallaşması ilə bağlıdır. Bundan savayı, yükdaşımalarda qanunvericiliyin təkmilləşdirilməsi də daim diqqət mərkəzində saxlanılır.**




Həyata keçirilən tədbirlərin nəticəsidir ki, ölkəmizin nəqliyyat üzrə gəlirləri 2024-cü ilin yanvar–aprel aylarında 4 milyard 184 milyon manat (keçən ilin müvafiq dövrü ilə müqayisədə 21 faiz çox) olub.

Cari ilin birinci rübündə Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərində daşınmış yüklərin həcmi isə 7 milyon 980,6 min ton, yük dövriyyəsi isə 3 milyard 233,8 milyon ton-km olub. Dövlət Statistika Komitəsinin məlumatına görə, daşınmış yüklərin həcmində əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 5,3 faiz və 9 faiz artım müşahidə olunub.

Qeyd edək ki, Şərq-Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi 3 milyon 763,3 min ton, o cümlədən Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi ilə 1 milyon 966,9 min ton, Şimal-Cənub nəqliyyat dəhlizi ilə 2 milyon 432,1 min ton, Şimal-Qərb nəqliyyat dəhlizi ilə 1 milyon 698,9 min ton, Cənub-Qərb nəqliyyat dəhlizi ilə daşınmış yüklərin həcmi isə 86,3 min ton təşkil edib.

Yüklərin 3 milyon 607,4 min tonu və ya 45,2 faizi dəmir yolu nəqliyyatı, 2 milyon 527,5 min tonu və ya 31,7 faizi avtomobil nəqliyyatı, 1 milyon 845,7 min tonu və ya 23,1 faizi dəniz nəqliyyatı ilə daşınıb. Nəqliyyat dəhlizləri vasitəsilə daşınmış yüklərin 60,2 faizini və ya 4 milyon 808 min tonunu tranzit yüklər təşkil edib.

Yeri gəlmişkən, keçən il ərzində respublikamızın nəqliyyat vasitələri ilə ölkə ərazisindən tranzit daşımalarının həcmi 3,8 dəfə artaraq 36 min 387 ədəd təşkil edib. 2021-ci ildə bu nəqliyyat vasitələri ilə ölkə ərazisindən cəmi 9 min 551 ədəd tranzit daşımalar həyata keçirilmişdisə, 2022-ci ildə bu rəqəm 23 min 366-a çatıb.

Burada diqqətçəkən mühüm bir məqam odur ki, son 3 ildə Azərbaycan ərazisindən istifadə etməklə avtomobil nəqliyyatı ilə tranzit yük daşımalarını həyata keçirən xarici ölkə, eləcə də Azərbaycan yük avtonəqliyyat vasitələrinin sayında ciddi artım müşahidə edilib. Belə ki, xarici ölkə nəqliyyat vasitələri ilə respublikamızın ərazisindən 2021-ci ildə 85 min 293 ədəd tranzit daşıma reallaşdırılmışdısa, 2022-ci ildə 176 min 789 ədəd, 2023-cü ildə isə 229 min 756 ədəd tranzit daşıma həyata keçirilib. Beləliklə, bu dövrdə avtomobil nəqliyyatı ilə Azərbaycandan keçməklə həyata keçirilən tranzit yük daşımalarının cəmi sayı 2021-ci ildə 94 min 844, 2022-ci ildə 200 min 155, 2023-cü ildə isə 26 min 6143 olub. Ümumilikdə, avtomobil nəqliyyatı ilə tranzit yük daşımaları son 3 ildə 2,8 dəfə çoxalıb.

Beynəlxalq yük daşımalarından bəhs edərkən, onu da vurğulayaq ki, son illərdə Azərbaycan Orta Dəhlizin ən yüksək səviyyədə reallaşdırılması üçün öz üzərinə düşən işləri tam yerinə yetirib. Bakı–Tbilisi–Qars dəmiryolu xəttinin istifadəyə verilməsi və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma gücünün artırılması, eləcə də respublikada nəqliyyat və logistika infrastrukturunun yaxşılaşdırılması ilə bağlı genişmiqyaslı layihələr həyata keçirib.

Hazırda yükdaşımaların artmasında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) fəaliyyəti daha çox diqqət çəkir. Bu marşrut Çindən Türkiyəyə və Avropa ölkələrinə, eləcə də əks istiqamətdə yük axınının artırılmasına xidmət etməklə region ölkələrinin ticarət-iqtisadi əlaqələrinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır.

Azərbaycan Orta Dəhlizin inkişafına daim önəm verib, bu istiqamətdə reallaşdırılan layihələrin gerçəkləşdirilməsini diqqət mərkəzində saxlayıb. Prezident İlham Əliyev “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda aprelin 23-də keçirilən beynəlxalq forumda bu gün Orta Dəhlizə heç vaxt olmadığı qədər ehtiyac yarandığını, Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığını vurğulayıb. Ölkə rəhbəri daha sonra deyib: “Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı biz Siandan çıxmış və Bakıya çatmış konteyner qatarının birgə qarşılanma mərasimini keçirdik. Beləliklə, bu, ölkələrimiz arasında əməkdaşlığımızın birgə nümayişi idi. Sözsüz ki, Qazaxıstanla Çin daha fəal əməkdaşlıq edir. Lakin Azərbaycanla Çin də əməkdaşlıqlarını çox ümidverici və çox nəticəyönümlü şəkildə inkişaf etdirir”.

Göründüyü kimi, Azərbaycanda ölkəmizlə bağlı olan bütün nəqliyyat marşrutlarının, o cümlədən Orta Dəhlizin inkişafına xüsusi diqqət yetirilib. Bununla əlaqədar bir sıra mühüm layihələr və proqramlar reallaşdırılıb. Belə ki, dövlət başçısının rəhbərliyi ilə “Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006-2015-ci illər üzrə Dövlət Proqramı”, “Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair (2006–2015-ci illər) Dövlət Proqramı”, “Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2013-cü illər üçün əlavə Tədbirlər Planı”, “Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsi və inkişafına dair Dövlət Proqramı (2006–2015-ci illər)”, “Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010–2014-cü illərdə inkişafına dair Dövlət Proqramı” və s. müxtəlif istiqamətləri əhatə edən çoxsaylı proqramlar uğurla həyata keçirilib.

Azərbaycanın nəqliyyat dəhlizlərində rolunun artırılması baxımında ötən il noyabrın 23-də Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün” Fəaliyyət Planının əhəmiyyətini də vurğulamaq lazımdır.

Qeyd edək ki, son illər nəqliyyat sektorunda bu sahənin dayanıqlılıq, etibarlılıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi standartlarına uyğunluğu baxımından konkret və sistemli layihələr həyata keçirilib. Sözügedən istiqamətdə aparılan dövlət siyasəti ölkəmizin sosial-iqtisadi inkişafına, əhalinin rifahının yüksəlməsinə, dövlətimizin iqtisadi qüdrətinin artmasına yönələn tədbirləri əhatə edib. Aparılan siyasət institusional islahatlar yolu ilə idarəetmənin təkmilləşdirilməsi, nəqliyyat əməliyyatlarında informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə və dövlət tənzimləmə mexanizmlərinin tətbiqi yolu ilə sağlam rəqabət mühitinin formalaşması məqsədi daşıyıb.

***Vaqif BAYRAMOV***
***XQ***

## Qarabağ və Şərqi Zəngəzura 1,2 milyard manat yeni yatırım

**Bu ilin birinci rübündə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə əsas kapitala, ümumilikdə, 1 milyard 167 milyon 617 min manat məbləğində investisiya yönəldilib.**



Dövlət Statistika Komitəsinin məlumatına əsasən, həmin vəsaitin 1 milyard 159 milyon 155 min manatı tikinti-quraşdırma işlərinə aid olub. Hesabat dövründə Qarabağ iqtisadi rayonunda investisiya qoyuluşu 535 milyon 895 min manat təşkil edib ki, bunun da 533 milyon 580 min manatı tikinti-quraşdırma işlərinə yönəldilib. Şərqi Zəngəzur iqtisadi rayonuna isə 631 milyon 721 min manat investisiya yatırılıb. Bunun da 625 milyon 575 min manatı tikinti-quraşdırma işlərinə aid olub.

## Köhnə yağlardan təzə yağ

**Bu ayın sonlarında Azərbaycanda tullantı yağlarından müxtəlif markalı baza yağları istehsal edən ilk müəssisənin qurulması üçün tikinti işlərinə başlanılacaq.**




Bu barədə İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində Sumqayıt Kimya Sənaye Parkının rezidenti “Az-Kom Servis” MMC-nin direktoru Afiyəddin Sadıqov məlumat verib. Onun sözlərinə görə, Sumqayıt Kimya Sənaye parkında tikiləcək zavodun fəaliyyətə başlaması üçün, təxminən, 15-16 milyon manat vəsait tələb olunur ki, bu məqsədlə kredit və şəxsi maliyyə vəsaitindən istifadə ediləcək.

Zavodun 5-6 ay ərzində istifadəyə veriləcəyini bildirən A. Sadıqov deyib ki, müəssisədə istehsal tullantısı olan mühərrik yağları təkrar emal olunacaq. “Avtomobillərdən çıxan, yağdəyişmə məntəqələrində olan tullantı yağlarını yenidən emal edərək 75 faizlik baza yağı əldə edəcəyik. Azərbaycanda bu formada yağ istehsal edən ilk müəssisə olacağıq. Hazırda baza yağları xaricdən idxal edilir, onların yerli bazarda istehsalı yoxdur. Yeni zavodda baza yağları ilə yanaşı, az miqdarda dizel və bitum da istehsal ediləcək”,– deyə o əlavə edib.

## Orta əməkhaqqı 985 manata çatıb

**Bu il aprelin 1-i vəziyyətinə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 749 min nəfər olub, onlardan 900 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 849 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.**




Dövlət Statistika Komitəsinin bu barədə məlumatında daha sonra bildirilir ki, cari ilin yanvar–mart aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 9,3 faiz artaraq 985 manat olub.

İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, eləcə də nəqliyyat sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

***XQ***

# Dünyanın ölkəmizə “yaşıl” marağı artır

**Son illər planetmizdə baş verən iqlim dəyişikliklərinin təzahürü olan qlobal istiləşmənin törətdiyi çətinliklər bütün bəşəriyyəti ciddi narahat edir. Müşahidələr göstərir ki, iqlim dəyişiklərinin fəsadları dünyanın ayrı-ayrı ölkələrində temperatur tərəddüdləri ilə yanaşı, sel və daşqınlara səbəb olur ki, bunun da nəticəsində iqtisadiyyatın bir çox sahələrinə, xüsusən də kənd təsərrüfatına ziyan dəyir.**



Bakıda keçirilmiş “Ambisiyaların artırılması və fəaliyyətə təkan: COP-29 Dayanıqlı biznes forumu”nda da bu barədə ətraflı bəhs olunub, iqlim dəyişiliklərinin mənfi təzahürləri və onların aradan qaldırılması ilə bağlı geniş müzakirələr aparılıb, bir sıra maraqlı təkliflər irəli sürülüb. Həmin tədbirdə Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev çıxış edərək deyib ki, hazırda iqlim dəyişiklikləri müxtəlif ölkələrdə böyük fəsadlar yaradaraq biznesin və ümumilikdə, iqtisadiyyatın inkişafının qarşısını alır.

Artıq bütün dünya iqlim dəyişiklikləri ilə mübarizəyə səfərbər olunub. Dünyanın prioritet elan etdiyi “yaşıl keçid” platformasının fəal iştirakçılarından birinə çevrilmiş Azərbaycanda da bu baxımdan mühüm tədbirlər həyata keçirilir. “Ambisiyaların artırılması və fəaliyyətə təkan: COP-29 Dayanıqlı biznes forumu”nda bu barədə ətraflı məlumat verən nazir Muxtar Babayev deyib ki, Azərbaycan “yaşıl enerji”yə keçid üçün böyük tədbirlər həyata keçirir, sərmayələr cəlb edir.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən enerji təhlükəsizliyi siyasətinin əsas hədəflərindən biri də məhz Azərbaycanda bərpaolunan enerji mənbələrinin potensialından səmərəli istifadənin gücləndirilməsindən ibarətdir. Təsadüfi deyil ki, biznes forumunda COP29-un Azərbaycanda keçirilməsinin təsadüfi xarakter daşımadığını vurğulayan M. Babayev deyib ki, Azərbaycan Prezidenti iqlim dəyişikliyinin təsirinin azaldılmasını prioritet siyasət hesab edir.

Yeri gəlmişkən, ölkəmizin alternativ və bərpaolunan enerji potensialı ilə zəngin olması artıq öz təsdiqini tapıb. Belə ki, son tədqiqatlar Azərbaycanın quru ərazisində 27,5 min meqavat həcmində bərpaolunan enerji potensialının mövcudluğunu təsdiqləyib. Bunun isə 3 min meqavatı külək enerjisinin, 23 min meqavatı günəş enerjisinin, 380 meqavatı bioenerjinin, 520 meqavatı dağ çaylarının payına düşür. Xəzər dənizinin Azərbaycan sektorunda isə 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Bütövlükdə isə, ölkəmizin bərpaolunan enerji sahəsində potensialı 200 qiqavata yaxın qiymətləndirilir.

Hazırda həmin potensialın hərəkətə gətirilməsi istiqamətində mühüm layihələr həyata keçirilir, “yaşıl enerji” istehsalı ilə əlaqədar cəlb olunan sərmayələr nəticəsində ölkəmizin ayrı-ayrı yerlərində günəş, külək və su elektrik stansiyaları tikilir. Artıq Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin Bakının Qaradağ rayonunda reallaşdırdığı layihə real fəaliyyət sahəsinə çevrilib. Ötən ilin oktyabr ayında istismara verilmiş “Qaradağ” Günəş Elektrik Stansiyasında istehsal tədricən artır. Yeri gəlmişkən, bu ilin yanvar–aprel aylarında Azərbaycanın günəş elektrik stansiyalarında 144,4 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7,6 dəfə çoxdur. Bununla yanaşı, ilin ilk 4 ayında ölkənin külək elektrik qurğularında 21 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib. Yaxın illərdə Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti ilə reallaşdırılan “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının istismara verilməsi ilə əlaqədar bu sahədə də ciddi artım əldə ediləcək. Hesabat dövründə, həmçinin Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda 90,5 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bu da 2023-cü ilin müvafiq dövrünə nisbətən 8,4 faiz çoxdur.

Bütün bunlarla yanaşı, yaxın vaxtlarda Böyük Britaniyanın BP şirkəri işğaldan azad olunmuş Cəbrayıl rayonunda “Şəfəq” Günəş Elektrik Stansiyasının inşasına başlayacaq. Eyni zamanda qarşıdakı illərdə ölkənin bir sıra ərazilərində günəş və külək elektrik stansiyalarının da tikintisi nəzərdə tutulur. Bütün bu layihələrin həyata keçirilməsi nəticəsində 2030-cu ilə kimi ölkəmizin enerji təminatının 30 faizi “yaşıl enerji”dən ibarət olacaq.

Bugünlərdə isə energetika naziri Pərviz Şahbazovla “China Energy Engineering Group Co.Ltd” şirkətinin sədri Song Hailiangin rəhbərlik etdiyi və “China Energy International Group Co. Ltd” şirkətinin sədri Lyu Zexiangin da daxil olduğu nümayəndə heyəti arasında keçirilən görüşdə Çinlə “yaşıl enerji” əməkdaşlığının inkişafı müzakirə edilib. Energetika Nazirliyindən verilən məlumata görə, görüşdə bərpaolunan enerji üzrə çoxistiqamətli əməkdaşlıq əlaqələrinin inkişafına və COP29 çərçivəsində Çin şirkətləri ilə birgə fəaliyyətə dair müzakirələr aparılıb.

Görüş zamanı Çində və qlobal miqyasda energetika və infrastruktur sənayeləri üçün sistematik, inteqrasiya olunmuş, hərtərəfli inkişaf planları və xidmətləri təqdim edən “China Energy Engineering Group Co.Ltd” şirkətinin həyata keçirdiyi layihələr barədə məlumat verilib. Çin şirkətlərinin ölkəmizdə nəhəng bərpaolunan enerji potensialının reallaşdırılması üzrə genişmiqyaslı fəaliyyət sahələrində iştiraka maraq göstərdikləri diqqətə çatdırılıb. “Yaşıl enerji” dəhlizləri və interkonnektorların yaradılması, bərpaolunan enerjinin ixracı, “yaşıl hidrogen” və “yaşıl ammonyak”ın istehsalı-nəqli, həmçinin enerji saxlanc sistemləri üzrə əməkdaşlıq imkanları dəyərləndirilib.

Energetika Nazirliyi ilə “China Gezhouba Group Overseas Investment” şirkəti arasında imzalanmış 2 qiqavat gücündə bərpaolunan enerji layihələrinin həyata keçirilməsinə dair Anlaşma Memorandumundan irəli gələn məsələlər müzakirə edilib. Eyni zamanda 60 və 100 meqavat gücündə günəş elektrik stansiyalarının tikintisi ilə bağlı görülən tədbirlər və növbəti addımlar nəzərdən keçirilib.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev biznes forumundakı çıxışı zamanı deyib ki, ölkəmizin “yaşıl” potensialından təkcə hökumət deyil, özəl sektor, biznes strukturları da istifadə etməlidir. Azərbaycanda hazırda dekarbonizasiya haqqında qanun layihəsinin hazırlandığını diqqətə çatdıran nazirin sözlərinə görə, həmin sənəddə müəssisələrin tullantılarının tənzimlənməsi, yeni texnologiyalardan istifadə edərək tullantıların minimuma endirilməsi kimi məsələlər nəzərdə tutulub. “Qanunun qəbulundan sonra atmosferə atılan zərərli maddələrin həcminin daha çox azalması müşahidə olunacaq. Azərbaycan 2030-cu ilə qədər atmosferə atılan zərərli qazları 40 faiz azaldacaq”,–deyə o əlavə edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ağdərənin ağ günləri



**Bir vaxtlar görünməyən sonuna həsrətlə boylandığımız bu Vətən yolu indi azad və abaddır. Yeni salınmış, rahat asfaltla şütüyən avtomobilimiz bizi sürətlə həsrətimizin bitdiyi daha bir ünvana – Ağdərə rayonunun Suqovuşan qəsəbəsinə və bu torpaqların əzəli sahiblərinin yenidən məskən saldığı Talış kəndinə çatdırmağa tələsir. Goranboyun illər boyu erməni separatçıları qarşısında mərdi-mərdanə dayanmış qəhrəmanlar kəndi Tap Qaraqoyunluda qısa fasilə veririk. İncəçayın kəndin içindən keçən, ucalıq rəmzi çinarların kölgə saldığı qolunun sahilində dayanırıq.**

Sakinlərdən öyrənirik ki, yol qırağındakı bu çinarların əksəriyyətini ötən əsrin 50-ci illərində Tap Qaraqoyunlunun tanınmış ziyalılarından olan həkim İsa Qurbanov əkdirib. Əvvəllər demək olar hər gün təcavüzkar Ermənistan ordusunun birləşmələri tərəfindən atəşə tutulan, Birinci Qarabağ müharibəsi zamanı çoxsaylı erməni hücumlarının qarşısını igidliklə almış Tap Qaraqoyunlu bu gün rahat nəfəs alır, məşhur qaraqoyunlular tayfalarının xələfləri olan sakinlər gündəlik məişət qayğıları ilə məşğul olurlar.

Çox ləngiməyib yolumuza davam edirik, mühafizə postunu keçib Talışa doğru irəliləyirik. Erməni separatçılarından təmizlənən bu torpaqların hər qarışı əziz olduğu, qürur, xoşbəxtlik duyğusu yaratdığı qədər də qəribə kövrəklik bəxş edir, uğrunda sevə-sevə canını fəda edən qəhrəman oğullarımızın ruhları qarşılayır sanki insanı bu yerlərdə. Qeyri-iradi dilimizdən dua və şükranlar süzülür...

### Azad, "ağıllı" Talış

Bu da vaxtilə uğrunda amansız döyüşlərin getdiyi, Şuşa polis batalyonunun tərkibində həmin döyüşlərin iştirakçısı olmuş mərhum atamın gözəlliyini tərifləməkdən doymadığı həmin məşhur Talış kəndi.

Girişdə yoldan xeyli uzaqda qanlı savaşların nişanəsi olan çoxdan vurulmuş hərbi texnika görünür. Erməni vəhşiliyinin qurbanına çevrilmiş, dağıdılmış evlərlə əhatələnmiş yeni Talış sanki toz içində çiçəyi xatırladır. Asfalt və özündə tarixiliyi yaşadan daş döşənmiş küçələr boyu nizamla, səliqə ilə yeni evlər sıralanıb. Bir ildən artıqdır ki, 20 ailənin daimi məskunlaşdığı, işıqlarını yandırdığı, həyatın yenidən qayıtdığı bu evlər ümid verir, sevindirir, yaxşı mənada heyrətləndirir. Çünki 2020-ci ildə Vətən müharibəsində qazandığımız tarixi zəfərimizdən keçən qısa müddətdə burada yaşayış üçün şəraitin ən gözəli yaradılıb. Tam mübaliğəsiz, Talışdakı müasir dayanacaq bəlkə dünyanın inkişaf etmiş ölkələrinin çoxunda belə yoxdur. Yollar, inzibati binaların, yeni məktəbin, uşaq bağçasının, tibb məntəqəsinin, el arasında deyilən kimi, xeyir-şər evinin əraziləri günəş panelləri ilə işıqlandırılır. Kənddə sakinlərin istirahəti üçün gözəl bir park da salınıb…

Talışın qonaq-qarası da çoxalıb. Kəndin ərazisini gəzdiyimiz zaman Ağdam sakinləri olan Məmmədovlar ailəsi ilə rastlaşdıq. Hazırda Quzanlı qəsəbəsində məskunlaşmış Ceyhun Məmmədov bizimlə söhbətində bildirdi ki, artıq üçüncü dəfədir Talışa gəlir. Bu dəfə ailəsini də gətirib. İstəyir onlar da həm Talışın, Suqovuşanın gözəlliklərini görsünlər, həm də övladları rəşadətli ordumuzun qəhrəmanlıqlarının nəticələrinin şahidi olsunlar.

### Xoş günlərə qovuşanlar

Talışın sakinləri xalqımızın qonaqpərvərliyinin ən gözəl nümunəsini nümayiş etdirirlər. Bizi bura dəvət etmiş "Talışın Muğan əmisi"ndən (Birinci Qarabağ müharibəsi zamanı Talış kəndi uğrunda ağır döyüşlərin iştirakçısı olmuş, kəşfiyyatçı, qazi Muğan Kərim oğlu Hüseynov haqqında ayrıca yazacağam – M.R) tutmuş küçədə rastlaşdığımız hər kəs ac olub-olmadığımızı soruşur, evinə yeməyə, çaya dəvət edir. Özü də təkcə bizi deyil, kəndə gələn bütün qonaqları. Böyük Qayıdışın ilk ünvanlarından olan Talışda sakinlərin həyatı, qayğıları ilə maraqlanmaq üçün evlərdən birinə qonaq oluruq. Ev sahibi Telman Məmmədov bizi həyətdə, arılarına baxarkən qarşılayır. Üzrxahlıq edir ki, az qalıb, indi yekunlaşdırıram. "Xoşdur, tələsmə",-deyirik. Arısı da özü kimi təzəbinədir, beçədir deyəsən. Telman deyir, belə olduğuna baxmayın, ötənilki balı o qədər təmiz idi, hər adam yeyə bilməzdi.

İşini bitirir, dördotaqlı, yarlı-yaraşıqlı evinə keçirik. Söhbətimiz çay süfrəsi arxasında davam edir. Əvvəllər valideynləri yaşayıb burada. 1992-ci ildə, Telmanın bir yaşı olanda Talış ermənilər tərəfindən işğal edilib və onlar kəndi tərk etməyə məcbur olublar. 2023-cü ilin martında həyat yoldaşı, oğlu və qızı ilə bura ilk qayıdanlardandır. Hisslərini ifadə etməkdə çətinlik çəkdiyini deyir:

– Tərtərdə məskunlaşmışdıq. Valideynlərim Talış haqqında o qədər danışmışdılar ki, bu kənd artıq xəyallarımda canlanırdı. Gələndə gördüm elə dedikləri qədər gözəldir. Ötən il Novruz bayramını burada keçirdik. Bizim üçün ən yaddaqalan bayram oldu.

Evdə yaradılmış şəraitdən çox razıdır Telman və ailəsi. Bildirir ki, dövlətimiz yaşayış üçün hər şərait yaradıb. Ev mətbəx mebelinə, internetinə, çilçıraqlarına, hətta kondisionerinə qədər hər şeylə təmin edilib. Üstəlik, fərdi təsərrüfatla məşğul olmaq üçün dövlət tərəfindən dörd inək də verilib. İndi həm heyvandarlıq və arıçılıqla, həm də həyətdə əkin-biçinlə məşğul olurlar. Üstəlik, özü də, həyat yoldaşı da Talış kənd orta məktəbində işlə təmin ediliblər:

– Ötən il keçirilən antiterror tədbirlərinə kimi erməni separatçıları Talış kəndinin yaxınlığında yerləşirdilər. Düzdür, elə əvvəldən, Tərtərdə yaşayandan onların atəşinə öyrəşmişdik, qorxmurduq. Ancaq Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə keçirilmiş antiterror tədbirlərindən sonra bütün torpaqlarımız düşmənlərdən təmizləndi, daha heç bir narahatlığımız qalmadı. Ona görə də, indi qalır zəhmətə qatlaşıb Talışda xoşbəxt yaşamaq. Bu gözəl günlər üçün möhtərəm Prezidentimizə, rəşadətli Ordumuza minnətdarıq! Allah şəhidlərimizə rəhmət eləsin!

### Suqovuşan – arzulara qovuşduran məkan

Talışla yenidən görüşmək ümidi ilə sağollaşırıq. Yolumuz buraya çox da uzaq olmayan Suqovuşanadır. O Suqovuşana ki, erməni təcavüzkarlarından təmizləndikdən qısa müddət ərzində burada görülən işlər, yaradılan şərait və təbii ki, öz əsrarəngiz mənzərələri ilə artıq Azərbaycanın yeni turizm istiqamətlərindən birinə çevrilməkdədir. Talışla arası çox yaxın olduğu üçün bir neçə dəqiqəyə Suqovuşana çatırıq. Burada hər yerdə həyat qaynayır. Qəsəbənin bir tərəfində su anbarı və su elektrik stansiyası fəaliyyət göstərir, gölün ətrafında yaradılmış gözəl parkda ziyarətçilər istirahət edir, bir tərəfi isə böyük tikinti meydançasını xatırladır. Böyük Qayıdış çərçivəsində Suqovuşana bu il ilk sakinlərin köçürülməsinə sürətlə hazırlıq gedir, yaşayış binalarının, fərdi yaşayış evlərinin, məktəbin, uşaq bağçasının, məscidin tikintisi aparılır.

Suqovuşan parkında bizi Qarabağ Regional Turizm İdarəsinin baş mütəxəssisi Tariyel Məmmədli qarşılayır. Bildirir ki, işğaldan azad olunduqdan sonra qısa müddətdə parkın ərazisində idman zonası, söhbətgahlar, uşaq əyləncə mərkəzi yaradılıb, restoran fəaliyyət göstərir. Bura gələn qonaqların sayı isə gündən-günə artır. Ziyarətçilər arasında xarici turistlər də var. Onlar əsasən Naftalan sağlamlıq mərkəzlərinə müalicə üçün gələn əcnəbilərdir.

### Karvanlar geri dönür

İşğaldan azad edilmiş bütün ərazilərimiz kimi, Talış və Suqovuşandan da ayrılmaq, geri dönmək istəmirik. Sanki, bu torpaqlarda adamı maqnit kimi özünə çəkən sehrli bir qüvvə var. Üstəlik, qalib ölkənin azad vətəndaşı, jurnalisti kimi Vətənimizin erməni işğalından azad olunan hər qarış torpağına səfər etməyin qürurunu yaşamaq da bir başqa əvəzolunmaz hissdir.

Geri gözəl təəssüratlarla dönürük. Bilirik ki, daha istədiyimiz vaxt gələ, ruhumuzu dincəldə biləcəyimiz bu yerləri gəzə bilərik. Bir zamanlar məcburi köçkünlərin ümidsizcəsinə respublikamızın digər bölgələrinə üz tutmuş maşın karvanları bu gün həmin insanları geriyə, ata-baba yurdlarına daşıyır. Bu dəfə həmişəlik, əbədilik! Getdikcə cənnətə çevrilən Qarabağa və Şərqi Zəngəzura səfər etmək isə daha əlçatmaz arzu deyil!

***Mahir RƏSULOĞLU,***
***yazıçı-jurnalist***

**Bakı–Ağdərə–Bakı**

# Naxçıvan xəbərləri

### 4 ayda 13 layihə




***Naxçıvan Muxtar Respublikasında Sahibkarlığın İnkişafı Fondu özəl sektora dövlət dəstəyi çərçivəsində cari ilin ilk 4 ayında 13 layihə maliyyələşdirib.***

Muxtar respublikanın İqtisadiyyat Nazirliyinin məlumatına görə, layihələrin maliyyələşdirilməsinə 284 min manat (ötən ilin eyni dövrü ilə müqayisədə 2,7 dəfə çox) vəsait sərf olunub.

Sözügedən dövrdə qaytarılan kreditlərin həcmi isə 2,3 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 42,8 faiz çox) olub.

### Dəryalar dolu olsun!

***Naxçıvan Muxtar Respublikasında cari ilin yaz mövsümü yağıntıların intensiv xarakter daşıması ilə müşayiət olunur. Xüsusilə aprel-may aylarında yağışlı günlərin sayının çox olması yeni mövsümə daha yaxşı hazırlaşmağa imkan verir. Bəs bu sahədə hazırlıqlar necə aparılır?***

Muxtar respublikanın Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətindən (ASC) aldığımız məlumata görə, qədim diyarda 2024-cü ilin suvarma mövsümünə hazırlıqla əlaqədar olaraq ASC-nin tabe idarələri tərəfindən ilin əvvəlindən tərtib olunmuş təmir qrafikinə uyğun olaraq aprel ayı ərzində kollektorlarda, kanal və arxlarda lildən təmizlənmə işləri görülüb, nasos stansiyalarında və digər hidrotexniki qurğularda təmir işləri davam etdirilib, su anbarlarına suyun yığılması həyata keçirilib. Belə ki, 2024-cü ilin aprel ayının sonunda su anbarlarında 248,83 milyon kubmetr su ehtiyatı mövcud olub. Su istifadəçilərinə aprel ayı ərzində 37,27 milyon kubmetr su verilib ki, bunun da müqabilində 30 min 31 hektar torpaq sahəsi suvarılıb.

Bununla yanaşı, bu ilin aprel ayı ərzində 3,88 kilometr seləqarşı istiqamət-



ləndirici bənd tikilib, 34,04 kilometr beton və torpaq kanallar, 30,93 kilometr ara arxlar, 3,9 kilometr kollektor lildən təmizlənib, 3,95 kilometr içməli su, 0,04 kilometr suvarma boru, 0,13 kilometr kaptaj xətti çəkilib.

Bol yağıntı sularının mövcud su anbarlarında toplanılması isə bu il kənd təsərrüfatında gözləntiləri artırmaqla bərabər, subartezian quyuların və kəhrizlərin də su bolluğuna öz təsirini göstərəcək.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# Kəndin üzü bar-bərəkətədir

**Ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, ixrac potensialının artırılmasına və kənd yerlərində rifahın yüksəldilməsinə töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı, habelə emalı sənayesinin formalaşdırılması sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən birini təşkil edir.**



Prezident İlham Əliyev tərəfindən qəbul edilmiş müvafiq qərarlara uyğun olaraq kənd təsərrüfatının inkişafı məqsədilə çoxşaxəli dövlət dəstəyi sistemi qurularaq bu sahənin potensialının gücləndirilməsinə yönəldilən resursların həcmi getdikcə artır. Bu ilin yanvar-aprel aylarında Azərbaycanda 2 milyard 115 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz çox) dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilməsi də bu fikrin bariz ifadəsidir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən bir ildə ölkədə istehsal olunmuş bitkiçilik məhsullarının dəyəri 2,7 faiz artaraq 165,8 milyon manat, heyvandarlıq məhsullarının dəyəri isə 1,5 faiz artaraq 1 milyard 950 milyon manat olub.

Cari ilin yanvar–aprel aylarında diri çəkidə 190,1 min ton ət, 701,9 min ton süd, 764,3 milyon ədəd yumurta, 1,9 min ton yun, 131,5 min ton tərəvəz və 50,9 min ton kartof istehsal olunub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,5 faiz, süd istehsalı 0,6 faiz, yumurta istehsalı 5,2 faiz, tərəvəz istehsalı 2,5 faiz, kartof istehsalı 1,1 faiz artıb.

Kənd təsərrüfatında müsbət göstəricilərin əldə edilməsinə Aqrar Kredit və İnkişaf Agentliyinin səmərəli fəaliyyəti öz təsirini göstərib. Belə ki, cari ilin yanvar–aprel ayları ərzində AKİA tərəfindən 4286 (ötən illə müqayisədə 2,1 dəfə çox) kənd təsərrüfatı texnikasının satışı maliyyələşdirilib. Bundan savayı, adıçəkilən mərkəzinin hesabatına görə, cari ilin ilk dörd ayında aqrar sektorda fəaliyyət göstərən 1060 fiziki və hüquqi şəxsə 20,7 milyon manat məbləğində güzəştli kredit verilib. Bunun 18,7 milyon manatı texnika və avadanlıq təyinatlı kreditlər, 35 min manatı güzəştli kreditlər, 1,9 milyon manatı isə mikrokreditlər olub.

Bütün bu rəqəmlər hökumətin ölkədə ərzaq təhlükəsizliyini gerçəkləşdirən, ixrac potensialının daha da güclənməsinə, habelə kənd yerlərində əhalinin rifahının daha da yüksəlməsinə töhfə verən aqrar sektorun inkişafını diqqət mərkəzində saxlamasından xəbər verir. Davamlı inkişaf strategiyasına uyğun olaraq bu sahədə çoxşaxəli dövlət dəstəyi sisteminin qurulması, sözügedən sektorun potensialının reallaşdırılmasına yönəldilən resursların həcminin artırılması və nəticədə kənd təsərrüfatı məhsulları istehsalında dinamik artım əldə edilməsi aqrar sistemin gücləndirilməsinə dövlət qayğısının məntiqi nəticəsidir.

Onu da deyək ki, kənd təsərrüfatının inkişafında meliorasiya layihələrinin icrası da əhəmiyyətli rol oynayıb. Bu fikrin təsdiqi üçün xatırladaq ki, respublikada meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi üçün dövlət büdcəsi vəsaitləri hesabına son 10 il ərzində 390 min hektardan çox sahədə torpaqların su təminatı yaxşılaşdırılıb, 188 min hektar sahə yeni suvarılan torpaqlar qrupuna əlavə edilib. Həmçinin suvarılan sahələrdə müvafiq dövlət dəstəyi hesabına tətbiq olunan müasir suvarma sistemlərinin payı artıq 5 faizdən çox yüksəlib.

Xatirladaq ki, respublikada meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi bu gün də diqqət mərkəzində saxlanılır. Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri Azad Cəfərlinin "Ambisiyaların artılması və fəaliyyətə təkan: COP29 Dayanıqlı Biznes Forumu"nda bildirdiyinə görə, ölkədə 59 min hektarda pivot suvarma sistemləri qurulub. Eyni zamanda, irriqasiya sistemlərinin quraşdırılması üçün ayrılan subsidiyaların məbləğinin artırılmasına xüsusi diqqət yetirilib. Məsələn, son 5 ildə fermerlərin 38,2 min hektar ərazidə irriqasiya sistemlərini quraşdırmaları üçün 93,3 milyon manat subsidiya ayrılıb.

Yeri gəlmişkən, aqrar sektorda iqlim dəyişikliyinə uyğunlaşma və təsirlərin yumşaldılması məqsədilə strategiya hazırlanıb. A.Cəfərlinin sözlərinə görə, kənd təsərrüfatı resurslarının idarə edilməsi baxımından mühüm önəm daşıyan bu strategiyada özəl-dövlət tərəfdaşlığı vasitəsilə aqrar sahənin iqlimə davamlılığını gücləndirmək qarşıya əsas vəzifə kimi qoyulub.

***V.BAYRAMOV***
***XQ***

# Sənaye üsulu üzümçülüyə yeni nəfəs verir

**Bakıda keçirilmiş 17-ci "Caspian Agro" Beynəlxalq Kənd Təsərrüfatı sərgisi fermerlərə aqrar sahədə ən müasir texnologiyalarla tanışlıq imkanı yaratmaq baxımından yaddaqalan oldu. Bu baxımdan üzümün mexaniki üsulla becərilməsi və yığılması texnologiyası daha çox diqqət çəkib. Bu texnikanın istehsalçısı olan "New Holland" şirkəti postsovet məkanında ilk dəfə olaraq ölkəmizdə nümayiş etdirilən qlobal kənd təsərrüfatı texnika markası olan "Braud 9090X" modelli üzümyığan kombaynları ilə Azərbaycanın üzümçülük və şərab emalı sənayesində bir ilkə imza atıb.**

Qeyd edək ki, "Braud" kombaynları sənaye üsulu ilə yetişdirilmiş üzüm bağlarında istifadə edilir. Müasir intensiv bağlarda məhsuldarlıq yüksək, məhsul yığımı mövsümü isə qısa olduğundan yığımın mexaniki üsulla həyata keçirilməsi daha səmərəlidir. "New Holland" kombaynları artıq sizə minimum vaxtda maksimum yığım əldə etmək imkanı yaradır", – deyə "New Holland" şirkətinin regional direktoru Styuart Kempbell bildirib. Onun sözlərinə görə, "Braud" kombaynları bütün üzüm növlərində məhsuldarlığı optimallaşdırmaqda xüsusi rol oynayır. Belə ki, "IntelliView III" toxunma ekranı ilə inteqrasiya olunmuş intellektual idarəetmə sistemi bütün əsas kombayn funksiyalarına tam girişi təmin edir. Sözügedən texnika, sadəcə, 8 saat ərzində 198 ton üzüm yığmaqla rekorda imza atıb. Şirkət rəhbəri yeni texnologiyanın ənənəvi yollarla həyata keçirilən üzüm yığımı ilə olan fərqindən söhbət açaraq deyib ki, "Braud" kombaynı hər hektara 8-12 ton 99 faizi tullantılardan təmizlənmiş saf məhsul əldə etmək potensialına malikdir. Qeyd olunub ki, fermerlər kombaynı 40 faiz dövlət subsidiyası, faizsiz və sərfəli lizinq şərtləri ilə "traktor.az" vasitəsilə əldə edə bilərlər.



Yeri gəlmişkən, Azərbaycanda üzümçülük və şərabçılıq prioritet sahə hesab edilir. Ötən müddətdə bu sahənin inkişafı ilə bağlı bir neçə dövlət proqramı qəbul olunub. Hazırda isə "2018-2025-ci illərdə Azərbaycanda şərabçılıq inkişafına dair Dövlət Proqramı"nın icrası davam etdirilir. Proqramda qarşıya qoyulan hədəflərdən biri üzüm sahələrinin genişləndirilməsidir. Bu məqsədlə son illər ölkədə yeni, müasir standartlara cavab verən üzüm bağları salınır. Kənd Təsərrüfatı Nazirliyinin Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru Vüqar Səlimovun dediyinə görə, 2023-cü ildə ölkə üzrə yeni salınan üzüm bağlarının sahəsi 7,1 faiz artıb. İl ərzində plantasiyalardan 224,5 min ton məhsul yığılıb ki, bu da 2022-ci illə müqayisədə 5,6 faiz çoxdur.

Bununla yanaşı, Azərbaycanda üzümçülüyün əvvəlki şöhrətinin qaytarılması üçün dövlət dəstəyi getdikcə artırılır. Belə ki, 2023-cü ildən Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun Şamaxı Üzüm Tingçilik Mərkəzi fəaliyyətə başlayıb. Hazırda həmin mərkəzdə dünya standartlarına uyğun olan, müasir tələbatlara cavab verən, üzüm istehsalçılarının, emal müəssisələrinin tələblərinə cavab verən, əsasən yerli texniki üzüm sortlarından ibarət filloksera zərərvericisinə qarşı davamlı calaq tinglər istehsal olunur.

Aqrar Subsidiya Şurasının qərarına əsasən, Ağdam, Ağsu, Cəlilabad, Cəbrayıl, Füzuli, Xocavənd, İsmayıllı, Qəbələ, Qobustan, Qubadlı, Lerik, Siyəzən, Tovuz, Şabran, Şamaxı, Şəki, Yardımlı və Zəngilan rayonlarında 2023-cü il sentyabrın 1-dən 2024-cü il mayın 31-dək dəniz səviyyəsindən 400 metrdən hündürdə yerləşən ərazilərdə salınan üzüm bağalarının hər hektarına görə 8 min manat məbləğində əkin subsidiyası veriləcək.

***M.YAQUBZADƏ***
***XQ***

# Milli Məclisin sədri Cenevrədə



**Milli Məclisin Sədri Sahibə Qafarova Cenevrə şəhərinə işgüzar səfəri çərçivəsində Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Təşkilat Komitəsinin 1-ci iclasında müzakirələrdə çıxış edib.**

İclasda bir çox vacib məsələlərə diqqət yetirildiyini, vacib müzakirələr aparıldığını bildirən spiker sülh, təhlükəsizlik və qanunun aliliyini inkişaf etdirmək üçün parlament diplomatiyasının önəmini diqqətə çatdırıb. Deyib ki, bu, gələcəyə dair düşüncələrimizlə sıx bağlı olan məsələdir. Həmçinin bildirib ki, qanunun aliliyi sülhün və təhlükəsizliyin təmin edilməsində ilk şərtdir. Bu məsələyə istənilən yanaşmanın əsasında dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət kimi, beynəlxalq hüququn hamı tərəfindən tanınmış normalarına ciddi riayət edilməsi, ayrı-seçkiliyə yol vermədən tətbiqi dayanmalıdır.

Spiker dünyadakı mövcud vəziyyəti nəzərə alaraq, Parlamentlərarası İttifaqın öz fəaliyyətində və 6-cı Dünya Konfransı çərçivəsində bundan sonra da bu məsələyə diqqət yetirilməli olduğunu bildirib. O, iqlim dəyişikliyi probleminə də toxunaraq, deyib ki, bu, təcili həll edilməli olan qlobal problemlərdən biridir.

S. Qafarova xatırladıb ki, Azərbaycan bütün ölkələrin yekdil dəstəyi ilə COP29-a evsahibliyi etmək üçün seçilib və bu ilin noyabrında Bakıda bu möhtəşəm tədbir təşkil olunacaq. Onun sözlərinə görə, Azərbaycan bütün tərəfləri və ölkələri cəlb etmək, cəmiyyətləri ümumi məqsəd ətrafında birləşdirmək üçün əlindən gələni edəcək. Spiker, həmçinin diqqətə çatdırıb ki, Parlament Sədrlərinin 6-cı Dünya Konfransı da bu məsələ ilə bağlı yeni ideyalar və yanaşmalar formalaşdırmalı və gələcək fəaliyyətində bunları əks etdirməlidir.

Spiker dünən Qadın Parlament Sədrlərinin Sammitinə hazırlıq məqsədilə Qadın Parlament sədrlərinin də görüşündə iştirak edib. Tədbirdə əvvəlki sammitlərin nəticələri nəzərdən keçirilib və növbəti tədbirə hazırlıq məqsədilə bir sıra təşkilati məsələlər müzakirə edilib. O, çıxışında dünyada gender bərabərliyinin təmin olunması məsələlərində qarşıya çıxan problemlərə diqqəti yönəldib. Deyib ki, gender bərabərliyi mövzusu müxtəlif tədbirlərdə müzakirə olunsa da, hələ də bir çox ölkələrdə bununla bağlı məsələlərin həlli mümkün olmayıb.

Növbəti sammitdə qadınların ictimai fəallığının artırılması, onların təhsil hüququnun reallaşdırılması, yüksək vəzifələrdə təmsil olunması mövzularının geniş müzakirələrə çıxarılmasının zəruriliyini qeyd edən S.Qafarova, həmçinin qlobal iqlim dəyişikliyi məsələsinin olduqca aktuallığını nəzərə alaraq, qadınların bu məsələdə də fəal iştirakının vacibliyini diqqətə çatdırıb.

***Ə.BƏDƏLOV***
***XQ***

XQ-nin qonaqları

# Elm və medianın ortaq hədəfləri

**Dünən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli "Xalq qəzeti"nin növbəti yüksək titullu ziyalı qonağı oldu.**



Azərbaycan elminin rəhbərini, görkəmli ədəbiyyatşünas akademiki, eləcə də qəzetimizin yarım əsrlik müəllifini salamlayan baş redaktor Əflatun Amaşov bildirdi ki, bu il 105 yaşı tamam olan, ötən dövrdə milli və avanqard mətbu nəşr statusu qazanmış "Xalq qəzeti" 1 əsrdən artıq müddətdə həmişə ölkə alimləri və elmi qurumlarla sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərib. Qəzet milli elmin inkişafına, uğurlarına informasiya dəstəyi verdiyi kimi, alimlərimiz də redaksiyanın elmi-maarifçilik missiyasının kütləviləşməsində fəal iştirak ediblər.



Qəzet rəhbəri qeyd etdi ki, son vaxtlar 2 qurum arasında çoxillik əməkdaşlıq daha səmərəli və rəngarəng formalarda davam etdirilir. Azərbaycançılıq ideologiyasının dövlətçiliyimizin möhkəmləndirilməsi, ümummilli prioritetlərin gerçəkləşdirilməsi prosesi ilə üzvi surətdə qovuşmasında AMEA rəhbərliyi, elmi qurumlar, bütövlükdə, elmi ictimaiyyət öz nüfuzlu sözünü "Xalq qəzeti"ndə daha geniş ifadə edir. Son dövrdə qəzetdə davamlı yer tutan "Qərbi Azərbaycan", "Güney Azərbaycan", "Turan dünyası" kimi səhifələrin hazırlanmasında, milli ideya anlayışının geniş açılımında, ümummilli hədəflərin və tarixi nailiyyətlərin elmi baxımdan araşdırılmasında və publisistik təqdimatında alimlərimiz redaksiyaya gərəkli yaradıcılıq dəstəyi göstərir.

AMEA prezidenti İsa Həbibbəyli söylədi ki, yarım əsr əvvəl redaksiyanın keçirdiyi yaradıcılıq müsabiqəsində "Arpa çayı daşa bilməz" yazısının çap edilərək 3-cü yer tutmasının gənc alim olaraq onu qəzetlə əməkdaşlığa həvəsləndirib və müəlliflərdən birinə çevirib. Akademik redaksiyada məsul işə dəvət edildiyini də məmnunluqla xatırlayaraq dedi ki, elmə dərin bağlılığı bu təklifi qəbul etməyə imkan verməsə də, o, həmişə özünü bu qəzetin yazarı hesab edib, kollektivlə daimi əlaqə saxlayıb.

Akademiya rəhbəri daha sonra son vaxtlar "Xalq qəzeti"nin forma və məzmun baxımından xeyli yeniləşdiyini, ictimai-siyasi nəşrlər arasında təşəbbüskar yaradıcılığı ilə seçildiyini vurğuladı. O qeyd etdi ki, qəzet səhifələrində ümumi, mücərrəd təbliğatçılığın konkret, əməli təşviqediciliklə əvəzlənməsi ictimai rəyə təsiri də çevikləşdirib. "Xalq qəzeti"nin azad media prinsiplərinə, jurnalist peşəkarlığına əsaslanan demokratik ruhu ziyalı dairələrində rəğbətlə qarşılanır, qocaman nəşrin milli öncül media məktəbi kimi nüfuzunu yüksəldir.

Görüşdə bu il "Xalq qəzeti"nin 105 illik, gələn il isə milli akademiyanın 80 illik yubileylərinin faydalı əməkdaşlıq üçün əlavə mövzular verməsinə də diqqət yetirildi. Akademiyada davam etdirilən islahatların və qəzetdə gedən yeniləşmənin qarşılıqlı surətdə dəstəklənməsi ilə bağlı faydalı müzakirə aparıldı. Yekun olaraq bildirildi ki, AMEA və "Xalq qəzeti"nin bir-birinin imkan və dəstəyindən qədərincə yararlanması ölkənin intellektual və informativ sferalarına yeni zənginlik gətirəcək.

Sonda akademik İsa Həbibbəyli onun rəhbərliyi ilə AMEA-nın nəşr etdiyi "Azərbaycan ədəbiyyatı tarixi" çoxcildliyini və digər fundamental nəşrlərin nüsxələrini redaksiyanın kitabxanasına hədiyyə etdi.

***Tahir AYDINOĞLU***
***XQ***

Bahəddin Xəlilov – 75

# Ömrün müdriklik baharı

**Bahəddin müəllimlə uzun illər bir-birini görməyən köhnə dostlar kimi görüşüb hal-əhval tutduq. Səmimiliyi, mehribanlığı, bir qədər də az danışması, qarşısındakını daha çox dinləməyə üstünlük verməsi elə əvvəlki kimi qalıb – heç dəyişməyib.**

Aqrar Universitetin, yəni Bahəddin müəllimin iş yerinin yanındakı "Xan Bağı"nda bir-iki stəkan pürrəngi çay içib söhbət edir, ötən günləri yada salırıq...

İxtisasca memar olan Bahəddin Xəlilov 15 ildir ki, Aqrar Universitetdə çalışır. Əvvəlcə akademiyanın memarlıq və texniki qrafika kafedrasında baş müəllim işləyib. Sonra kafedranın baş müəllimi, daha sonra on il həmin kafedraya başçılıq edib. Amma mən onu 1975–1976-cı illərdən, Azərbaycan Dövlət Layihə İnstitutunun Gəncə filialında memar işləyəndən tanıyıram. O vaxtlar tez-tez görüşürdük. Gəncənin baş meydanındakı İnzibati Binanın üçüncü mərtəbəsində çalışdığım şəhər qəzetinin redaksiyası, beşinci mərtəbədə isə institutun filialı yerləşirdi və daha çox pilləkəndə rastlaşırdıq. Salamlaşar, hal-əhval tutardıq.



Amma sonralar eşitdim ki, Bahəddin Xəlilov ulu öndər Heydər Əliyevin təşəbbüsü və köməyi ilə Gəncədə tikilib istifadəyə verilən və tezliklə şöhrəti keçmiş İttifaqın hər yerinə yayılan Çörək-Qənnadı fabrikinə konstruktor şöbəsinin rəisi vəzifəsinə dəvət olunub. Xatırlayırsınızsa, o zamanlar bu fabrikin istehsal etdiyi qənnadı məhsullarına ölkədə böyük tələbat vardı. Xüsusilə "Çinar" şokaladlarının şöhrəti hər yerə yayılmışdı. Həmin şirniyyatın nəfis tərtibatlı qutularını bir anlığa yadınıza salın. Bax, onun müəllifi Bahəddin Xəlilov idi. Yaxud yağlı boya ilə işlədiyi Məhsəti Gəncəvi dünyasını tərənnüm edən iki rəsm əsəri bu gün də öz orijinallığına və ideyasına görə sayılıb –seçilir və mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir. Eyni qiymət Mirzə Şəfi Vazeh obrazını yağlı boya ilə kətan üzərində işləyib onun Gəncədə yaradılmış muzeyinə bağışladığı əsərə də verilib.

Amma onu istehsalatdan, müxtəlif əsərlər yaratmaqdan daha çox pedaqoji sahə daha çox cəlb edirdi və ən böyük arzusu əldə etdiyi təcrübəni gələcəyin mütəxəssisləri ilə bölüşmək idi. Buna görə də onu bu sahəyə dəvət edərkən tərəddüd etmədən razılıq verdi və 20 ildən çox Gəncə Baza İnşaat Texnikumunda işlədi və 2009-cu ildən isə Azərbaycan Dövlət Aqrar Universitetində çalışır. Hazırda isə memarlıq və dizayn kafedrasınınnın professorudur və tələbələrinə peşənin sirlərini öyrədir.

1949-cu il mayın 5-də Gürcüstan Respublikasının Borçalı mahalının Faxralı kəndində anadan olan Bahəddin Xəlilovun elmi fəaliyyəti çoxşaxəlidir, təkcə bir sahəni əhatə etmir. O, hələ gənc yaşlarında Azərbaycan SSR və keçmiş SSRİ-nin Memarlar İttifaqına üzv qəbul olunub. Bahəddin müəllimin rəhbərliyi altında tələbələr gözəl sənət əsərləri yaradaraq Bakı və Gəncədə keçirilən sərgilərdə dəfələrlə iştirak etmiş, fəxri fərmanlara və diplomlara layiq görülmüşlər.

2012-ci ilin noyabrında Milli Elmlər Akademiyasında memarların müsabiqəsində iştirak edərək Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyasına müxbir üzvü seçilib. Elə həmin il ADAU Elmi Şurasının qərarı ilə B.Xəlilova ADAU-nun dosenti adı verilib. 2018-ci ildən isə Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın qərarı ilə "Dizayn" kafedrası üzrə professor olub.

Onun elmi rəhbərliyi ilə bakalavr pilləsində təhsil alan çox sayda tələbə buraxılış işləri yazmış və müvəffəqiyyətlə müdafiə etmişdir. Kafedra müdiri işlədiyi müddətdə tədris etdiyi fənnin tələbələr tərəfindən mənimsənilməsini asanlaşdırmaq üçün bir sıra maraqlı ideyalar irəli sürmüş və onun tətbiqinə nail olmuşdur ki, bu gün də həmin üsullardan istifadə edilir. Bakalavriat səviyyəsi üzrə "Rəsm", "Layihələndirmə", "Maketləşmə", magistratura səviyyəsi üzrə "Dizaynın fəaliyyət sahələri", "Dizayn və informasiya", "Dizayn və incəsənət" və digər fənləri tədris edən Bahəddin Xəlilov "Memarlıq konstruksiyaları", "Layihə qrafikası və rəngli kompozisiya" dərsliklərinin, "Dizayn tarixi" dərs vəsaitlərinin həmmüəllifi, "Rəsm" dərs vəsaitinin müəllifidir. Müəllifi və həmmüəllifi olduğu "Müasir şəhərsalmada landşaft formaların seçilməsi", "Təbii iqlim şəraitinin yaşayış binalarının quruluşuna təsiri", "Gəncə memarlığının tarixi inkişaf mərhələləri", "Qədim dövrün dini və xatirə tikililəri", "Qarabağda memarlıq abidələri", "Abşeron məscidləri", "Azərbaycan dulusçuluq sənətinin formalaşması", "Ornamentin yaranma tarixi və analizi", "Həndəsi motivlərin tematikası", "Məlumatların loqotip və etiketlərinin müasir tendensiyaları", "Yeni şəhərsalma konsepsiyaları" ,"Azərbaycan tikililəri" və başqa elmi məqalələri respublikamızın və dünyanın bir çox ölkələrinin elmi ictimaiyyəti tərəfindən maraqla qarşılanmışdır. Gərgin intellektual əmək sərf edərək hazırlamış olduğu "Qrafik dizayn", "Kompozisiya, layihə qrafikası və şriftin əsasları", "Layihələndirmə", "Mühit dizaynının əsasları", "Aqrar sahənin qrafikası", "Rəsm", "Maketləşdirmə", "Dizayn və reklam", "Tədqiqat üsulları" fənn proqramları, "Landşaft memarlığının əsasları", "Memarlıq ixtisası tələbələri üçün buraxılış işinin yerinə yetirilməsi" adlı metodik vəsaitləri bu gün uğurla tədris və tətbiq olunur.

Professor Xəlilov ADAU-nun ictimai-siyasi həyatında da yaxından iştirak edir. Universitetin rəhbərliyi və iş yoldaşları arasında böyük hörmət qazanıb. Siyasi tədbirlərdə fəal və hazırlıqlıdır. 2001-ci ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Bahəddin Xəlilov Gəncə şəhərində qorunan qədim binaların bərpasının layihələrini işləmiş, onların tarixi görünüşünün saxlanması üçün 100-dən artıq layihəni Gəncə Şəhər İcra Hakimiyyətinə vermişdir. Həmin memarlıq inciləri arasında Bahəddin Xəlilovun ulu həmkarı və adaşı Şeyx Bəhəddinin 1606-ci ildə inşasını başa çatdırdığı Gəncə Cümə məscidi və ətrafındakı meydanın memarlıq ansamblı da var.

Bahəddin müəllim, demək olar ki, bütün həyatını Gəncə şəhəri ilə bağlamışdır. Onun hazırladığı kompozisiyaları, quruluşları, dizaynları şəhərin müxtəlif yerlərində, tarixi abidələrdə, binalarda görmək mümkündür. Hələ inşaat texnikumunda işləyərkən XVIII əsr və XX əsrin əvvəllərində Gəncədə yaşayış binaları" mövzusu üzərində gərgin iş aparmış və tezliklə istədiyinə nail olmuşdur. O, bu illərdə qədim şəhərin küçə və meydanlarını qarış-qarış gəzərək köhnə yaşayış binalarının tarixini, onları inşa edən, layihəsini verən şəxslərin həyatını diqqətlə öyrənmiş, yadigar binaların hansı üslubda tikilməsini sənətkar gözü ilə araşdırmağa həvəs göstərmişdir. Məhz o illərdə "Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü" diplomuna layiq görülmüş B.Xəlilov deyir ki, hələ layihə institutunda fəaliyyət göstərdiyim dövrlərdə Gəncənin abadlaşdırılmasında, Mahrasa bağı yaşayış sahəsi layihəsinin işlənməsində, onun bütün sahələrinin planlaşdırılmasında yaxından iştirak etmişəm.

...Bahəddin müəllim təvazökar insandır. Yuxarıda qeyd etdiyim kimi, özü haqqında danışmağı sevmir. Bu ılıq may günündə təsadüfən öyrəndim ki, ömrünün 75-ci baharını yola salır. Mayın 5-də 75 yaşını da yaxın çevrəsində qeyd edib. Heç iki kəlmə xoş söz yazmaq barədə fikrimi də dəstəkləmədi, "nə etmişəmsə, peşəmə olan məhəbbətimdən yaranıb bütün bunlar"– dedi. Sonra da əlavə etdi ki, yaşımın bu ahıl vədəsində tələbələrimin mənə dikilmiş mehriban gözlərinə baxarkən ruhum dincəlir. Mənə ruh verən, yaşadan budur, başqa heç nə!

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***
**Gəncə**

# "Yaşıl" gələcəyə innovativ dəstək





**Ədliyyə Nazirliyində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş seminar keçirilib.**

Tədbiri giriş sözü ilə açan Ədliyyə nazirinin müavini Eldar Nuriyev bütün sahələrdə dinamik inkişaf edən Azərbaycan Respublikasında son illər həyata keçirilən çoxşaxəli, müasir çağırışlara cavab verən islahatların uğurlu nəticələr verdiyini, ölkəmizin beynəlxalq nüfuz və mövqelərinin möhkəmləndirini bildirib. Ötən 20 ildə demokratik dəyərlərin cəmiyyətdə daha da möhkəmləndiyini, həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının uğurlu nəticələr verdiyini, vətəndaş cəmiyyəti təsisatlarının möhkəmləndiyini, beynəlxalq təşkilatlarla əməkdaşlığın yeni müstəvidə davam etdirildiyini diqqətə çatdıran nazir müavini ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsi tədbirlərinin də xüsusi diqqət mərkəzində olduğunu vurğulayıb.

E. Nuriyev xüsusi vurğulayıb ki, ölkəmiz regionun iri neft və qaz hasilatçılarından biri kimi müasir dünyanın yeni çağırışlarını əsas tutaraq, malik olduğu alnernativ enerji mənbələrindən səmərəli istifadə istiqamətində mühüm tədbirlər həyata keçirir. Bu sahədə reallaşdırılan tədbirlərin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin nəticəsi olaraq, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının bu ilin noyabr ayında Azərbaycanda keçirilməsinə qərar verilib. O, həmçinin bildirib ki, nazirlik qlobal beynəlxalq tədbirə hazırlıqla bağlı üzərinə düşən vəzifələri reallaşdırır, vətəndaşların ekologiya hüququ sahəsində maarifləndirilməsi istiqamətində müvafiq tədbirlər görür.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik texnologiyaları: COP29-a aparan yol" mövzusunda məruzə edib. Rektor qeyd edib ki, Azərbaycanda innovativ inkişafın əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Urxan Ələkbərov ölkəmizdə qazanılan nailiyyətlərin dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu deyib. Əlavə edib ki, Ulu öndərin siyasi kursu Prezident İlham Əliyev tərəfindən inamla və yaradıcı surətdə davam etdirilir. Prezident İlham Əliyevin Azərbaycanın dinamik inkişafına, ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına imkan yaradan iqtisadi islahatlar strategiyası ölkənin təbii sərvətlərindən, intellektual resurslarından səmərəli istifadəyə əsaslanır. Elmi əsaslara söykənən bu islahatlar iqtisadi potensialına görə, dünyada 62-cı yerdə qərarlaşan Azərbaycanın 25 ən inkişaf etmiş, biznes üçün əlverişli mühitinin mövcud olduğu qabaqcıl ölkələr sırasında yer tutmasını təmin edib.

Akademik çıxışında vurğulayıb ki, Azərbaycan qlobal miqyasda aktual olan "yaşıl enerji", karbonsızlaşdırma, hidrogen istehsalı kimi layihələrin reallaşdırılmasının əsas təşəbbüskarlarından birinə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin hələ 2004-cü il 21 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" bu sahədə yol xəritəsi müəyyənləşdirərək, bərpa olunan enerji mənbələrindən istifadə məqsədilə əsaslı tədbirlərin həyata keçirilməsinə imkanlar açıb.

"Beynəlxalq Enerji Agentliyi tərəfindən plana əsasən, 2050-ci illədək dünya ölkələri tərəfindən atmosferə atılan karbon emissiyalarının tam şəkildə qadağan edilməsi nəzərdə tutulur. Paris İqlim Sazişini ratifikasiya edən Azərbaycan baza ili olan 1990-cı illə müqayisədə 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı könüllü öhdəlik götürüb və artıq bu öhdəliyi 40 faizə çatdırıb" – deyən akademik U.Ələkbərovun sözlərinə görə, Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, azad edilmiş ərazilərin və Naxçıvan Muxtar Respublikasının "yaşıl enerji" zonası, 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü dövlət siyasətinin təzahürüdür.

Rektor bildirib ki, iştirakçıların sayına, müzakirəyə çıxarılan məsələlərin aktuallığına görə dünyanın ən mötəbər tədbirlərdən hesab edilən COP29-un Azərbaycanda keçirilməsi barədə qərarın qəbulu ölkəmizin siyasi və iqtisadi nüfuzunun, alternativ enerji istehsalı sahəsində zəngin potensiala malik olmasının göstəricisidir. Dövlət başçımızın "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 3 may 2021-ci il tarixli sərəncamı bu sahədə yeni müasir konseptual yanaşmaları özündə əks etdirir: "Hesablamalara görə, Azərbaycanın quruda 27 qiqavatdan çox Külək və Günəş enerjisi, Xəzər dənizində 157 qiqavat həcmində Külək enerjisi potensialı mövcuddur Qarabağ və Şərqi Zəngəzurda Külək, Günəş və hidroenerji potensialı 10 qiqavatdan çoxdur. Bu potensial ölkədə ekoloji mühitin yaxşılaşdırılması və turizm cəlbediciliyinin artırılması ilə yanaşı, elektrik ixracı potensialının yüksəldilməsi baxımından da mühüm dividendlər vəd edir.

Tədbirdə çıxış edən digər şəxslər də COP29-un Azərbaycanda keçirilməsinin, bu sahədə maarifləndirici tədbirlərin əhəmiyyətindən söz açıblar. Qeyd edilib ki, noyabr ayında Azərbaycanda keçiriləcək beynəlxalq tədbir respublikamızın yaşıl enerjiyə keçid strategiyasının dünyaya təqdimatı, bu sahəyə xarici sərmayələrin cəlbi baxımından çox səmərəli olacaqdır.

***XQ***

19 May Türkiyənin Qurtuluş Savaşı Günüdür

# Türklüyün zəfər yolu



**Hər il may ayının 19-da Türkiyədə Atatürkü anma, Gənclik və İdman bayramı təntənə ilə qeyd edilir. "Anıtkabir" kompleksi ziyarət olunur, Atatürkün xatirəsi ehtiramla anılır və İstiqlal Marşı oxunur.**

Hər bir xalqın taleyində və tarixində dönüş nöqtələri olur. Türk milləti tarixdə bir neçə qurtuluş mərhələsi yaşayıb. Hələ qədim Ərgənokon dastanında türkün qurtuluş arzusu, idealı əksini tapıb. 1919-cu ilin 19 mayı oldu. Sonradan Atatürk olacaq Qazi Mustafa Kamalın Samsundan gəmi ilə çıxışı türk tarixində ümidin, inamın işartısı, geridönməz yeni mərhələnin başlanğıcı olub.

Xatırladaq ki, Birinci Dünya müharibəsinin sonuna yaxın – 30 oktyabr 1918-ci il Mudros müqaviləsi Qərb imperializmi tərəfindən türk millətinə verilən ölüm hökmü idi. Mustafa Kamal o zaman belə dedi: "Millətin istiqlalını yenə də millətin əzm və qərarı qurtaracaqdır". Qurtuluş savaşı bu fəlsəfə ilə başlandı və zəfərlə nəticələndi.

"Azərbaycan Türk Ocağı" İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist Akif Aşırlı həmin çətin, lakin şərəfli dövr barədə fikirlərini bizimlə bölüşdü:

– "Mudros müqaviləsinə əsasən, Türkiyə əraziləri İngiltərə, Fransa və Yunanıstan arasında bölünmüşdü. İstanbul ingilis əsgərləri ilə dolu idi. O zaman hakimiyyətdə olan İttihad və Tərəqqi partiyası iş başından çəkildi. Dövlətdə artıq başsızlıq yaranmışdı. Mustafa Kamal Paşa da ittihadçı kimi siyasi fəliyyətə başlamışdı. Lakin Qurtuluş savaşı ərəfəsində artıq onların arasında fikir ayrılığı var idi. Amma ittihadçılar gücləri çatan qədər Mustafa Kamal Paşa və silahdaşlarına kömək edirdilər. Onları Vətən idealı birləşdirirdi.

Təəssüf ki, o zaman Osmanlı sultanlığı Atatürkün ölümünə fitva vermişdi. Bu da, sözsüz ki, xalqın müəyyən hissəsini şübhəyə salmış, Mustafa Kamalla tam həmrəylik göstərməsinə mane olmuşdu. Bu zaman xarici işğala qarşı Mustafa Kamal müttəffiq axtarmağa başladı ki, o da Sovet Rusiyası oldu. Çünki o dövrdə İngiltərə hər iki qüvvəyə qarşı mübarizə aparırdı. Sözsüz ki, sovetlərin də marağı Türkiyənin bolşevikləşməsində idi. Həmin dövrdə dünya inqilabı nəzəriyyəsi gündəmdə idi. Bolşeviklər də bu işə Şərqdən başlamaq istəyirdilər. Mustafa Kamal Atatürkün böyüklüyü onda oldu ki, sovetlərin bu marağından istifadə etdi. O, cümhuriyyəti bolşevik ölkəsi qurmadı. Amma ən çətin dövrdə özünün hərəkatına dayaq tapa bildi.

Azərbaycan da o dövrdə çətin durumda idi. Buna baxmayaraq, Azərbaycan Cumhuriyyəti gizli şəkildə də olsa, Qurtuluş Savaşına yardım edirdi. Türkiyə İstiqlaliyyət müharibəsi Azərbaycan ictimaiyyətinin müxtəlif təbəqələrindən əhəmiyyətli və artan dəstək almışdı.

Sovet dövründə isə Nəriman Nərimanov Türkiyəyə yardımın başında dururdu. Onun Atatürkə "Paşam, qardaş qardaşa borc verməz, əl tutar" fikri bu gün də aktuallığını qoruyur.

Bəli, 1919-cu il mayın 19-da başlayan Türk Qurtuluş Savaşı Türkiyə Böyük Millət Məclisinin (TBMM) qurulması ilə özünün ən pik nöqtəsinə çatdı.Daha sonra Atatürkün rəhbərliyi ilə aparılan hərbi əməliyyatlar tam uğurla yekunlaşdı. TBMM 1923-cü ilin 29 oktyabrında Türkiyə Cümhuriyyətinin yaradıldığını elan etdi.

Dünya türkün qüdrətinə heyran qalmışdı. Hətta böyük hind siyasi lideri Mahatma Qandi kimi bir şəxsiyyət də bu mübarizədən ilham alaraq öz xalqının azadlığı uğrunda hərəkata başçılıq etmişdir.

Bu gün də Türkiyə Şərq üçün nümunə cümhuriyyət kimi rolunu davam etdirir.

***Ceyhun MİRZƏLİ,***
***Əli ƏLİYEV***
***XQ***

# Türk ellərinin şirin-şəkər şivələri

**Yaşadığımız hər gün bizi Turan birliyinin tam gerçəkləşəcəyi vaxta yaxınlaşdırır. Bu bayraq idealın həyata keçməsinə gedən yol öncəliklə türkcəmizin, azərbaycanca da daxil olmaqla, bütün qol-budaqları arasında tam anlaşıqlılığının təmin edilməsindən keçir. Burda isə ən zəruri amillərdən biri türk dil, ləhcə və şivələrinə məxsus sözlərin ortaq olaraq işlənməsidir.**

Bu baxımdan türkcələrarası ortaq kəlmələrdən ibarət lüğətlərin, müqayisəli sözlüklərin yayımlanması, eyni zamanda türk dillərindəki ləhcə-şivə elementlərinin də paylaşılması gərəkdir. Təəssüf ki, bu çərçivədə nəşrlər yox dərəcəsindədir. Bu problemi göz önündə tutaraq, İstanbulda Türkiyə türkcəsində yeni nəşr edilmiş "Gürcüstandan Azərbaycana ağız sözlüyü: Borçalı, Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir və Gəncə" kitabının çapı təqdirəlayiqdir. Azərbaycan Diaspora Dəstək Fondunun maliyyə dəstəyi ilə 440 səhifədə nəfis bir tərtibatla yayımlanmış bu əsərin müəllifləri Türkiyənin Qars Kafkas Universiteti Azərbaycan Türkcəsi və Ədəbiyyatı kafedrasının müəllimi dosent Afina Barmanbay ilə Azərbaycanın Filoloji Araşdırmalar və Dil Monitorinqi Mərkəzinin sədri Vasif Sadıqlıdır.

Əvvəlcə vurğulayaq ki, kitabın adında "sözlük" ifadəsi olsa da, toplu sözlük meyarlarını aşıb və elmi tədqiqat, monoqrafik əsər məzmunundadır. Burada sözlüklərdə alışdığımız ifadələr sadəcə yan-yana düzülməyib, leksemlər üzərində dəqiq incələmələr aparılıb, müqayisəli dialektologiya müstəvisində gərəkli qənaətlərə varılıb.

Azərbaycanın Qərbində bir-biri ilə qonşu bölgələrinin və Borçalının ləhcə sözləri, ləhcə–şivə ülfəti ilk dəfə bu araşdırmada təsnifləndirilərək, günlük yaşam, məişət səviyyəsindən elmi sistemə yüksəldilib. İzahlı və örnəkli toplama səciyyəli lüğətdə digər türk boylarına aid çoxlu sözlər də yer alıb. Kitab aid olduğu elm sahəsində boşluğu dolduracaq faydalı mənbədir.

Əsərdə öncə Azərbaycan dialektologiyası üzrə mövcud araşdırmalardan bəhs edilir, sonra sözügedən bölgələrdə fəal işlənən ləhcə-şivə sözlərinə Türkiyənin Ərzurum, Qars, Ərdahan, İğdır vilayətlərinin şivələrində də ağırlıqlı olaraq rast gəlindiyi göstərilir. Bəzi sözlərin səs tərkibi baxımından Anadolu türkcəsindəki, həmçinin digər türk boylarının dillərindəki kəlmələrlə ekvivalent olsa da, fərqli anlamlarda işləndiyi göstərilir.

Ləhcə-şivə sözləri haqqında izahlar lüğətdən istifadədə oxucuya bələdçilik edir. Bölgələrə məxsus 6 min civarında ləhcə-şivə lekseminə yer verilib. Bölgələrin məkan durumuna bağlı xəritələr və coğrafi-sosial məzmunlu məlumatlar da Türkiyə oxucusu üçün vacib bilgilərdir. Araşdırmaya cəlb edilən dialektoloji materiallar kültür və folkloru, tarix və etnoqrafiyanı, siyasət və sosial həyatı, flora və faunanı, əkinçilik və heyvandarlığı, digər yaşam-məslək sahələrini əhatə edir. Azərbaycan əlifbasıyla yazılan ləhcə-şivə leksemlərinin izahı Türkiyə türkcəsində verilərək, örnək cümlələrlə anlaşılması dəstəklənir.

Monoqrafiyanın maraq doğuran elmi məziyyətlərindən biri də ləhcə-şivə vahidlərinin fonetik və qrammatik xüsusiyyətlərinin aydın şəkildə müəyyənləşdirilməsi üçün bu izahatın hər bölgəyə aid seçmə folklor mətnləri ilə tamamlanmasıdır.

Azərbaycanın Qərb bölgələri ilə Gürcüstan hüdudlarında özlərinə qarapapaqlar da deyən Borçalı azərbaycanlılarının yığcam və çoxluq halında məskunlaşdıqları bölgənin bir müstəvidə elmi araşdırmaya alınması diqqət çəkir. Gerçəkdən, Borçalı əhli ana dilini saf və paklıqla yaşadan, zəngin mədəniyyət xəzinəsinə, həmçinin dadlı danışıq tərzinə malik özəlliyi olan bir toplumdur. Borçalı dialekti bir yandan Azərbaycanın Qərb ellərinin ləhcəsiylə, digər yandan da Anadolunun Ərzurum–Çıldıraraası yörələrinin dialektləri ilə yaxınlıq, bir bütünlük sərgiləməkdədir.

Bu baxımdan kitab strateji əhəmiyyətli elmi tədqiqat kimi də qiymətlidir. Vətəndən qıraqda qalan Borçalı azərbaycanlılarının Gəncə ötəsi yurdlarla etnik, dil, ləhcə vahidliyini ortaya qoyan bu monoqrafiya elmi önəmi ilə yanaşı, böyük milli mənafelərə də xidmət edir. Xəritələr kağız üzərində cızılır, könlü, ruhu isə bölmək mümkünsüzdür.

Əsərin daha bir önəmi xüsus nəşrin Türkiyədə Anadolu türkcəsində çapıdır. Kitabı ərsəyə gətirmiş yetkin alimlər çox gərəkli bir elmi çalışmaya imza atıblar, eyni zamanda türklük adına, türk birliyi idealı adına şərəfli təşəbbüs örnəyi göstəriblər.




Sözlükdəki şivə ünsürlərinin mühüm qismi sinədəftərlərdən toplanıb. Onu da qeyd edək ki, kitabın müəllifləri araşdırma aparılan bölgələrin dialektolojik mənzərəsinə bilavasitə yaxından bələdliliyi olan kəslərdir. Belə ki, Afina Məmmədli Barmanbay Borçalı kökənlidir, mərhum ədəbiyyatşünas professor, şair Əflatun Saraçlının qızıdır. Vasif Sadıqlı isə Qazax–Ağstafa bölgəsindəndir. Onların sahə çalışmaları sayəsində zəngin qaynaqları əldə edərək təsnifatlandırması kitabın ərsəyə gəlməsinə böyük təkan verib.

Nəhayət, kitabın redaktorluğunu tanınmış dilçi alim, professor Qəzənfər Kazımovla müştərək gerçəkləşdirməyimizdən böyük məmnunluqla, müəllifərə –

Afina xanıma və Vasif müəllimə bu qeyrət işinə görə böyük minnətdarlıq edirik.

***Şurəddin MƏMMƏDLİ,***
***Türkiyə Ərdahan Universitetinin kafedra müdiri, professor***

Unutsaq – unudularıq

# Bölgə teatrlarının fədakar rejissoru

**Artıq 2 ildir ki, Mingəçevir Dövlət Dram Teatrında bir çoxlarına müqəddəs sənət məbədi olan səhnəni sevdirmiş görkəmli rejissor, Xalq artisti Zülfüqar Abbasov aramızda yoxdur. Ömrünün 82-ci ilində fani dünya ilə vidalaşmış teatr fədaisi hələ çox-çox illər sonra da xatırlanacaq sənətkarlardandır.**



O, Tibilisi Dövlət Pedaqoji İnstitutu Azərbaycan bölməsinin və Bakı Teatr İnstitutunun məzunu olub. Teatr İnstitutunda təhsil aldığı zaman müəllimləri Mehdi Məmmədov, Rza Sarabski, Müxlis Qənizadə və Məlik Dadaşovdan sənətin sirlərini dərindən öyrənib. Rejissor kimi yaradıcılıq arenasına ilk dəfə İrəvan Dövlət Azərbaycan Dram Teatrında çıxıb. Daha sonra fəaliyyətini Mingəçevir, ardınca isə Qazax teatlarında baş rejissor, direktor və bədii rəhbər olaraq davam etdirilib.

Zülfüqar Abbasov İrəvan teatrının səhnəsində N. B. Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" pyesini uğurla səhnəyə qoyub. 1968-ci ildən fasilələrlə Mingəçevir Dövlət Dram Teatrının rejissoru və baş rejissoru olub. Bu teatrın səhnəsində "Hacı Qara" (M. F. Axundzadə), "Eşq və intiqam" (S. S. Axundov), "Müfəttiş", "Evlənmə" (N. Qoqol), "Əliqulu evlənir" (S. Rəhman), "Cavanşir", "Şeyx Şamil" (M. Hüseyn), "Mahnı dağlarda qaldı", "Sevgililərin cəhənnəmdə vüsalı" (İ. Əfəndiyev), "Şeytan nəsli" (H. Muxtarov), "Dar ağacı" (B. Vahabzadə), "Ölülər" (C. Məmmədquluzadə), "Almaz", "Solğun çiçəklər" (C. Cabbarlı), "Vaqif" (S. Vurğun), "Ayrılmaq anı" (M. Baycıyev) və s. əsərlərini uğurla səhnəyə qoyaraq, professional Azərbaycan teatrında maraqlı rejissor təfsiri ilə seçilib. Zülfüqar Abbasovun 1982-ci ildə Akademik Zərifə xanım Əliyevanın elmi-tibbi monoqrafiyasına həsr etdiyi "Anda xəyanət" tamaşası da maraqlı və orjinal bir səhnə təqdimatı olaraq xatırlanır.

Onun Mingəçevir və Qazax teatrlarından olan yetirmələri adını böyük ehtiramla anırlar. Sənətkarın ən yaxın dostlarından biri – Hacı Nərimanoğlu bun barədə deyir: "Nə qədər aktyor tanıyıram ki, teatra gələndə dili söz tutmurdu, səhnədə ayaqları bir-birinə dolaşırdı. Zülfüqar müəllim səbr, təmkinlə onları elə öyrədirdi, sənəti elə sevdirirdi ki, tamaşalara baxanda bəzən təəccüblənməli olurduq. Onun yetirmələri saymaqla bitən deyil. Çox da ki, hamısı paytaxta gəlib çıxa bilmir, layiq olduğu dəyəri almır, amma şərəfli teatr sənətinin ağır yükünü çiyinlərində sevə-sevə daşıyırlar".

Xatırlayıram ki, məhz Zülfüqar Abbasovun quruluşunda "Mahnı dağlarda qaldı" pyesi Mingəçevir Teatrında tamaşaya qoyulan uğurlu səhnə əsəri kimi necə böyük sensasiyaya səbəb olub. Bu tamaşadakı Böyük bəy rolunu Milli Akademik Dram Teatrından dəvət olunan, SSRİ Xalq artisti İsmayıl Dağıstanlı ifa edib. Premyeradan sonra "Mingəçevir işıqları" qəzetinə müsahibə verən İsmayıl Dağıstanlısəhnə əsəri haqqında belə deyib: "Bu tamaşa mənimçün böyük kəşf oldu. Çox istərdim ki, mənə Dövlət mükafatı Bakıda, Milli Akademik Dram Teatrda oynadığım Böyük bəy obrazına görə yox, məhz bu teatrda oynadığım obraza görə veriləydi. Bir də ki, tamaşanın rejissoru Zülfüqar Abbasov icazə versəydi, böyük bəyin evi-mülkü ilə vidalaşdığı son səhnədə olduğu kimi Bakıda oynadığım tamaşada da istifadə edərdim".

Zülfüqar Abbasov Cəfər Cabbarlının "Sitarə" librettosunu və Xalq şairi Nəriman Həsənzadənin "Nabat xalanın çörəyi" povestinə də maraqlı quruluşlar verib. Onun quruluşunda Qoqolun "Evlənmə" əsəri də böyük uğurla qarşılanıb və hətta Moskvadan bu tamaşaya baxmağa gələn rejissor Yuri Smirnov deyib: "Mənə də bu pyesi hazırlamağı təklif etmişdilər. Amma mən cürət etmədim. İndi gördüm ki, Zülfüqar Abbasov pyesdəki Padkolyosnını Rusiyanın simvoluna çevirməklə əsərə dəqiq açar tapıb. Əgər Zülfüqar Qulu oğlu icazə versə, mən də gedib bu tamaşanı belə hazırlayacağam".

Onun özünəməxsus səhnə tərtibatı verdiyi digər bir əsər böyük ədib Cəfər Cabbarlının "Sitarə" librettosu olub. Xatirələrində bu barədə yazdığı qeydlər maraqlıdır: "Sitarə" tamaşasında rolları teatrın ən aparıcı aktyorlarına vermişdim. Hətta bunlardan - Zülfü Məmmədovun, Afət Əliyevanın, Şıxı Yaqubovun, Namik Abdullayevin, İbrahim Salamovun oyunları mənim özümü də heyrətləndirmişdi. Mən, müəllifə sadiq qalaraq, tamaşanı klassik yunan üslubunda hazırlamışdım. Ona görə də yetərincə baxımlı alınmışdı".

2016-cı ildə Zülfüqar müəllim məni Qazax Dövlət Dram Teatrında C. Cabbarlının "Solğun çiçəklər" pyesinə baxmağa dəvət etmişdi. Deyilən vaxt Qazaxa yollandım. Tamaşaya baxarkən bir daha əmin oldum ki, həqiqətən də, fədakar rejissor verdiyi quruluşda böyük dramaturqun ideya və baxışlarına sadiq qalaraq, ilk növbədə pyesin aktuallığını qoruya bilib. Üstəlik də, böyük risk etməklə pyesə yeni bir personaj əlavə edib. Bu, Dərviş obrazı idi. Səhnədə cəmi 2 pərdədə görünən Dərviş (aktyor Nəsimi Aşbazov) vəziyyətlər dinamikasına daha çox yaxın idi. Bəhramın sanki sonradan başına gələcək hadisələri bir ilahi varlıq kimi işarətlə "Məndə əvvəl sənin kimi idim, indi necəyəm" söyləməsi səhnədə Dərviş obrazının maraqla izlənilməsini təmin etmiş oldu. Hadisələr xeyli maraqlı və dolğun şəkildə bir-birini əvəz edirdi. Səhnədə hər bir mizan yerli-yerində idi. Sonadək dramatik gərginlik yaşandı. Onu da deyim ki, o, hər hansı bir səhnəni mizanlara görə ya dəyişirdi, ya da əlavələr etməklə orjinallığı qorumağa çalışırdı. Bununla da Zülfüqar müəllim "Tamaşanın üç müəllifi olur: dramaturq, rejissor və teatr kollektivi ilə bərabər tamaşaçı" – fikrini əməli surətdə təsdiqləmiş oldu.

1997-ci ildə Şeyx Şamilin 200 illik yubileyi münasibətilə Mehdi Hüseynin "Şeyx Şamil" faciəsi Zülfüqar Abbasovun quruluşunda Azərbaycan Opera və Balet Teatrında göstərilən vaxt ulu öndər Heydər Əliyev də tamaşaya baxıb və bəyənib. Bu tamaşadan sonra rejissora birbaşa Xalq artisti fəxri adı verilib.

Zülfüqar Abbasov təkcə rejissorluq etmir, aktyor kimi də həvəslə səhnəyə çıxır və maraqlı dramaturgiya mətnləri yazırdı. O, uzun illər Qərb regionunda fəaliyyət göstərən EITV-nin efirində də maraqlı verlişlər hazırlayıb.

Xalq artisti Zülfüqar Abbasov hər zaman xatirələrdə yaşayacaq.

***Anar Ərtoğrul BURCƏLİYEV,***
**teatrşünas**

Sərgi salonlarında

# Naxçıvanda "Rənglərin harmoniyası"



**Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Əməkdar rəssam Həmzə Sadiqovun 75 illiyi münasibətilə fərdi yaradıcılıq sərgisi açılıb.**

"Rənglərin harmoniyası" adlanan sərgi Ulu öndər Heydər Əliyevin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunub. Muxtar Respublika Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva rəssamın həyat və yaradıcılığından bəhs edib, Milli Məclisin Mədəniyyət Komitəsinin yubilyara təbriklərini çatdırıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Anar İbrahimov rəssamı təbrik edərək bildirib ki, Həmzə Sadiqovun taleyi, həyatı həmişə vətənə bağlı olub. Bunu onun yaradıcılığından da görmək olur. Həmzə Seyidov I Qarabağ mühaibəsi zamanı Sədərək döyüşlərində fədakarcasına iştirak edib. Ali Məclisin sədr müavini Əməkdar rəssamın realizm üslubunda yaratdığı əsərlərin Naxçıvana yeni bir baxışla baxmağa böyük imkan yaratdığını bildirib, onun əsərlərini bir çox gənc rəngkar üçün örnək kimi dəyərləndirib.

Mərasimdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Türkiyə Respublikasının Muxtar Respublikadakı baş konsulu Asip Kaya, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Milli Məclisin deputatı Cəbi Quliyev, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev, muxtar respublika Yazıçılar Birliyinin sədri Asim Əliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Memarlar Birliyinin sədri Heydər Əhmədov və Xalq rəssamı Hüseynqulu Əliyev danışıb və yubilyara xoş arzularını çatdırıblar.

Əməkdar rəssam Həmzə Sadiqov verilən dəyərə görə minnətdarlıq edib. Sonra sərgiyə baxış olub. Sərgidə onun müxtəlif janrlarda ərsəyə gətirdiyi 60-a yaxın əsəri nümayiş etirilir.

***XQ***

# Zinət əşyalarımızın ABŞ təqdimatı

**ABŞ - Azərbaycan Ticarət Palatasında (USACC) Kanadada yaşayan Aynur Cahanın milli motivlər əsasında hazırladığı zinət əşyalarından ibarət kolleksiya nümayiş etdirilib.**



Təqdimatda ABŞ ictimaiyyət nümayəndələri və Vaşinqtonda yaşayan azərbaycanlılar iştirak ediblər. Palatanın icraçı direktoru Natiq Baxışov Aynur Cahanın əsasən milli motivlərdən ibarət bəzək əşyalarını xüsusi zövqlə hazırladığını diqqətə çatdırıb.

Xaricdə yaşadığı dövrdə Azərbaycana aid naxışlardan ibarət kolleksiya yaratmaq arzusunda olduğunu bildirilən Aynur Cahan deyib ki, nəhayət, istəyini reallaşdırıb. Bu naxışlar, əsasən, Azərbaycan xalçaları üzərində olan motivlərdir: "Yaratdığım kolleksiyalardan birinin üzərində Şuşada yerləşən Yuxarı Gövhər Ağa məscidinin motivləri əks olunub. Vətən müharibəsindəki möhtəşəm qələbəmiz məni o qədər fərəhləndirdi ki, belə bir kolleksiya ərsəyə gətirməyə qərar verdim".

Qonaqlar kolleksiyalarla yaxından tanış olublar. Aynur Cahanın bəzək vurduğu zinət əşyaları xaricdə Azərbaycan tətbiqi incəsənəti barədə təsəvvürləri daha da genişləndirib, əsrarəngiz motivlərin özəl hekayələri heyranlıq yaradıb.

***XQ***

# İranı idarə edən türk xanədanları

**İrandakı rejim bu ölkənin qədim dövlətçilik tarixi haqda, xüsusilə, Şimali Azərbaycanın İranın tərkibində olması və farsların hakimiyyəti barədə nağıllar uydurmağı sevir. Əlahəzrət tarix isə tamamilə başqa şeylər deyir. Azərbaycan nəinki İranın tərkibində olmayıb, əksinə, İranın özünü əsrlər boyu müxtəlif türk xanədanları idarə edib, min ilə yaxın müddət ərzində İran başdan-ayağa müxtəlif türk imperiyalarının tərkibində onun bir əyaləti kimi mövcud olub. Bu yazıda həmin türk dövlətləri və sülalələrinə qısa nəzər salmağa çalışdıq.**



Türklərlə farslar qonşu olduqları üçün türklərin İrana gəlişi eramızın IV əsrindən XX əsrin əvvəllərinə qədər davam edib. İslamı qəbul etməzdən əvvəl türklər Xəzərin şərqindən cənuba doğru İrana gəlib. İslam dinini qəbul etdikdən sonra türklərin girişi Xəzər dənizinin cənubundan şərq-qərb istiqamətində olub. XIII əsrdə və daha sonra türklər Türkiyə, Suriya və İraqdan da İrana köçüblər.

Turan hökmdarı Əfrasiyabın (Alp Ər Tunqa) nəslindən olan Sacilər, Qəznəvilər və Səlcuqlar (Firdovsinin “Şahnamə”sində də deyildiyi kimi) İran taxtını ələ keçirərək, uzun əsrlər davam edəcək türk hökmranlığını qurdular. Elə bu başlanğıcla İran coğrafiyasında min ilə yaxın müddətdə türk xanədanlığı hökm sürdü. Səfəvilər bu coğrafiyada qurulan beşinci türk xanədanlığı və türk dilini rəsmi dil elan edən ilk dövlət oldu.

## İran–Türk sülalələri (900–1450)

IX əsrdən İranda türk varlığı hiss olunmağa başladı. Bu proses elə inkişaf etdi ki, Orta Asiyadan gələn və ya gətirilən türklər öz hərbi imkanlarına görə İranda qurulan irili-xırdalı dövlətlərdə fəal rol aldılar və tədricən hökmdar oldular. Bu kontekstdə Qəznəvilər, Səlcuqlar, Monqollar, Elxanilər, Teymurilər sülaləsi, Qaraqoyunlular, Ağqoyunlular İranın müxtəlif bölgələrini idarə edirdilər.

## Qəznəvilər dövləti

961-ci ildə Əfqanıstanın Qəznə şəhərində Alp Tigin tərəfindən qurulan dövlətdir. 977-ci ildə Səbuq Tiginin hakimiyyətə gəlməsi ilə müstəqilliyini rəsmən elan edib. İranda öz hakimiyyətini bərqərar edən dövlətin çiçəklənmə dövrü Sultan Mahmud Qəznəvinin hakimiyyəti illərinə düşür. Sultan Mahmud Hindistana 17 dəfə yürüş edərək, nəhayət, onun fəthinə nail olub.

1040-cı ildə Səlcuqlarla Qəznəvilər arasında baş verən Dəndənəkan döyüşündə Səlcuqlar Qəznəvilərin varlığına son qoyublar.

## Böyük Səlcuq dövləti

Səlcuq dövləti 1038-ci ildə Qəznəvilərdən ayrılıb müstəqil oldu. Səlcuq Sultanı Alparslan Malazgirt döyüşündə Bizansı məğlub edərək indiki Türkiyənin əsasını qoydu. Hər cəhətdən mükəmməl sivilizasiya quran Böyük Səlcuq dövləti Katvan döyüşündə Qaraxitaylara məğlub olduqdan sonra böyük ərazilərə parçalandı. 1157-ci ildə Sultan Səncərin köçəri Oğuzlar tərəfindən əsir alınması ilə rəsmi olaraq süquta uğradı.

## Eldənizlər (Atabəylər) dövləti

Eldənizlər dövlətinin banisi Şəmsəddin Eldəniz Səlcuq dövlətində qul hərbçilərdən biri idi. Qeyri-adi hərbi biliyi və idarəetmə bacarıqlarına görə sultan tərəfindən Atabəy rütbəsinə yüksəldilmişdi. Səlcuq dövlətinin dağılması ərəfəsində - 1142-ci ildə Şəmsəddin Eldənizin başçılıq etdiyi qoşun İraq Səlcuqları üzərində qələbə qazandı, bununla da müstəqil Eldənizlər dövlətinin əsası qoyuldu. İran Eldənizlər dövlətinin tərkibinə qatıldıqdan sonra dövlətin paytaxtı Təbriz oldu. 1220-22-ci illərdə monqol hücumlarından zəifləyən Eldənizlər sülaləsi 1225-ci ildə Xarəzmşahlar dövlətindən asılı hala düşdü.

## Xarəzmşahlar dövləti

Böyük Səlcuq İmperiyası dağılandan sonra səlcuqlar nəslindən olan Qütbəddin Məhəmməd 1097-ci ildə özünü xarəzmşah elan etdi. Mərkəzi Asiyanın ən qüdrətli türk dövlətlərindən biri olan Xarəzmşahlar dövləti Əfqanıstan, Məvəraünnəhr, Xarəzm, İran, Cənubi Qafqaz qarışıq 5 milyon kvadrat kilometr ərazini əhatə edirdi. Əhalisi özbək, qaraqalpaq, tatar, xəzər, uyğur, qazax, tacik, türkmən və digər xalqlardan ibarət idi. Dövlətin idarəetmə sistemi Böyük Səlcuq İmperiyasındakı kimi idi.

## Teymuri İmperiyası

Çağatay xanlığında daxili iğtişaşlar ərəfəsində güclənən Əmir Teymur 1370-ci ildə adını daşıyan dövləti qurdu. Bu dövlət tezliklə Xarəzm, İran, Qafqaz, Dəşti-Qıpçaq, Hindistan, İraq, Suriya və Anadolunu əhatələyən böyük imperiyaya çevrildi. Çağatay xanlığı da daxil olmaqla Qızıl Orda, Cəlayir, Qaraqoyunlu, Osmanlı dövlətləri Teymurun tabeliyinə keçdi. Əmir Teymur 1405-ci ildə Çinə yürüş edərkən yolda vəfat etdi. Teymurdan sonra imperiyanın genişləndirilməsi prosesi dayandı. 1507-ci ildə Şeybani xanın paytaxt Herata daxil olması ilə Teymuri imperiyası dağıldı.

## Qaraqoyunlular

Köçəri türkmən tayfası olan Qaraqoyunlular Elxanilərin süqutundan istifadə edərək 1380-ci ildə Bayram Xocanın başçılığı ilə müstəqil oldular.

1400-cü ildə Qaraqoyunlu tayfasının başçısı Qara Yusif Teymurdan qaçaraq Osmanlı imperiyasına sığınmışdı. Teymur vəfat etdikdən sonra o, güc toplayıb Təbrizi ələ keçirdi və burada hakimiyyətini möhkəmləndirdi. Qaraqoyunluların varlığına Ağqoyunlular son qoydu.

## Ağqoyunlular

Diyarbəkir, Elazığ və Azərbaycan bölgələrində fəal türkmən tayfası olan Ağqoyunlular 1378-ci ildə Qara Yuluq Osman bəyin dövründə müstəqillik qazanmışdılar. Onlar dövlətlərini qorumaq üçün Ankara döyüşündə Teymura kömək etdilər. Teymur Malatya və Diyarbəkiri də göstərdikləri köməyə görə Ağqoyunlulara verdi. Qara Yuluq Osman bəydən sonra Uzun Həsən Ağqoyunluların başçısı oldu. Onun hakimiyyəti dövründə Ağqoyunlular Xorasandan Anadoluya, Qafqazdan Ərəbistan dənizinə qədər uzanan böyük dövlətə çevrildi. Ağqoyunluların güclənməsi Osmanlıların diqqətindən qaçmadı. Fateh Sultan Mehmet Trabzonda Roma İmperatorluğunu darmadağın etdikdən sonra üzünü Ağqoyunlulara doğru çevirdi. Otluqbeli savaşında Osmanlıdan ağır zərbə alan Ağqoyunlu dövlətinin dağılma prosesi başladı. Uzun Həsənin ölümündən sonra yaranan qarışıqlıqdan istifadə edən Səfəvi şahı İsmayıl bu dövlətin varlığına son qoydu.

## Səfəvilər dövləti

1501-ci ildə Şah İsmayılın başçılığı ilə səkkiz türkmən tayfasının Anadolu ətrafında birləşməsi və Ağqoyunluların dağılması ilə Təbrizdə elan olunan türk dövlətidir. Sonrakı illərdə bütün İranı fəth edən və bu coğrafiyada şiə əqidəsini yayan Səfəvilərin ən böyük düşmənləri məzhəb ayrılığı səbəbindən Osmanlılar və özbəklər oldular.

1510-cu ildə Səfəvi qızılbaşları özbəklərə qarşı böyük qələbə qazanaraq Xorasanı ələ keçirdilər. Ancaq onlar bu uğuru Osmanlılarla savaşda təkrarlaya bilmədilər. Çaldıran döyüşündə Yavuz Sultan Səlim Təbrizi ələ keçirib Səfəvilər üzərində qələbə çaldı. Müharibələr və daxili üsyanlar nəticəsində zəifləmiş Səfəvilər dövləti 1736-cı ildə çökdü.

## Əfşar sülaləsi

Əfşarlar sülaləsi Nadir şahın 1736-cı ildə İranı zəbt edən əfqanlara qarşı qurduğu dövlətdir. Böyük türk Nadir şah hakimiyyətə gəldikdən sonra əfqanları İrandan qovdu və qurduğu imperiyanın sərhədlərini Dehliyə qədər genişləndirdi. O, Dehlidən əldə etdiyi sərvətlə üç il vergi almamış, Səfəvilər dövlətinin süqutu ilə darmadağın olmuş İranın yaralarını sağaltmışdı. Bu səbəbdən Nadir şah tarixdə həm də İranın bərpaçısı kimi tanınır. 1747-ci ildə Nadir şahın ölümü ilə süqut edən dövlət sonrakı illərdə tarix səhnəsindən çəkildi.

## Qacar sülaləsi

Qacarlar Səfəvi dövlətinin qurulmasında iştirak edən türkmən tayfasıdır. Əfşarlar sülaləsinin süqutundan sonra İranda siyasi qarışıqlıqlar başladı və bir çox yeni dövlətlər yarandı. Onlardan birinin qurucusu Ağa Məhəmməd xan Qacar idi. Ağa Məhəmməd xan Qacarların siyasi birliyini təmin etdikdən sonra İranda digər dövlətlərlə mübarizə apardı. 1796-cı ildə İranın siyasi birliyini təmin edən xan paytaxtı Tehran olan Qacar dövlətini qurdu. Bu türk əsilli sülalə Rza şah Pəhləvi sülaləsini qurana qədər, yəni 1925-ci ilə qədər İranı idarə etdi.

## Pəhləvilər

Pəhləvi sülaləsi 1925-ci ildən 1979-cu ilə qədər İranda hakimiyyətdə oldu. Xanədan 1925-ci ildə Rza şah Pəhləvi tərəfindən qurulmuşdu. Onun oğlu Məhəmməd Rza şah Pəhləvi isə İranın son şahı oldu.

***Murad KÖHNƏQALA***

---

BEYNƏLXALQ HƏYAT

# ABŞ-ın kosmik “qalxan”ı

**ABŞ Müdafiə Nazirliyi kosmosda ölkənin peyk şəbəkəsini hücumdan qoruyacaq və lazım gəldikdə digər ölkələrin peyklərini sıradan çıxaracaq yeni nəsil yer və kosmik texnologiyalar yerləşdirməyi planlaşdırır. Bu barədə “The New York Times” Pentaqonun nümayəndələrinə istinadən yazır.**



“Pentaqonun hərəkətlərinin təfərrüatları ciddi şəkildə məxfi olaraq qalır. Lakin Müdafiə Departamentinin rəsmiləri kosmosun getdikcə döyüş meydanına çevrildiyi üçün bu təşəbbüsün hərbi əməliyyatlarda böyük dəyişikliyi əks etdirdiyini getdikcə daha çox qəbul edirlər. Qeyd olunur ki, Pentaqon nümayəndələri 2026-cı ilə qədər "tam spektrli əməliyyatlarda rəqabət aparmağa imkan verəcək əhəmiyyətli orbital imkanlara" malik olmağın planlaşdırıldığı istisna olmaqla, hər hansı detalı müzakirə etməkdən imtina ediblər.

Qəzet, həmçinin kosmosun hərbiləşdirilməsinin qaçılmaz olduğunu deyən müdafiə nazirinin kosmos siyasəti üzrə köməkçisi Con Plumbdan sitat gətirir. Departamentin digər nümayəndələri kosmosu nəinki potensial müharibə zonası hesab edir, həm də bildirirlər ki, orada kosmik silahların yerləşdirilməsi kifayət qədər sürətlə getmir.

"The New York Times" qəzetinin yazdığına görə, Vaşinqton Moskva və Pekini kosmosda müxtəlif texnika, o cümlədən hərbi texnika yerləşdirməyə dair sübut olmadan ittiham edir. Bununla belə, Rusiya və Çin BMT Təhlükəsizlik Şurasında kosmosda silah yerləşdirməyə qadağa tətbiq etməyi təklif ediblər, lakin bu, rədd edilib.

2024-cü ilin aprelində Rusiya ABŞ-ı kosmosun hərbiləşdirilməsinin qarşısının alınmasına yönəlmiş beynəlxalq müqavilələrin hazırlanması istiqamətində addımlar atmağa çağırıb. Elə həmin ay Rusiya Federasiyası BMT Təhlükəsizlik Şurasında nüvə silahının və digər kütləvi qırğın silahlarının Yerin orbitində yerləşdirilməsini qadağan edən ABŞ-Yaponiya qətnaməsinə veto qoyub.

Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzya vetonunu belə izah edib ki, Rusiya Federasiyası kosmosda təkcə nüvə deyil, istənilən silahı qadağan etməyə çalışır.

***SE LAY***
***XQ***

---

İDMAN

# “Yaşıl meydan”da həyat sevgisi

**Sağlamlıq məhdudiyyətli insanlar arasında futbol yarışları müxtəlif kateqoriyalar üzrə keçirilir. Əlillərin əmək qabiliyyətli insanlardan heç də aşağı olmadığını, hətta bəzən üstünlüyünü sübut etdikləri idman növlərindən biri də amputasiyalılar üçün futboldur. Bu oyunda birtərəfli aşağı ətraf amputasiyası və ya qapıçılar üçün yuxarı ətraf amputasiyası olan oyunçular sübut edirlər ki, idmanda əsas həvəs və istəkdir. Uğura isə böyük səy, gərgin əmək və əzmkarlıqla nail olmaq olar.**



Bəs ölkəmizdə amputasiyalılar üçün futbolun inkişafı, kütləviləşməsi, gələcək perspektivləri ilə bağlı hansı işlər görülür. Müsahibimiz 2023-cü ildə yaradılan Azərbaycan Amputasiya Futbol Federasiyasının (AAFF) prezidenti Elnur Sadıqovdur.

**– Öncə Azərbaycan Amputasiya Futbol Federasiyasının yaranması, məqsəd və vəzifələri ilə bağlı fikirlərinizi bilmək istərdik...**

– Azərbaycan Amputasiya Futbol Federasiyasını yaratmaqda əsas məqsəd, amputasiyalı futbolçuları bir araya gətirib, bu futbol növünü daha peşəkar səviyyəyə çatdırmaq, ölkəmizi beynəlxalq arenada layiqincə təbliğ etməkdir. Federasiyamız yarandığı gündən Azərbaycan Minatəmizləmə Agentlyi ilə sıx əməkdaşlıqda çalışır, onun tədbirlərində fəal iştirak edir. Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası bizə yaxından dəstək göstərir. Bildiyiniz kimi, milli komandamız əsasən, işğaldan azad edilmiş ərazilərimizdə düşmən tərəfindən basdırılan minaların partlaması nəticəsində xəsarət alan şəxslərdən ibarətdir. Bu idmanı inkişaf etdirməkdə məqsəd, həm də belə insanlara dəstək olmaq, Azərbaycanın minadan əziyyət çəkən bir ölkə olduğunu dünyanın diqqətinə çatdırmaqdır.

**– Millidə minaların partlaması nəticəsində xəsarət alan şəxslərdən başqa daha kimlər yer ala bilər?**

– Komandamızda heç bir məhdudiyyət yoxdur. Yəni qazilər, anadangəlmə əlillər, yaxud qəza nəticəsində sağlamlığını itirmiş hər bir kəs bu futbolda özünü sınaya bilər. Hazırda federasiyada 42 oyunçu var. Bu işdə futbol klubları bizə böyük kömək göstərirlər.

**– Ölkəmizdə amputant futbol komandalarının inkişafı qənaətbəxşdirmi?**

– Hazırda “Neftçi”, “Qarabağ”, “Sumqayıt” və “Kəpəz”in amputant futbol komandaları yaradılıb. Həmin komandalar arasında da müxtəlif yarışlar təşkil edilir. Bu ilin sentyabrında ölkə çempionatını keçirməyi nəzərdə tutmuşuq. Gələcəkdə regionlarda da klublar yaratmağı planlaşdırırıq. Ümumilikdə, bu sahədə görülən işlər öz bəhrəsini verməyə başlayıb.

Millimiz beynəlxalq arenada Azərbaycanı layiqincə təmsil etmək üçün potensialını getdikcə artırır. Ötən il yığmamız Avropa Amputant Futbol Federasiyasının təşkilatçılığı ilə keçirilən Millətlər Liqasında uğurla çıxış edərək Avropa çempionatının finalına vəsiqə qazanıb.

**– Avropa çempionatına hazırlıq necə gedir və bu yarışdan hansı nəticələr gözləyirsiniz?**

– Fransada iyunun 1-dən 8-dək keçiriləcək Avropa çempionatı bizim üçün daha bir ciddi sınaqdır. Hazırlıqla bağlı fasiləsiz məşqlər edirik. Aprelin 23-dən mayın 7-dək Türkiyədə təlim-məşq toplanışında iştirak etdik. Hazırda Türkiyənin “ODTÜ Amputant” futbol klubu ilə birlikdə Quba Olimpiya İdman Kompleksində təlim-məşq toplanışı keçirik.

Komandamız Avropa çempionatının final mərhələsində ilk dəfə iştirak edəcək. 16 komandanın mübarizə aparacağı yarışda dünya çempionu Türkiyə ilə yanaşı İngiltərə, Fransa, İspaniya, İtaliya, Almaniya və Polşa kimi güclü millilər də çıxış edəcəklər. Ümid edirik ki, ilk 2 yerdə qərarlaşıb, növbəti tura çıxa biləcəyik. Əsas hədəf isə dünya çempionatına vəsiqə qazanmaqdır. Ölkə sıralamasına görə, ilk 7 yerin sahibi dünya çempionatına lisenziya əldə edəcək.

**– Gələcək planlarınız?**

– Ötənilki Millətlər Liqasında D divizionunda mübarizə aparırdıq. Niderlandla ilk görüşümüz uğursuz olsa da, Şotlandiya, Albaniya və Kosovo seçmələrinə qalib gələrək qrupu 2-ci pillədə tamamladıq. Biz artıq bu yarışın “C” divizionuna yüksəlmişik. Gələnilki Millətlər Liqasının oyunlarının Azərbaycanda keçirilməsi üçün təkliflərimizi verəcəyik. Ümid edirik ki, yarışda yüksək səviyyədə çıxış edəcəyik.

Bir qazi, sağlamlıq imkanları məhdud şəxs kimi, itirdiyimiz ayağımızı “yaşıl meydan”da tapmışıq. Hər dəfə stadionda qələbə uğrunda apardığımız mübarizə bizə fəal həyat tərzindən zövq almaq üçün geniş imkanlar verir. Gələcəkdə əsas hədəfimiz Azərbaycanı dünyada layiqincə təmsil edib, yeni zirvələr fəth etməkdir.

***Leylα URBANOVA***
***XQ***

---

# Qədim Zəngəzurun yeni teatrı



**Mayın 20-də Rəşid Behbudov adına Mahnı Teatrında yeni yaranmış Qədim Zəngəzur Teatrının ilk premyerası olacaq. Yaradıcı kollektiv “44 dəqiqə” tamaşasını təqdim edəcək. Premyera ərəfəsində XQ-nin əməkdaşı teatrın direktoru Firidun Əliyevlə görüşərək ondan qısa müsahibə alıb.**

**– Firudin müəllim, Qədim Zəngəzur Teatrı necə yarandı?**

– Xalqımızın 2020-ci il Tarixi Zəfərindən sonra düşündük ki, sənət adamları kimi, biz də dövlətimizə və xalqımıza öz töhfəmizi verək. Prezident İlham Əliyevin “Böyük qayıdış” planı uğurla reallaşır. Əhalinin düşməndən azad edilmiş Şərqi Zəngəzur bölgələrinə qayıdışı həyata keçirilir. Ümid edirik ki, teatrımız orada doğma yurda qayıdan ailələri bir-birindən gözəl tamaşalarla sevindirəcək. Beləcə, müstəqil teatrı yaratmaq qərarına gəldik.

2023-cü ilin noyabrından aktyor və rejissor kollektivini toplamağa başlamışıq. Gördüyünüz kimi, artıq ilk tamaşamız da hazırdır.

**– Teatrın repertuar siyasətini necə qurmaq fikrindəsiniz?**

– Teatrın bədii rəhbəri, istedadlı aktyor Ramil Zeynalov həm yerli, həm də xarici əsərlər əsasında tamaşalar hazırlamağı düşünür. Təbii ki, əsas məqsədimiz torpaqlarımızı azad edən qəhrəmanların bədii obrazlarını yaratmaqdır.

**– Aktyor heyəti kifayət qədər peşəkardırmı?**

– Teatrın yaradıcı heyətinə “kastinq” elan edərək ən istedadlı gəncləri cəlb etməyə çalışmışıq. Onlardan Mahir Mirişli, Sübhü Fərəcov, Əlixan Nağızadə və başqalarının adlarını çəkmək olar. Ümumiyyətlə, istedadlı və gənc aktyorlarımız çoxdur.

**– İlk premyeradan nə gözləyirsiniz?**

– Hər bir premyera yaradıcı kollektiv üçün böyük sınaqdır. Ümid edirəm ki, təqdim etdiyimiz əsər tamaşaçıların xoşuna gələcək. Əsgərlərimiz çox ağır döyüş yolu keçiblər. Onların başlarına gələn hadisələri, yaşadıqları ağrı-acıları, qələbə sevincini gənc nəslə ötürmək lazımdır. Məqsədimiz məhz budur.

**– İndiki şəraitdə tamaşaçını teatra cəlb etmək o qədər də asan deyil...**

– Haqlısınız. Amma biz bununla bağlı bir sıra planlar qurmuşuq, hədəflər düşünmüşük. Bir tamaşa hazırladıq, getdik, hardasa göstərdik, bununla kifayətlənməyəcəyik. Yeni, dəyərli tamaşalar araya-ərsəyə gətirəcəyik.

**– İnsanlar teatrda həyatda üzləşdiyi problemlərin bədii həllini görmək istəyir. Sizin tamaşalar cəmiyyətin bu suallarına cavab verə biləcəkmi?**

– Həyat bir teatrdır. Hər kəs özünün seçdiyi rolun ifaçısıdır. Aktyor isə həm də başqa insanların xarakterlərini yaradır. Bu obrazları elə yaratmalıyıq, insanlar düşünsünlər və təsirlənsinlər.

***Söhbəti qələmə aldı:***
***Fidan SALMANOVA,***
***Elşən AĞALAROV (foto),***
***XQ***


## “Faxraküş Şərab” ASC səhmdarlarının nəzərinə!

2 iyul 2024-cü il saat 11.00-da Binəqədi rayonu, Binəqədi şossesi 3-cü döngə, 25 nömrəli ünvanda səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. 2023-cü ilin yekunlarına aid idarə heyətinin hesabatı.
2. Təşkilati məsələ: ( idarə heyəti, müşahidə şurası və təftiş (audit) komissiyasının sədr və üzvlərinin seçilməsi).
3. Digər məsələlər.

*“Faxraküş Şərab” ASC-nin idarə heyəti*

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 104 (30508) 19 may 2024-cü il, bazar

20 May Ümumdünya Bal Arısı Günüdür

# Uzun ömrün cövhəri

**Zərif qanadları ilə uçaraq güldən-gülə, çiçəkdən-çiçəyə qonan bal arısı öz həyat tərzi, iş rejimi, yaşam fəlsəfəsi, istehsal etdiyi bir-birindən qiymətli və sağlamlıq üçün əhəmiyyətli məhsulları ilə möcüzəli bir dünya təsiri bağışlayır. Elə bir dünya ki, doğumundan ölümünə qədər hər anı müəyyən qanunlarla tənzim olunur.**

Dünyada 20 mindən artıq arı növü var. Onlara Antarktidadan başqa dünyanın istənilən yerində rast gəlinir. 17-18 günlükdə arılar bala çıxarırlar. Qüvvəsi, yeni işçi arı sayı çox olan arı ailəsi ildə 35-40 kiloqram təmiz bal verə bilər.

"Qurani-Kərim"in "Ən-Nəhl" surəsində də bu barədə bəhs olunur. Məhəmməd peyğəmbər (ə) deyirdi: "Bal ye, sağlam ol".



Böyük Sokrat isə "Bal uzun ömrün cövhəridir" söyləyirdi.

Arı 100 qram bal hazırlamaq üçün kilometrlərlə yol qət edir və yüzlərlə çiçəyə qonur. Həmin məsafədə yaxşı şirə taparsa, qayıdıb o biri arılara qəribə hərəkətlərlə xəbər verir. Onlar həm yaxşı şirə olan yeri hiss edirlər, həm də onlara qulluq edənləri tanıyırlar.

Arı dünyası çox ecazkar və sirlidir. Maraqlıdır ki, işçi arı cəmi 40-45 gün, ana arı isə ondan 50-60 dəfə çox 6-7 il yaşayır. Apidiyetoloqlar arı sancması ilə az qala bütün xəstəlikləri müalicə etməyin mümkünlüyünü söyləyirlər. Təxminən, ayyarım yaşayan kiçik bir varlıq öz qısa ömründə nə qədər xeyirxah və savab işlər görür. Arının istehsal etdiyi bal, bərəmum, propolis, arı südü, çiçək tozu, mum və güləm sağlamlıq üçün olduqca qiymətli və əvəzsiz məhsullardır.

Təbabətdə sübut edilib ki, çiçək tozcuğu insana lazım olan bütün vitamin-mineral kompleksini özündə cəmləşdirən nadir qida maddəsidir.



Balın tərkibində həyat əhəmiyyəti olan vacib 450-yə qədər komponent var.

Arı ən böyük loğman, onun istehsal etdiyi məhsullar isə əvəzsiz dərmandır. Son vaxtlar həkimlər arı sancması ilə bir çox xəstəliklərə şəfa verməyin mümkünlüyünü sübut ediblər. Ana südündən başqa dilinə heç nə dəyməyən körpənin dilinə bal sürtülməsi onun ağız boşluğunda və ağız ətrafında olan mikrob və bakteriyalardan qoruyur.

Azərbaycanda arıçılıq kənd təsərrüfatının inkişaf edən sahələrindən biridir. Onu inkişaf etdirmək məqsədilə son illər bir sıra tədbirlər həyata keçirilib. Dövlət başçısı Azərbaycanda arıçılığın inkişafının stimullaşdırılması haqqında sərəncam da imzalayıb. Ölkəmizdə bal verən 600-ə qədər bitki növü mövcuddur ki, bunların da təxminən, 200-ü nektar və çiçək tozu mənbəyi kimi arıçılığın genişləndirilməsi üçün daha böyük təbii imkanlar yaradır.

Deyirlər ki, məşhur loğman İbn Sina dünyadan köçəndə ətrafına toplaşanların onları kimin ümidinə qoyub getdiyini soruşanda deyib: "Mən gedirəm, amma iki böyük loğman qalır. Onun biri dəvədir, biri də arı. Dəvənin südünü için, ətini yeyin, arının balını".

Son illərdə dünyada milyardlarla arının məhv olması, onların saylarının azalması narahatlıq doğurmağa başlayıb. Dahi Eynşteyn deyirdi ki, arılar qırılandan dörd il sonra dünya məhv olacaq. Məşhur alimin bu sözləri belə deməyə əsas verir ki, arı həm də həyat mənbəyidir. Deməli, nə qədər ki, arı var, həyat da var…

***Süleyman QARADAĞLI***

İDMAN

## Paraatletimizin 3-cü dünya çempionluğu




**Azərbaycan paraatleti Lamiyə Vəliyeva Yaponiyanın Kobe şəhərində keçirilən dünya çempionatının qalibi olub.**

İdmançımız T13 kateqoriyasında 100 metr məsafəyə qaçış üzrə finişə 11.94 saniyəyə çataraq dünya çempionatında qızıl medal qazanıb. Bununla da, 22 yaşlı idmançımız üçqat dünya çempionu tituluna sahib olub.

Qeyd edək ki, Lamiyə Vəliyeva ötən il Fransanın paytaxtı Parisdə təşkil edilmiş dünya çempionatında 100 və 400 metr məsafəyə qaçış üzrə qızıl medal qazanıb.

## Şahdağda xizək alpinizmi üzrə Dünya kuboku



**Azərbaycanda ilk dəfə xizək alpinizmi üzrə Dünya kuboku yarışı keçiriləcək.**

Dünya Kubokunun 2025-ci il yanvarın 11-12-də "Şahdağ" Turizm Mərkəzində keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Dünya kubokunun təşkili ilə bağlı qərar bu il martın 9-10-da Azərbaycan Qış İdman Növləri Federasiyası və "Şahdağ Turizm Mərkəzi"nin birgə təşkilatçılığı ilə baş tutan Beynəlxalq Xizək Alpinizmi seriya yarışından sonra ISMF tərəfindən hazırlanmış uğurlu qiymətləndirmə hesabatının nəticəsi əsasında verilib.

## Macarıstanda qızıl və gümüş medal

**Macarıstanda Eger şəhərində gənc boksçular arasında keçirilən beynəlxalq turniri Azərbaycan millisi 2 medalla başa vurub.**



Baş məşqçi Elbrus Rzayevin komandasında Abbasqulu Şadlinski (71 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, finalda Arpad Jambora 4:1 hesabı ilə qalib gələrək, qızıl medala sahib olub.

Tağı Nəsibov (60 kq) isə həlledici görüşdə özbəkistanlı Abdulaziz Jurakulovla üz-üzə gəlib. Görüş rəqibin 4:1 hesablı qələbəsi ilə başa çatdığından boksçumuz gümüş medala yiyələnib.

***L.QURBANOVA***
***XQ***

# Salman Mümtaz Leninə nə deyəcəkmiş?

**AMEA Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi Şəlalə Ana Hümmətli məni "Türk dünyasının mümtaz oğlu Salman Mümtaz" kitabının təqdimatına dəvət etmişdi. Tədbirdə iştirak etdim və orada Salman Mümtazın nəvəsi, şərqşünas Urxan Qalabəyli ilə tanış oldum.**




Salman Mümtazın ağrı-acılarla dolu taleyi hamıya məlumdur. Onun ədəbiyyatımızdakı ölçüyəgəlməz xidmətləri haqqında da çox deyilib, çox yazılıb. Amma onun nəvəsi ilə çay süfrəsi arxasında söhbətimizdə çox maraqlı məqamlara toxunuldu. Urxan bəy danışır ki, babamı sürgünə göndərmişdilər, amma nənəm, böyük inamla onun yolunu gözləyirdi. Sürgündən qayıdanları tapıb onlardan ərinin taleyi haqda xəbər bilmək istəyirdi.

Deyirlər, bir gün nənəm eşidib ki, çox məşhur simalardan biri sürgündən qayıdıb, anamı da götürüb onlara gedib ki, bəlkə, Salman Mümtaz haqqında nəsə yeni bir xəbər ala bilər. Urxan bəy qəhərlə, danışır ki, o səhnə heç vaxt gözümün qabağından getmir. Anamla sürgündən qayıdan həmin adamgilin yaşadığı həyətə girdik, anam qapını döydü, adam qapıya çıxdı ki, kimsiniz, nə istəyirsiniz? Anam deyəndə ki, mən Salman Mümtazın qızıyam, kişi dəli oldu. Anamın ayaqlarına düşdü, uca səslə qonşulara səsləndi ki, "ay camaat, heç bilirsiniz bu, kimin qızıdır?! Salman Mümtazın qızıdır e!"

Urxan bəy danışdıqca gözlərindən yaş süzülür, əlləri titrəyir. Onun bu halı mənə də sirayət edir, həyəcanlanıram. Onu sakitləşdirməyə çalışıram. Deyir ki, babamın Nəriman Nərimanovla çox yaxın münasibətləri olub. Nərimanov həmişə ona deyərmiş ki, ay Salman, gəl, bolşeviklər partiyasına üzv ol, sənin üçün hər cür şərait yaradarıq, elmi fəaliyyətinlə məşğul olarsan. Babam deyərmiş ki, bir şərtlə bu partiyaya üzv olaram. Sən məni Leninlə görüşdür. Ona bir sualım olacaq. Nərimanov deyir ki, ona nə sual verəcəksən? Salman Mümtaz deyib ki, Lenindən soruşacağam ki, bu necə ədalətli hökumətdir ki, hamının var-dövlətini əlindən alırsınız? Budur sizin haqq-ədalətiniz?!

O, daxilən yeni qurulan hökuməti qəbul etmirdi, onu işğalçı adlandırırdı. Salman Mümtaz təpədən-dırnağa türkçü idi. Buna görə də onu daim izləyirdilər. 1937-ci ildə "pantürkist" kimi həbs olunanlar sırasında Salman Mümtaz da var idi. Onun illər boyu böyük zəhmət hesabına topladığı 270-ə yaxın qiymətli əlyazmalar məhv edildi. Özünü də 10 il müddətinə azadlıqdan məhrum edərək Rusiyanın Oryol vilayətinə sürgün edirlər. 1941-ci ilin sentyabrında Oryol şəhəri yaxınlığında, Medvedski meşəsində güllələndi...

***Kənan HACI***

Sosial şəbəkələrdən seçmələr

## Zəri zərgərə verin...



**Bu günlərdə AMEA Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aynur Familqızı "Facebook"da düşündürücü bir paylaşım edib. Orada yazılır:**

"Deyirlər ki, ilk konsertindən sonra anası Motsartdan soruşub:
– Oğlum, konsertin necə keçdi?
Gələcəyin böyük bəstəkarı belə cavab verib:
– Böyük alqışlar qazandım...
Ana sevinir və bu dəfə dinləyicilərin sayı ilə maraqlanır:
– Orada çoxmu insan var idi?
Motsartın cavabı anasını şoka salır:
– Bir adam var idi, amma mənim ifamı çox ürəkdən alqışladı..."

Yeri gəlmişkən, dahi Avstriya bəstəkarı Volfqanq Amadey Motsart ilə anası arasında belə bir dialoqun, həqiqətən, olub-olmadığını təsdiq və ya inkar etmək çətindir. Məlumdur ki, dahi bəstəkarın hər bir ifası və yazdığı ölməz bəstələr hələ uşaq yaşlarından Avropanın ən böyük və nüfuzlu konsert saraylarında dərin rəğbət və sonsuz heyranlıqla qarşılanıb.

Yuxarıdakı hekayətdən doğan məntiq isə budur ki, hər bir insan qədri bilindiyi, varlığı hiss olunduğu yerdə dəyərlidir. Sadəcə, məkan və zaman düzgün seçilməlidir. Sizə öz sevgisini əsirgəməyən insanların yanında olun!

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

Hava

# Abşeronda yağmursuz, bölgələrdə yağıntı və duman



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 19-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gündüzdən bəzi yerlərdə fasilələrlə yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 10-13°, gündüz 16-20° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 762 civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər saatlarında əksər rayonlarda yağıntıda fasilə olacaq. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 8-13°, gündüz 17-22° isti, dağlarda gecə 1° şaxtadan 4-dək isti, gündüz 4-8° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3940
SİFARİŞ 962
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00